RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 99 (10119) 9 iyun 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR






## İRADƏ MÖHKƏM OLANDA

Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı sayılan cənab İlham Əliyev başlanmış işləri uğurla davam etdirdi, xalqa verdiyi bütün vədləri şərəflə yerinə yetirdi!

Prezident İlham Əliyev eyni zamanda bir neçə mühüm istiqamətdə fəaliyyət göstərirdi.

* Möhkəm iradə, açıq və qətiyyətli mövqe, hədəfə doğru dayanmadan irəliləmək dövlət başçısı cənab İlham Əliyevin xarakterik xüsusiyyətidir.

* Siyasi fəhm, uzaqgörənlik, nəyi nə vaxt və necə etmək məharəti isə uğur və nailiyyətlərinin mayasını təşkil edir.

* Azərbaycan Prezidenti cənab İlham Əliyev müasir dünyanın ən nüfuzlu və sayılıb-seçilən liderlərindən sayılır.

Bu hörməti dünya dövlətləri ilə qurduğu qarşılıqlı marağa və faydaya əsaslanan münasibətlər, hamıya xeyir gətirən beynəlxalq layihələr əsasında qazanmışdır.

Bu gün Azərbaycan 10-u Avropa İttifaqının üzvü olmaqla 16 ölkəyə "Cənub qaz dəhlizi" vasitəsilə təbii qaz ixrac edir.

Müharibələr getdiyi, daşımalarda problemlər yarandığı bir vaxtda təhlükəsizliyi ilə diqqət çəkən Orta dəhlizin işə salınmasına son hazırlıq işləri gedir.

İlham Əliyevin möhkəm iradə və qətiyyətinə 30 illik işğala son qoyulan çarpışmalarda bir daha şahidlik etdik.

44 günlük Zəfər müharibəsində, əslində, üç cəbhədə döyüş gedirdi.

Zəngilanlılarla son görüşündə həmin illəri xatırlayan cənab İlham Əliyev maraqlı açıqlamalar verdi:

"İkinci Qarabağ müharibəsi zamanı bizə nə qədər təzyiqlər olsa da, onların heç biri nəticə vermədi. Halbuki bizi dayandırmaq istəyənlərin sayı kifayət qədər çox idi. Birincisi, o vaxt ATƏT-in Minsk qrupuna rəhbərlik edən həmsədrlər, o ölkələr. Hərəsi öz səbəbinə görə bizi dayandırmaq istəyirdi. 44 gün ərzində dəfələrlə bizə təzyiqlər göstərilirdi. O ölkələr sıradan olan ölkələr deyil - onlar nüvə dövlətləridir, onlar BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir. Görün, biz kimlərlə üz-üzə qalmışdıq. Hər biri bu işğalı əbədi etmək, bundan bir alət kimi istifadə etmək və nəticə etibarilə Azərbaycan xalqına rahat nəfəs almaq imkanı verməmək üçün dəridən-qabıqdan çıxırdı. Təkcə onlar deyil, başqa ölkələr də bizim qələbəmizi istəmirdilər".

İnformasiya və diplomatiya müharibəsində də Prezidentimiz eyni qətiyyət və iradə nümayiş etdirdi.

30-dan çox telekanala, qəzetə və informasiya agentliyinə verdiyi müsahibələrdə bütün məkrli sualları konkret faktlar və dəlillər əsasında cavablandırdı, Azərbaycana ləkəyaxma cəhdlərini rədd etdi!

Diplomatiya sahəsində də eyni iradə və qətiyyətin şahidi olduq.

Cənab İlham Əliyevin irəli sürdüyü şərtlər yerinə yetirilməyənə, Ermənistan silahlı qüvvələrinin ərazilərimizdən çıxarılma qrafiki təqdim edilməyənə qədər hərbi əməliyyatlar dayandırılmadı.

Azərbaycan həm də ləyaqətli müharibə apardı, düşməndən qisasını döyüş meydanında aldı.

Cənab İlham Əliyevdən daha bir iqtibas:

"Bu gün dünyada bizə olan hörmətin bir çox səbəbləri var: həm qalib xalq kimi, həm müharibəni müharibə qanunlarına uyğun aparan xalq kimi, həm humanitar qaydalara riayət edən xalq kimi və qurub-yaradan xalq kimi. Yaxşı, 30 il bu Zəngilan onların əlində idi, daşı daş üstə qoyardılar da əgər bu, onların torpağıdırsa. Zəngilanın o dağılmış məscidini biz konservasiya etmişik, orada da kiçik bir fotosərgi təşkil etmişik ki, heç kim unutmasın nə günə salmışdılar onlar bizim dini-tarixi abidələrimizi. Bu, onların idisə, tikib qurardılar da. Cəmi beş il keçib, təkcə Zəngilan yox, görün, hər yerdə quruculuq işləri aparılır - yollar, körpülər, elektrik stansiyaları, su anbarları, köçkünlər üçün evlər, məktəblər tikilir. Bax, sahiblər belə edər. Talançı, işğalçı isə gələr sökər, dağıdar. Amma nə qədər söksələr də, yenə də bizim iradəmizi qıra bilmədilər. Biz qayıtmalı idik və qayıtmışıq bu torpaqların sahibləri kimi. İndi də qurub-yaradırıq".

4

## Qurtuluş missiyasının başlandığı gün

### Ulu Öndər Heydər Əliyevin 1993-cü il iyunun 9-da Bakıya gəlişi Azərbaycan xalqının sabaha olan inamını bərpa etdi



9 iyun tarixi milli qurtuluş fəlsəfəsinin təməlinin qoyulduğu, xalq-lider birliyinin monolitə çevrildiyi tarixi gündür. Həmin gündən başlanan strateji gedişlər və həyata keçirilən qətiyyətli idarəçilik Azərbaycanı vətəndaş qırğınından xilas etməklə yanaşı, ölkəmizin gələcək onilliklər üçün qlobal inkişaf modelinin konturlarını cızdı. Müstəqil dövlətimizin qazandığı qlobal uğurlardan, beynəlxalq miqyasda əldə edilmiş etibarlı tərəfdaş və qüdrətli ölkə statusundan qürurla söz açarkən bu nailiyyətlərin təməlinin qoyulduğu zamanın Azərbaycan tarixinin silinməz salnaməsi olduğunu xüsusi qeyd etməliyik. Çünki bu gün müasir, suveren və güclü Azərbaycanın beynəlxalq arenada qazandığı möhtəşəm uğurların, Avropanın enerji təhlükəsizliyinin qarantına çevrilməsinin, qlobal logistik layihələrin mərkəzi statusunu daşımasının sarsılmaz təməli Ulu Öndər Heydər Əliyevin 9 iyun qayıdışı ilə qoyulub. Tarixin silinməz məqamları müstəqil dövlətimizi böyük təhlükələrdən xilas edərək dünyada nüfuz qazanmış Azərbaycanın adını zirvələrə yüksəldib.

Danılmaz tarixi reallıqdır ki, müstəqilliyi əldə etmək nə qədər çətin və fədakarlıq tələb edən bir prosesdirsə, onu qoruyub saxlamaq, dövlət təsisatlarını daxili və xarici təhdidlərdən sığortalamaq bir o qədər də mürəkkəb və önəmlidir. Dövlətçilik ənənələrinin formalaşması, xalqımızın milli azadlıq ideallarının real siyasi müstəviyə keçməsi, Azərbaycanın qanlı-qadalı illərdən çıxması və intibah dövrünə qədəm qoyması birbaşa Ulu Öndər Heydər Əliyevin adı və misilsiz fəaliyyəti ilə bağlıdır. 1990-cı ilin qanlı 20 Yanvar hadisələrindən sonra Ümummilli Liderin Moskvadakı xəyanətkar sovet rejiminin ciddi təqiblərinə və təzyiqlərinə baxmayaraq, öz həyatını təhlükəyə ataraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlməsi, sovet imperiyasının rəhbərliyinə qarşı kəskin, ifşaedici və cəsarətli bəyanatla çıxış etməsi milli azadlıq hərəkatına verilən ən böyük tarixi, siyasi və mənəvi dəstək idi.

5

## Azərbaycanın "yaşıl inkişaf", ekoloji məsuliyyət və dayanıqlı gələcək yolu



Son illər Azərbaycan dövlət siyasətində ekoloji məsələlərə xüsusi yer ayırır. Təsadüfi deyil ki, "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" hədəfi Azərbaycanın 2030-cuilədək sosial-iqtisadi inkişaf üzrə beş milli prioritetindən biri kimi müəyyənləşdirilib. Bu yanaşma, əslində, ölkəmizin inkişaf modelində keyfiyyətcə yeni mərhələnin başlanğıcı kimi də qiymətləndirilə bilər. Əgər əvvəlki dövrlərdə əsas diqqət iqtisadi inkişafa və infrastruktur quruculuğuna yönəlmişdisə, hazırda bu proses ekoloji dayanıqlılıq prinsipləri ilə tamamlanır.

Yaşıllıq sahələrinin artırılması, meşələrin bərpası, tullantıların idarə olunması sisteminin təkmilləşdirilməsi, su ehtiyatlarından səmərəli istifadə və alternativ enerji mənbələrinin inkişafı Azərbaycanın "yaşıl transformasiya" strategiyasının əsas istiqamətlərini təşkil edir. Bu siyasət bir tərəfdən ətraf mühitin qorunmasına xidmət göstərir, digər tərəfdən isə iqtisadiyyatın yeni inkişaf modelinə keçidinə təminat yaradır. Dünya təcrübəsi göstərir ki, "yaşıl iqtisadiyyat" yaxın onilliklərdə qlobal rəqabətin əsas istiqamətlərindən biri olacaq. Azərbaycan da bu prosesin iştirakçısı olmaqla gələcək iqtisadi üstünlüklər üçün möhkəm zəmin yaratmaqdadır.

6




## Müasir dünya nizamında Azərbaycan reallığı

Prezident İlham Əliyevin fikirləri beynəlxalq münasibətlər sisteminin reallığını üzə çıxarmaqla yanaşı, eyni zamanda Azərbaycanın dövlətçilik fəlsəfəsini ortaya qoyur. BMT-də bayrağı dalğalanan elə ölkələr var ki, onların daxili və xarici siyasətini, iqtisadi addımlarını, hətta kiminlə dost-düşmən olacağını belə qlobal güc mərkəzləri müəyyənləşdirir. Azərbaycan isə tam müstəqil siyasət həyata keçirir və bütün qərarlarını özü verir. Adətən ərazisi işğal edilmiş, qaçqın və köçkün problemi yaşamış ölkələr xarici təzyiqlərə qarşı daha həssas və zəif olurlar. Rəsmi Bakı hətta ən çətin dönəmlərdə belə öz prinsiplərindən zərrə qədər güzəştə getməyib. Məhz bu qətiyyətli mövqe Azərbaycana fərqli hörmət və xüsusi siyasi çəki qazandırıb.

Mürəkkəb beynəlxalq şəraitdə Azərbaycan ənənəvi etibarlı tərəfdaş imicini daha da gücləndirir. Bakıda keçirilən qlobal miqyaslı forumlar ölkəmizin artan nüfuzunu, eyni zamanda karbohidrogen və "yaşıl enerji" diplomatiyasının əsas mərkəzlərindən biri olduğunu təsdiqləyir.

8

## Erməni xalqının seçimi - "böyük" yox, real Hayastan



Nikol Paşinyanın seçkilərdən sonra verdiyi bəyanatlar da bunu təsdiqləyir. Onun Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşdırılmasının vacibliyini vurğulaması, sülh müqaviləsinin imzalanmasının zəruriliyini qeyd etməsi, sərhədlərin açılması və regional əməkdaşlıq barədə danışması təsadüfi deyil. Bu bəyanatlar Ermənistanın yeni geosiyasi reallığı qəbul etməsini göstərir. Lakin burada bir vacib məqamı da unutmaq olmaz. N.Paşinyanın sülh ritorikası onun siyasi keçmişini və məsuliyyətini aradan qaldırmır. Məhz onun rəhbərliyi dövründə Azərbaycanın Gəncə, Bərdə, Tərtər və digər yaşayış məntəqələri raket hücumlarına məruz qalmış, mülki əhali hədəf seçilmişdi. Bu faktlar tarixdən silinməməli və unudulmamalıdır. Eyni zamanda Ermənistan hələ də taleyi məlum olmayan minlərlə azərbaycanlı əsir və girov barədə tam məlumat verməyib.

Digər tərəfdən N.Paşinyan hakimiyyəti son illər Ermənistanın iqtisadi vəziyyətini müəyyən qədər sabitləşdirməyə, beynəlxalq münasibətlərdə daha çevik siyasət yürütməyə nail olub. Baş nazir Avropa İttifaqı, Rusiya və digər tərəfdaşlarla paralel əlaqələr saxlayaraq ölkənin iqtisadi imkanlarını genişləndirməyə çalışıb. Xarici aləmdə demokratiya görüntüsünün formalaşdırılması istiqamətində də müəyyən addımlar atılıb.

7

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə zati-alinizə Panama xalqı və Hökuməti adından, həmçinin öz adımdan ən səmimi təbriklərimi, xalqınıza davamlı rifah və tərəqqi arzularımı çatdırmaqdan şərəf duyuram.

Ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 31-ci ildönümünü qeyd edərkən, Panama ilə Azərbaycanı birləşdirən dostluq və əməkdaşlıq əlaqələrini, qarşılıqlı anlaşmanı daha da möhkəmləndirməklə bağlı səmimi arzumuzu bildirməklə yanaşı, sülhə və inkişafa sarsılmaz sadiqliyimizi bir daha təsdiqləyirik.

Bu xoş fürsətdən istifadə edərək zati-alinizə ən yüksək hörmət və ehtiramımı bildirirəm.

***Xose Raul Mulino KİNTERO,***
***Panama Respublikasının Prezidenti***

## İsveçin Kralı Əlahəzrət XVI Karl Qustava

Əlahəzrət!

İsveç Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, xalqınıza daim firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyun 2026-cı il*

## R.M.Fətəliyevin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Ramiz Məmməd oğlu Fətəliyev "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyun 2026-cı il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi haqqında Əsasnamənin təsdiq edilməsi haqqında" 2015-ci il 23 iyul tarixli 571 nömrəli, "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" 2018-ci il 19 dekabr tarixli 413 nömrəli, "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" 2019-cu il 27 iyun tarixli 759 nömrəli və "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2019-cu il 23 dekabr tarixli 897 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 iyul tarixli 571 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 839 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; 2026, № 3, maddə 216) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi haqqında Əsasnamə"nin 3.0.2-ci yarımbəndinə "avadanlıq," sözündən sonra "balıqçılığın, o cümlədən akvakulturanın həyata keçirilməsi üçün istifadə olunan texnika və texnoloji avadanlıq," sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2570 (Cild I); 2024, № 8, maddə 942; 2025, № 11, maddə 1018; 2016, № 3, maddə 216) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2-ci hissəyə "avadanlığın," sözündən sonra "balıqçılığın, o cümlədən akvakulturanın həyata keçirilməsi üçün istifadə olunan texnika və texnoloji avadanlığın," sözləri əlavə edilsin;

2.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası" üzrə:

2.2.1. 1.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.2. Agentliyin vəsaiti bu Qaydanın 2-ci hissəsində nəzərdə tutulan layihələrin, habelə kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqlarına, balıqçılığın, o cümlədən akvakulturanın həyata keçirilməsi üçün istifadə olunan texnika və texnoloji avadanlıqlara, suvarma sistemləri dəstlərinə və avadanlıqlarına, habelə damazlıq heyvanlara (bundan sonra - kənd təsərrüfatı istehsal vasitələri) verilən güzəştlərin maliyyələşdirilməsinə yönəldilir.";

2.2.2.6-cı hissə üzrə:

2.2.2.1. 6.1-ci bəndin birinci abzasına "avadanlığın," sözündən sonra "balıqçılığın, o cümlədən akvakulturanın həyata keçirilməsi üçün istifadə olunan texnika və texnoloji avadanlığın," sözləri əlavə edilsin;

2.2.2.2. 6.1.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"6.1.2. idxal edilən texnikanın gömrük dəyərinə, yerli istehsal məhsulu olan texnikanın isə qiymətləndirmə nəticəsində müəyyən edilən dəyərinə münasibətdə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nın 2.2-ci bəndinə uyğun olaraq yaradılan Aqrar Subsidiya Şurasının təsdiq etdiyi, 60 faizdən çox olmamaqla, güzəşt faizləri və (və ya) maksimum güzəşt məbləğləri tətbiq olunur və həmin məbləğlər Azərbaycan Respublikasının dövlət büdcəsindən bunun üçün Agentliyə ayrılmış vəsait hesabına müvəkkil təşkilatlar vasitəsilə ödənilir;";

2.2.2.3. aşağıdakı məzmunda 6.5-ci bənd əlavə edilsin:

"6.5. Bu Qaydanın 6.1-ci bəndinə uyğun olaraq güzəştli şərtlərlə maliyyələşdirilən kənd təsərrüfatı texnikasının maliyyələşdirildiyi tarixdən 5 (beş) il müddətində ölkədən ixracına yol verilmir. Həmin texnika barədə məlumatlar real vaxt rejimində "Elektron kənd təsərrüfatı" informasiya sistemi vasitəsilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin informasiyasisteminə ötürülür.".

3. "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1050 (Cild I); 2024, № 6 (I kitab), maddə 654, № 12 (II kitab), maddə 1356; 2025, № 2, maddə 137, № 7, maddə 642; 2026, № 3, maddə 216) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2-ci hissədə "sahəsində" sözü"və heyvandarlıq sahələrində" sözləri ilə əvəz edilsin;

3.2. həmin Fərmanla təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası" üzrə:

3.2.1. 1.2-ci bənd üzrə:

3.2.1.1. 1.2.1-ci yarımbənddə "kənd təsərrüfatı məhsullarının istehsalçılarına" sözləri "fermerlərə kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə" sözləri ilə əvəz edilsin;

3.2.1.2. 1.2.2-ci yarımbənddə "kənd təsərrüfatı məhsullarının istehsalçılarına" sözləri "fermerlərə" sözü ilə əvəz edilsin;

3.2.1.3. 1.2.4-cü yarımbənddə "sahəsində" sözü"və heyvandarlıq sahələrində" sözləri ilə əvəz edilsin;

3.2.1.4. 1.2.5-ci yarımbənddə "mineral gübrə, biohumus" sözləri "gübrə, dirəklər" sözləri ilə əvəz edilsin;

3.2.1.5. 1.2.9-cu yarımbəndə "becərilməsi" sözündən sonra "(əkilməsi və aqrotexniki qulluğun göstərilməsi)" sözləri əlavə edilsin və həmin yarımbənddən "çoxillik əkmələrdə"və "və dirəklərin" sözləri çıxarılsın;

3.2.1.6. aşağıdakı məzmunda 1.2.9-2-ci yarımbənd əlavə edilsin:

"1.2.9-2. **bağçılıq subsidiyası** - fermerlərə çoxillik əkmələrin altında olan torpaqlarda həmin torpaqların məqsədli təyinatına uyğun olaraq kənd təsərrüfatı bitkilərinin becərilməsi (əkilməsi və aqrotexniki qulluğun göstərilməsi) üçün bağın salındığı birinci ildə istifadə etdikləri kənd təsərrüfatı istehsal vasitələrinin alınmasına, torpaqların aqrokimyəvi analizinin aparılmasına, aqrotexniki xidmətlərdən istifadə edilməsinə, müasir suvarma sistemlərinin qurulmasına və tinglərdə fitopatoloji analizlərin aparılmasına sərf olunan xərclərin bir hissəsini kompensasiya etmək məqsədilə bitki becərilən sahənin hər hektarına görə verilən subsidiya;";

3.2.1.7. 1.2.10-cu və 1.2.12-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"1.2.10. **bitkiçilik sahəsində məhsul subsidiyası** - ölkədə istehsal edilib tədarükçülərə təhvil verilən bitkiçilik məhsulunun miqdarına görə verilən subsidiya;";

"1.2.12. **süni mayalanma və ya embrion köçürmə (bundan sonra - süni mayalanma) subsidiyası** - yerli heyvanların cins tərkibinin yaxşılaşdırılması və yüksək məhsuldar genetik potensiala malik heyvanların baş sayının artırılması məqsədilə süni mayalanma yolu ilə alınan hər bir sağlam buzova və balağa (camış balasına) görə verilən subsidiya;";

3.2.1.8. aşağıdakı məzmunda 1.2.12-1-ci yarımbənd əlavə edilsin:

"1.2.12-1. **heyvan subsidiyası** - fermerlərə kənd təsərrüfatı heyvanlarının saxlanılması, yemlənməsi və damazlıq işinin təşkili ilə bağlı çəkilən xərclərin bir hissəsini kompensasiya etmək məqsədilə hər bir heyvana (o cümlədən arı ailəsinə) görə verilən subsidiya;";

3.2.1.9. 1.2.13-cü və 1.2.14-cü yarımbəndlər ləğv edilsin;

3.2.1.10. aşağıdakı məzmunda 1.2.14-1-ci və 1.2.14-2-ci yarımbəndlər əlavə edilsin:

"1.2.14-1. **heyvandarlıq sahəsində məhsul subsidiyası** - ölkədə istehsal edilib tədarükçülərə təhvil verilən heyvan mənşəli məhsul və ya xammalın miqdarına görə verilən subsidiya;

1.2.14-2. **sertifikatlaşdırma subsidiyası** - fermerlər tərəfindən bitkiçilik və heyvandarlıq sahələrində beynəlxalq sertifikatların alınması və bu məqsədlə təsərrüfatların müəyyən olunmuş tələblərə uyğunlaşdırılması ilə bağlı çəkilən xərclərin bir hissəsinin kompensasiya edilməsi məqsədilə verilən subsidiya;";

3.2.1.11. 1.2.17-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 1.2.18-ci yarımbənd əlavə edilsin:

"1.2.18. **avans** - fermerlər tərəfindən bitkiçilik sahəsində aqrotexniki tədbirlərin vaxtında həyata keçirilməsini stimullaşdırmaq məqsədilə əkin və bağçılıq subsidiyalarının məbləğinin, 60 faizdən çox olmamaqla, Şura tərəfindən müəyyən edilən və əvvəlcədən ödənilən hissəsi.";

3.2.2. 2-ci hissə üzrə:

3.2.2.1. 2.4.1-ci yarımbəndə "əmsallarının," sözündən sonra "avans məbləğinin, subsidiyanın tətbiqi dövrünün," sözləri əlavə edilsin;

3.2.2.2. aşağıdakı məzmunda 2.4.1-2-ci yarımbənd əlavə edilsin:

"2.4.1-2. bağçılıq subsidiyasının tətbiqi üçün regionlar üzrə bitkilərin siyahısının, onlara tətbiq edilən əkin əmsallarının, avans məbləğinin, bağın salınması və subsidiyanın tətbiqi dövrünün, sığortalanmalı olan bitkilərin siyahısının (bu Qaydanın 2.5-1-ci bəndi nəzərə alınmaqla) və onların əkin sahələrinin minimum ölçüsünə dair tələblərin təsdiqi;";

3.2.2.3. 2.4.2-ci və 2.4.3-cü yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"2.4.2. məhsul subsidiyasının tətbiqi üçün regionlar üzrə bitkiçilik məhsullarının, heyvan mənşəli məhsul və xammalın siyahısının, onlara tətbiq edilən əmsalların təsdiqi və subsidiyanın tətbiqi dövrünün müəyyən edilməsi;

2.4.3. toxum subsidiyasının tətbiqi üçün bitkiçilik məhsullarının siyahısının, onlara tətbiq edilən əmsalların, kvotaların təsdiqi və subsidiyanın tətbiqi dövrünün müəyyən edilməsi;";

3.2.2.4. aşağıdakı məzmunda 2.4.3-2 - 2.4.3-4-cü yarımbəndlər əlavə edilsin:

"2.4.3-2. sertifikatlaşdırma subsidiyasının tətbiqi üçün bitkiçilik və heyvandarlıq sahələri üzrə beynəlxalq sertifikatların siyahısının, onlara tətbiq edilən əmsalların təsdiqi və subsidiyanın tətbiqi dövrünün müəyyən edilməsi;

2.4.3-3. süni mayalanma subsidiyasının tətbiqi üçün əmsalların təsdiqi və subsidiyanın tətbiqi dövrünün müəyyən edilməsi;

2.4.3-4. heyvan subsidiyasının tətbiqi üçün regionlar üzrə kənd təsərrüfatı heyvanlarının siyahısının (heyvanın növü, cinsi və yaşı göstərilməklə), onlara tətbiq edilən əmsalların təsdiqi və subsidiyanın tətbiqi dövrünün müəyyən edilməsi;";

3.2.2.5.2.4.5-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.4.6-cı yarımbənd əlavə edilsin:

"2.4.6. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası"nın 6.1.2-ci yarımbəndinə əsasən, kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqlarına münasibətdə kənd təsərrüfatı texnikası parkının yenilənməsi, innovativ texnologiyalara olan ehtiyac, yerli istehsalın dəstəklənməsi, aqrar resursların səmərəli istifadəsi meyarları nəzərə alınmaqla tətbiq edilən güzəşt faizlərinin və maksimum güzəşt məbləğlərinin təsdiqi.";

3.2.2.6. 2.5-1-ci bənddə "yarımbəndinə" sözü"və 2.4.1-2-ci yarımbəndlərinə" sözləri ilə, "subsidiyasının" sözü "və bağçılıq subsidiyalarının" sözləri ilə əvəz edilsin;

3.2.2.7. 2.7-1-ci bənddə "kənd təsərrüfatı məhsullarının istehsalçılarına" sözləri "fermerlərə" sözü ilə əvəz edilsin;

3.2.3. 3-cü hissə üzrə:

3.2.3.1. 3.1-ci bənd üzrə:

3.2.3.1.1. birinci abzasda "subsidiyasının" sözü"və bağçılıq subsidiyalarının" sözləri ilə əvəz edilsin;

3.2.3.1.2. ikinci abzasa "əkin" sözündən sonra"(bağçılıq)" sözü əlavə edilsin;

3.2.3.2. 3.1-1-ci bənddə "yarımbəndinə" sözü"və 2.4.1-2-ci yarımbəndlərinə" sözləri ilə, "subsidiyası" sözü "və bağçılıq subsidiyaları" sözləri ilə əvəz edilsin;

3.2.3.3. aşağıdakı məzmunda 3.1-2-ci bənd əlavə edilsin:

"3.1-2. Bağçılıq subsidiyası tətbiq edilmiş çoxillik əkmə sahələri üzrə bağın salındığı ilk il üçün əkin subsidiyası ödənilmir.";

3.2.3.4. 3.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.5. Bitkiçilik sahəsində məhsul subsidiyası aşağıdakı qaydada hesablanır:

- baza məbləği x bitki mənşəli məhsul əmsalı = bitkiçilik sahəsində məhsul subsidiyası

● bitki mənşəli məhsul əmsalı - bitkilər üzrə məhsul istehsalının, tədarükünün və bazara çıxışının təşviqi üçün Şuranın müəyyən etdiyi göstərici.";

3.2.3.5. aşağıdakı məzmunda 3.7-1-ci bənd əlavə edilsin:

"3.7-1. Bitkiçilik sahəsində sertifikatlaşdırma subsidiyası aşağıdakı qaydada hesablanır:

- baza məbləği x sertifikatlaşdırma əmsalı = sertifikatlaşdırma subsidiyası

● sertifikatlaşdırma əmsalı - beynəlxalq sertifikatların əldə edilməsinin təşviqi üçün Şuranın müəyyən etdiyi göstərici.";

3.2.3.6. 3.8-ci bənd üzrə:

3.2.3.6.1. 3.8.3-cü yarımbənddə "subsidiyası" sözü"və bağçılıq subsidiyaları" sözləri ilə əvəz edilsin;

3.2.3.6.2. 3.8.4-cü yarımbəndə "məhsul" sözündən əvvəl "bitkiçilik sahəsində" sözləri əlavə edilsin;

3.2.3.6.3. aşağıdakı məzmunda 3.8.4-1-ci yarımbənd əlavə edilsin:

"3.8.4-1. bitkiçilik sahəsində sertifikatlaşdırma subsidiyası üçün Şura tərəfindən müəyyən edilmiş beynəlxalq sertifikatı;";

3.2.3.7. 3.12-ci bənd üzrə:

3.2.3.7.1. birinci cümlədə ", o cümlədən mövcud və" sözləri "və mövcud çoxillik əkmələr, bağçılıq subsidiyası ilə bağlı" sözləri ilə əvəz edilsin;

3.2.3.7.2. ikinci cümlədə ", elektron poçt və ya bilavasitə SİS" sözləri "və ya elektron kabinet" sözləri ilə əvəz edilsin;

3.2.3.7.3. üçüncü cümlədə "subsidiyası" sözü "və bağçılıq subsidiyaları" sözləri ilə əvəz edilsin;

3.2.3.8. aşağıdakı məzmunda 3.12-1-ci bənd əlavə edilsin:

"3.12-1. 2027-ci ildən başlayaraq Şuranın müəyyən etdiyi bitki növləri, əkin sahələri və digər şərtlər üzrə Nazirliyin təsdiq etdiyi reqlamentlərlə müəyyən edilmiş müddətlərdə əkin və ya bağçılıq subsidiyası üçün müraciət etmiş və həmin müddət ərzində bu Qaydanın 3.8.2-ci və 3.8.2-1-ci yarımbəndlərində nəzərdə tutulan sənədləri SİS-də təsdiqlənmiş fermerlər avans əldə etmək üçün müraciət edə bilərlər. Avans subsidiya məbləğinin nağdlaşdırılmayan hissəsindən ödənilir.";

3.2.3.9. 3.13-cü bənd aşağıdakı redaksiyada verilsin:

"3.13. Əkin və bağçılıq subsidiyaları məbləğinin 25 faizindən nağdlaşdırılaraq, 75 faizindən isə nağdlaşdırılmadan, bu Qaydanın 3.12-ci bəndi ilə müəyyən edilən formada, müvafiq olaraq bu Qaydanın 1.2.9-cu və 1.2.9-2-ci yarımbəndlərində nəzərdə tutulan məqsədlərlə istifadə olunur.";

3.2.3.10. 3.14-cü bənd üzrə:

3.2.3.10.1. birinci cümlədə "Məhsul" sözü"Bitkiçilik sahəsində məhsul" sözləri ilə əvəz edilsin;

3.2.3.10.2. ikinci cümlə üçüncü cümlə hesab olunsun və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İstehsal edilən məhsul fermer tərəfindən xammal kimi istifadə edildiyi halda, istehsal ehtiyatlarının təsərrüfatdaxili yerdəyişməsinin qaimə-fakturası barədə məlumat SİS-ə daxil edilir.";

3.2.3.10.3. üçüncü cümlədə "ilin 2-ci rübündə" sözləri "il" sözü ilə əvəz edilsin;

3.2.3.11. 3.15-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.15. Fermerlər toxum subsidiyası ilə bağlı bu Qaydanın 3.8.1-ci yarımbəndində nəzərdə tutulan proqnozları cari il iyunun 1-dək, toxum və tingin satışı ilə bağlı məlumatları və sənədləri dekabrın 10-dək SİS-ə daxil edirlər. Subsidiya ödənişləri dekabrın 30-dək həyata keçirilir, dekabrın 10-dan sonra daxil edilən məlumatlar və sənədlər isə növbəti il üçün subsidiyanın hesablanması zamanı nəzərə alınır.";

3.2.3.12. 3.17-ci bəndin ikinci cümləsində "elektron poçt" sözləri "ya elektron kabinet" sözləri ilə əvəz edilsin;

3.2.4. 4-cü hissə üzrə:

3.2.4.1. 4.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.1. Süni mayalanma subsidiyasıaşağıdakı qaydada hesablanır:

- baza məbləği x süni mayalanma subsidiyası əmsalı = süni mayalanma subsidiyası;

● süni mayalanma əmsalı - heyvandarlıqda cins tərkibinin yaxşılaşdırılmasının təşviqi üçün Şuranın müəyyən etdiyi göstərici.";

3.2.4.2. aşağıdakı məzmunda 4.1-1-ci və 4.1-2-ci bəndlər əlavə edilsin:

"4.1-1. Heyvan subsidiyası aşağıdakı qaydada hesablanır:

- baza məbləği x heyvan subsidiyası əmsalı = heyvan subsidiyası

● heyvan subsidiyası əmsalı - cins tərkibinin yaxşılaşdırılması, yüksək məhsuldar genetik potensialı olan heyvanların (o cümlədən arı ailələrinin) sayının artırılması üçün Şuranın müəyyən etdiyi göstərici.

4.1-2. Heyvandarlıq sahəsində məhsul subsidiyası aşağıdakı qaydada hesablanır:

- baza məbləği x heyvan mənşəli məhsul və ya xammal əmsalı = heyvandarlıq sahəsində məhsul subsidiyası

● heyvan mənşəli məhsul və ya xammal əmsalı - heyvan mənşəli məhsulların və ya xammalların istehsalının təşviqi üçün özünütəminat ehtiyacı, fermerlərin gəlirliliyinin artırılması, aqrar emalın, habelə aqroturizmin inkişafı meyarları nəzərə alınmaqla Şuranın müəyyən etdiyi göstərici.";

3.2.4.3. 4.2-ci və 4.3-cü bəndlər ləğv edilsin;

3.2.4.4. aşağıdakı məzmunda 4.3-1-ci bənd əlavə edilsin:

"4.3-1. Heyvandarlıq sahəsində sertifikatlaşdırma subsidiyasının məbləği bu Qaydanın 3.7-1-ci bəndində nəzərdə tutulmuş qaydada hesablanır.";

3.2.4.5. 4.4.3-cü və 4.4.4-cü yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"4.4.3. heyvanların, o cümlədən süni mayalandırılan və süni mayalanma nəticəsində doğulan heyvanların, habelə arı ailələrinin identikləşdirilməsi və onlara dair məlumatların SİS-ə daxil edilməsi;

4.4.4. heyvandarlıq sahəsində məhsul subsidiyası ilə bağlı tədarükçülərin heyvan mənşəli məhsul və ya xammalın fermerlərdən və ailə təsərrüfatlarından təhvil alınmasına dair sənədlərinin Nazirliyin təsdiq etdiyi reqlamentlərlə müəyyən olunmuş müddətdə SİS-ə daxil edilməsi;";

3.2.4.6. aşağıdakı məzmunda 4.4.5-ci yarımbənd əlavə edilsin:

"4.4.5. heyvandarlıq sahəsində sertifikatlaşdırma subsidiyası üçün Şura tərəfindən müəyyən olunmuş beynəlxalq sertifikatın əldə edildiyi gündən 3 (üç) ay müddətində SİS-ə daxil edilməsi.";

3.2.4.7. 4.6-cı bənddə "15 (on beş) iş günündən gec olmayaraq"sözləri "45 (qırx beş) iş günündən gec olmamaqla həmin reqlamentlərdə göstərilən müddətdə" sözləri ilə əvəz edilsin;

3.2.5. 5-ci hissə üzrə:

3.2.5.1. 5.1.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"5.1.3. yerində müşahidə -seçmə üsulu ilə əkinlərin aparıldığı yerlərdə,dincə qoyulmuş torpaq sahələrində, yaxud heyvandarlıq təsərrüfatlarında DAİM-in mütəxəssisləri, şikayət və ya audit hallarında isə aidiyyəti üzrə Agentliyin və ya Nazirliyin sahə mütəxəssisləri cəlb edilməklə, nəzarət və qiymətləndirmə tədbirlərinin həyata keçirilməsi;";

3.2.5.2. 5.2-ci bəndin birinci abzasınaikinci halda"əkin" sözündən sonra", bağçılıq" sözü əlavə edilsin;

3.2.5.3. 5.3-cü bənd üzrə:

3.2.5.3.1. birinci abzasda "Arı ailələrinin" sözləri "Heyvanların (o cümlədən arı ailələrinin)" sözləri ilə, "arı" sözü"heyvan" sözü ilə əvəz edilsin;

3.2.5.3.2. 5.3.1-ci yarımbənddə "arı ailələrinin" sözləri "heyvanların (o cümlədən arı ailələrinin)" sözləri ilə əvəz edilsin;

3.2.5.3.3. 5.3.2-ci və 5.3.3-cü yarımbəndlərdə "arıçıya" sözü "fermerə" sözü ilə əvəz edilsin;

3.2.5.4. 5.4-cü bənd üzrə:

3.2.5.4.1. birinci cümlədə "elektron poçt" sözləri "ya elektron kabinet" sözləri ilə əvəz edilsin;

3.2.5.4.2. üçüncü cümlə aşağıdakı redaksiyada verilsin:

"Bildirişə etiraz fermerin, ailə kəndli təsərrüfatının və monitorinq aktını tərtib etmiş əməkdaşların iştirakı ilə DAİM-in və Agentliyin mütəxəssisləri tərəfindən, habelə rəy bildirilməsi üçün Nazirliyin sahə üzrə mütəxəssisləri də cəlb edilməklə yerində müşahidə apararaq qiymətləndirilir, nəticə üzrə akt tərtib edilərək SİS-ə daxil edilir.";

3.2.5.5. 5.5-ci bəndin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Subsidiyaların verilməsi üçün bu Qaydada nəzərdə tutulmuş tələblər fermer tərəfindən pozularsa, habelə fermerin cari ildə istifadə etdiyi subsidiyanın məbləği monitorinq əsasında bu Qaydanın 5.2-ci və 5.3-cü bəndlərinə uyğun olaraq müəyyən edilmiş məbləğdən artıq olarsa, həmin vəsaiti (o cümlədən avans məbləğini) fermer Agentliyə geri qaytarır.".

4. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1940 (Cild I); 2024, № 6 (I kitab), maddələr 654, 679, № 8, maddə 937, № 12 (II kitab), maddə 1359; 2026, № 3, maddə 216) ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"nin 3.2.7-ci yarımbəndində ", texnoloji avadanlıq, suvarma sistemləri dəsti və avadanlığı, dirəklər, damazlıq heyvanlar, mineral gübrə, biohumus," sözləri "və texnoloji avadanlıq, balıqçılığın, o cümlədən akvakulturanın həyata keçirilməsi üçün istifadə olunan texnika və texnoloji avadanlıq, suvarma sistemləri dəstləri və avadanlıqları, damazlıq heyvanlar, dirəklər, gübrə" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi kənd təsərrüfatı məhsullarının tədarükünü və kənd təsərrüfatı istehsal vasitələrinin, habelə müasir suvarma sistemlərinin satışını həyata keçirən fiziki və hüquqi şəxslərin (tədarükçülərin və təchizatçıların) "Elektron kənd təsərrüfatı" informasiya sistemində qeydiyyatdan keçmələri üçün tələbləri üç ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyun 2026-cı il*

# Baş nazir Əli Əsədov Vyetnamın baş prokuroru ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 8-də Vyetnam Sosialist Respublikasının Ali Xalq Prokurorluğunun baş prokuroru Nguyen Tien ilə görüşüb.**

Nazirlər Kabinetindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycan ilə Vyetnam arasında ənənəvi dostluq münasibətlərinin və qarşılıqlı faydalı əməkdaşlığın inkişafından məmnunluq ifadə olunub.

İki ölkə arasında siyasi dialoqun yüksək səviyyədə olduğu vurğulanıb, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin əhəmiyyəti qeyd edilib. Prokurorluq orqanları arasında səmərəli əməkdaşlığın inkişafı yüksək qiymətləndirilib, bu sahədə əlaqələrin daha da möhkəmləndirilməsi imkanları müzakirə olunub.

Görüşdə Azərbaycanın baş prokuroru Kamran Əliyev iştirak edib.

# Vyetnamın baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti Bakıya işgüzar səfərə gəlib



**Vyetnamın baş prokuroru Nquyen Tiyen Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini dərin ehtiramla yad edib məzarı önünə əklil qoyub, eləcə də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyeva, tanınmış dövlət xadimi Əziz Əliyev və professor Tamerlan Əliyevin də məzarını ziyarət edib.**

Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri qoyublar.

Baş prokuror Kamran Əliyevlə vyetnamlı həmkarı arasında keçirilən görüşdə hər iki ölkənin siyasi rəhbərliyinin fəaliyyəti nəticəsində dövlətlərarası münasibətlərin dinamik inkişafı vurğulanıb.

Görüşdə qeyd edilib ki, iki ölkə arasında dost münasibətlərin təməli hələ 1959-cu ildə Vyetnamın ilk prezidenti Ho Şi Minin ölkəmizə səfəri zamanı qoyulub. Münasibətlərin inkişafında 1983-cü ildə Ulu Öndər Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini qismində Vyetnama tarixi səfərinin mühüm rol oynaması xüsusi vurğulanıb. Həmçinin keçmiş SSRİ dövründə Azərbaycanda minlərlə vyetnamlının təhsil aldığı diqqətə çatdırılıb.

Bildirilib ki, müstəqilliyin bərpasından sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycan-Vyetnam əlaqələri dinamik inkişaf edib.

Xüsusilə, 2014-cü ildə Azərbaycanın dövlət başçısının Vyetnama, 2025-ci ildə isə Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana reallaşdırdığı dövlət səfərinin ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə və etibarlı əməkdaşlıq səviyyəsinə yüksəlməsinə mühüm töhfə verdiyi vurğulanıb.

Görüşdə həmçinin baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin 2025-ci ildə Hanoy şəhərinə işgüzarı səfəri xatırlanmış, həmin səfərdə Azərbaycan və Vyetnam Baş Prokurorluqları arasında imzalanmış Anlaşma Memorandumunun iki ölkənin prokurorluq orqanları arasında hüquqi əməkdaşlığın inkişafına töhfə verməklə yanaşı, qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsinə xidmət etdiyi vurğulanıb.

Bundan başqa, görüş zamanı iki ölkənin prokurorluqları arasında hüquqi əməkdaşlığın möhkəmləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi məqsədilə əmlakın bərpası, ətraf mühitin qorunması kimi prokurorluq fəaliyyətinin müxtəlif sahələrini əhatə edən Əməkdaşlıq Proqramı imzalanıb.

Vyetnam Sosialist Respublikasının hüquq-mühafizə orqanları ilə əlaqələrin inkişaf etdirilməsi məqsədilə "Azərbaycan Respublikası və Vyetnam Sosialist Respublikası arasında cinayət işləri üzrə qarşılıqlı yardım haqqında Müqavilə" layihəsi hazırlanıb və hazırda dövlətdaxili proseduralardan keçirilir.

Səmimi qəbula görə təşəkkürünü bildirən Nquyen Tiyen təmsil etdiyi qurumun Azərbaycan ilə əlaqələrin inkişafına xüsusi önəm verdiyini, habelə qurumlar arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini ifadə edib.

Görüşdə cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, ekstradisiya, hüquqi yardım, prokurorların təlimi və digər istiqamətlər üzrə əlaqələrin davam etdirilməsi barədə razılıq əldə olunub.

Görüşdən sonra qonaqlar Azərbaycan Respublikası Prokurorluğunun Tarix muzeyi ilə tanış olublar.

# Azərbaycan ilə Vyetnam arasında məhkəmə və prokurorluq sahələrində əlaqələr genişləndirilir

**İyunun 8-də Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Vyetnamın baş prokuroru Nquyen Tiyenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Bu barədə AZƏRTAC-a Konstitusiya Məhkəməsindən məlumat verilib.

Bildirilib ki, qonaqları salamlayan Konstitusiya Məhkəməsinin sədri Azərbaycanla Vyetnam arasında dostluq münasibətlərinin uğurla inkişaf etdiyini vurğulayaraq, müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini qeyd edib, dövlətlərarası münasibətlərin inkişafında hüquqi əməkdaşlıq və qarşılıqlı təcrübə mübadiləsinin xüsusi rol oynadığını bildirib.

Görüş zamanı ölkəmizdə hüququn aliliyinin təmin olunması, insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində həyata keçirilən islahatlar, konstitusiya nəzarətinin həyata keçirilməsi mexanizmləri barədə geniş məlumat verən Fərhad Abdullayev Konstitusiya Məhkəməsinin fəaliyyət istiqamətlərindən, həmçinin qərar qəbuletmə proseduru və bu sahədə görülən işlərdən ətraflı bəhs edib.

Baş prokuror Nquyen Tiyen səmimi qəbula görə təşəkkürünü bildirərək, Azərbaycan ilə Vyetnam arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə edib, məhkəmə və prokurorluq sahələrində münasibətlərin genişləndirilməsinin qarşılıqlı maraqlara uyğunluğunu vurğulayaraq, gələcəkdə təcrübə mübadiləsinin və birgə təşəbbüslərin hər iki ölkənin hüquq sahəsi üçün faydalı olacağını diqqətə çatdırıb.

Eyni zamanda tərəflər arasında konstitusiya ədalət mühakiməsinin inkişafı, məhkəmə-hüquq sahəsində beynəlxalq əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüş qarşılıqlı hədiyyələrin təqdim olunması ilə başa çatıb.

# Milli Məclisin Sədri Sahibə Qafarova Vyetnamın baş prokuroru ilə görüşüb

**İyunun 8-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Vyetnam Sosialist Respublikasının baş prokuroru Nquyen Tiyenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Sədr Sahibə Qafarova bu səfərin Azərbaycan və Vyetnam arasında əlaqələrin inkişafına öz töhfəsini verəcəyinə inamını bildirib.

Söhbət zamanı iki ölkə arasında dost münasibətlərin təməlinin hələ ötən əsrdə Ulu Öndər Heydər Əliyev və Vyetnam xalqının böyük oğlu Ho Şi Min tərəfindən qoyulduğu bildirilib. Vurğulanıb ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bu əlaqələr dinamik inkişaf edib.

Görüşdə ikitərəfli əlaqələrin güclənməsində ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin müstəsna rolu qeyd olunub. Azərbaycan Prezidentinin Vyetnama, Vyetnam Prezidentinin isə Azərbaycana səfərlərinin münasibətlərimizin dinamikasını müəyyən etdiyi diqqətə çatdırılıb.

Bildirilib ki, ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq edirlər. Bu baxımdan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin əhəmiyyətindən danışan Milli Məclisin Sədri Vyetnamı bu platformada fəal iştiraka dəvət edib.

Spiker qonağa Milli Məclisin ölkənin qanunvericilik sisteminin təkmilləşdirilməsi sahəsində fəaliyyəti kontekstində Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə qarşılıqlı əməkdaşlığı, Azərbaycanda müasir parlamentin strukturu, beynəlxalq fəaliyyəti, parlamentdə partiyaların təmsilçiliyi barədə məlumat verib. Qeyd olunub ki, iki ölkənin hakim partiyaları olan Yeni Azərbaycan Partiyası və Vyetnam Kommunist Partiyasının səmərəli əməkdaşlığı ikitərəfli münasibətlərin inkişafına mühüm töhfə verir.

Söhbət zamanı Milli Məclisin Sədri Vyetnam parlamenti ilə qarşılıqlı əməkdaşlıq, parlamentlərarası əlaqələr üzrə işçi qruplarının fəaliyyəti, parlamentlər arasında əlaqələrin genişləndirilməsi perspektivləri barədə də fikirlərini bölüşüb.

Görüş üçün təşəkkürünü bildirən Vyetnam Sosialist Respublikasının baş prokuroru Nquyen Tiyen Vyetnam Milli Assambleyası sədrinin salamlarını çatdırıb, ölkəmizə səfəri barədə təəssüratlarını bölüşüb. O, Azərbaycanın bir sıra mühüm beynəlxalq tədbirlərə evsahibliyi etməsini məmnunluqla xatırladaraq bu baxımdan COP29-un ölkəmizdə uğurla keçirildiyini vurğulayıb.

İki ölkənin prokurorluq orqanları arasında əlaqələrin inkişafından söz açan qonaq rəhbərlik etdiyi qurumla Azərbaycan Baş prokurorluğu arasında imzalanmış sənədlərin əhəmiyyətindən və əməkdaşlığın perspektivlərindən danışıb. O qeyd edib ki, bu gün Vyetnam və Azərbaycan Baş prokurorluqları arasında imzalanmış Əməkdaşlıq Proqramı cinayətkarlıqla mübarizə tədbirlərinin daha da gücləndirilməsinə xidmət edir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Uşaqların rəqəmsal mühitin zərərli təsirlərindən qorunması dövlət siyasətinin tərkib hissəsidir

**İyunun 8-də Milli Məclisin İnsan hüquqları, Ailə, qadın və uşaq məsələləri, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclası və ictimai dinləmə keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirdə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb.

İclası açan İnsan hüquqları komitəsinin sədri Zahid Oruc təqdim edilən qanun layihəsinin mühüm əhəmiyyətini nəzərə alaraq, məsələnin daha geniş formatda - ictimai dinləmə şəklində müzakirəsinə yaradılan şəraitə və verilən dəstəyə görə Milli Məclisin Sədri Sahibə Qafarovaya təşəkkürünü ifadə edib.

Komitə sədri uşaqların rəqəmsal məkanda hüquqlarının qorunmasını təmin edən qanun layihəsinin həm parlamentarilər, həm də dövlət və hökumət nümayəndələri, media, müvafiq təhsil, səhiyyə orqanlarının təmsilçiləri ilə birlikdə müzakirəsinin təqdirəlayiq olduğunu deyib. O, Milli Məclisin son illərdə uşaqların rəqəmsal mühitdə zərərli informasiyadan qorunmasına dair ardıcıl və sistemli qərarlar qəbul etdiyini, təqdim edilən yeni qanun layihəsinin bu siyasətin davamı olduğunu bildirib. Komitə sədri rəqəmsal platformalara qoşulmanın yaş həddinin qanunla tənzimlənməsi ilə bağlı bir sıra dünya ölkələrinin mövcud təcrübələrini diqqətə çatdırıb. Qeyd olunub ki, dünya üzrə uşaq sosial media istifadəsinin statistikasını göstərən Ümumdünya Səhiyyə Təşkilatının hesabatına görə, yeniyetmələrin 35 faizi bir gündə orta hesabla 5 saatdan çox vaxtını telefonda keçirir. Təşkilat 2019-cu ildən oyun asılılığını rəsmi xəstəlik kimi siyahısına daxil edib. Azərbaycan uşaqları ilə bağlı göstəricilərə toxunan komitə sədri, ötən il aparılan sorğuya əsasən, 10-17 yaş arasında uşaqların 89 faizinin smartfon istifadəçisi olduğunu, onların 76 faizinin gündəlik olaraq sosial media platformalarından istifadə etdiyini, eyni zamanda sosial media asılılığının ailə büdcəsinə də təsir göstərdiyini söyləyib.

Müzakirəyə təqdim edilən qanun layihəsi ilə bağlı fikirlərini bölüşən Zahid Oruc bildirib ki, layihədə 16 yaşadək uşaqların fiziki və psixoloji sağlamlığının mühafizəsi, onların müxtəlif sövqedici və təhrikedici çağırışlardan qorunması məqsədilə sosial şəbəkələrdə fərdi rəqəmsal hesabların açılması üçün minimum rəqəmsal yetkinlik yaş həddi 16 yaş müəyyən olunur. Yeni normaya görə platforma provayderləri yoxlama mexanizmlərini, yəni bank kartı, elektron poçt, mobil nömrə əsaslı yaş doğrulama üsullarını tətbiq etməlidirlər. 16-18 yaş qrupu üçün fərqli - daha çevik, lakin nəzarətli mexanizm müəyyən olunur. Bu yaş qrupunda yeniyetmələr valideynin razılığı ilə platformalarda hesab yarada bilərlər. Fərdi məlumatların kənar şəxslərə ötürülməsi yolverilməz hesab edilir. Komitə sədri 2025-ci ilin dekabr ayında aparılan sorğunun nəticələrinə əsasən, ölkəmizdə insanların 87,3 faizinin 16 yaşdan aşağı uşaqların sosial mediadan istifadəsinin tənzimlənməsi ilə bağlı təklifləri dəstəklədiklərini, yəni bunun sosial sifariş olduğunu vurğulayıb.

Sonra Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova çıxış edərək, informasiya-kommunikasiya texnologiyalarının dövrümüzün ən vacib tələblərindən biri olduğunu qeyd edib. O bildirib ki, dövlət başçısı İlham Əliyevin öz çıxışlarında bildirdiyi kimi, hər bir dövlətin uğurlu inkişafı texnoloji təminata əsaslanır. Dövlətimiz tərəfindən həyata keçirilən rəqəmsal inkişaf, innovasiya siyasəti prioritet məsələlərdəndir. Bu sahədə müvafiq strateji sənədlər, normativ-hüquqi aktlar, fəaliyyət planları qəbul edilir, institusional mexanizmlər formalaşdırılır.

Komitə sədri vurğulayıb ki, Azərbaycanda uşaqların müdafiəsi yüksək səviyyədə təmin olunur, onların sağlam inkişafı, təlim-tərbiyəsi, bilik və bacarıqlarının artırılması üçün imkanlar yaradılır. Uşaqlara qayğı Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim diqqət mərkəzindədir. Uşaqların zərərli təsirlərdən qorunması, onların sağlam böyüməsi üçün hərtərəfli şəraitin yaradılması və dəstəyin verilməsi dövlətin sosial siyasətinin tərkib hissəsidir. Hazırda sosial şəbəkələrin həyatın ayrılmaz hissəsi olduğu bir dövrdə, uşaqların psixoloji sağlamlığı üçün nəzarətsiz istifadənin qarşısının alınması vacib məsələlərdəndir.

Hicran Hüseynova bildirib ki, müzakirə olunan qanun layihəsi uşaqları kibertəhdidlərdən, zorakılıqdan, zərərli məzmundan və zehni sağlamlığa mənfi təsirlərdən qorumaq məqsədi daşıyır. Ölkəmizdə uşaqların yaşına uyğun informasiya əldə etmək hüququnun həyata keçirilməsi ilə əlaqədar onların zərərli informasiyadan qorunması tədbirlərinin müəyyən edildiyini, bu sahədə yaranan münasibətlərin tənzimləndiyini söyləyən komitə sədri, prosesin davamı olaraq, indiki dövrdə bu məsələlərin sosial şəbəkələrdə həllinə yönəlmiş addımların atılmasının vacibliyindən bəhs edib.

Sonra çıxış edən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təqdim olunan qanun layihəsinin rəqəmsal mühitdə uşaqların hüquq və mənafelərinin daha effektiv qorunması, sosial şəbəkə platformalarından təhlükəsiz istifadənin təmin olunması, habelə bu platformaların fəaliyyətinin hüquqi tənzimlənməsinin təkmilləşdirilməsinə xidmət etdiyini söyləyib. O bildirib ki, layihəyə əsasən, İnzibati Xətalar Məcəlləsinə yaş həddi tətbiq edilən sosial şəbəkə platformalarının fəaliyyəti ilə bağlı tələblərin pozulmasına dair yeni 388-4-cü maddənin əlavə edilməsi təklif olunur. Komitə sədri dispozisiyada müvafiq qanunvericiliyin pozulmasına görə cərimə sanksiyalarının tətbiqinin nəzərdə tutulduğunu deyib. Cərimə sanksiyalarının subyektinin vəzifəli şəxslər və hüquqi şəxslər olduğunu, sanksiyaların törədilə biləcək xətaya adekvat olduğunu qeyd edib.

Tədbirdə layihə ilə bağlı İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, səhiyyə nazirinin müavini İlqar Qasımov və rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəşad Həsənov, Tibb Universitetinin rektoru Gəray Gəraybəyli çıxış edərək təmsil etdikləri qurumların qanun layihəsinə dair mövqeyini, həmçinin təklif olunan dəyişikliklərin əhəmiyyəti ilə bağlı fikirlərini bölüşüblər.

Çıxışlarda bildirilib ki, rəqəmsal texnologiyaların sürətli inkişafı və geniş tətbiqi uşaqların zərərli təsirlərə məruz qalmasına və sağlamlıqları baxımından yeni risk və təhlükələrlə üzləşməsinə səbəb olur. Aparılan araşdırmalar son illərdə uşaqlar arasında geniş yayılmış sosial şəbəkələrin, interaktiv platformaların və onlayn oyunların onların fiziki, psixoloji və emosional inkişafına mənfi təsir göstərə bildiyini ortaya qoyur. Uşaqların internetdən istifadəsinə qoyulan yaş hədlərinin isə bir çox halda formal xarakter daşıması, effektiv nəzarət mexanizmlərinin yetərincə olmaması və digər boşluqlar onların hüquqlarının pozulması riskini artırır. Qeyd olunub ki, bu şərait uşaqların rəqəmsal təhlükəsizliyinin təmin edilməsi, onların zərərli məzmunlardan qorunması və sağlamlıqlarının müdafiəsi istiqamətində daha təsirli hüquqi və institusional mexanizmlərin yaradılmasını zəruri edir.

Bildirilib ki, təqdim olunan qanun layihəsi məhz bu məqsədlərə xidmət edir. Layihədə sosial şəbəkə platformalarının fəaliyyətinin tənzimlənməsi, onların məsuliyyətinin artırılması, uşaqların fərdi məlumatlarının daha etibarlı qorunması və zərərli məzmunun yayılmasının qarşısının alınması ilə bağlı hüquqi mexanizmlərin təkmilləşdirilməsi nəzərdə tutulur.

Çıxışçılar qanun layihəsinin hazırlanmasında müxtəlif dövlət qurumlarının iştirak etdiyini, beynəlxalq təcrübənin öyrənildiyini və aidiyyəti qurumların təkliflərinin nəzərə alındığını vurğulayıblar. Bildirilib ki, hazırda dünyanın bir çox ölkəsində olduğu kimi, Azərbaycanda da uşaqların rəqəmsal mühitdə zərərli təsirlərdən qorunmasına yönəlmiş qanunvericilik və müdafiə mexanizmləri müasir çağırışlara uyğun şəkildə təkmilləşdirilir.

Müzakirələr zamanı xüsusi vurğulanıb ki, bu sahədə qarşıya qoyulan məqsədlərə nail olmaq üçün dövlət qurumlarının birgə fəaliyyəti ilə yanaşı, valideynlərin, ailələrin, təhsil müəssisələrinin və bütövlükdə cəmiyyətin fəal iştirakı vacibdir. Əsas məqsəd uşaqları rəqəmsal mühitin təhlükələrindən qorumaqla yanaşı, onların müasir texnologiyaların yaratdığı imkanlardan təhlükəsiz və səmərəli şəkildə faydalanmasına şərait yaratmaqdır. Bu isə yalnız bütün maraqlı tərəflərin birgə əməkdaşlığı və məsuliyyətli yanaşması nəticəsində mümkün ola bilər.

Daha sonra məsələ ilə bağlı aparılan müzakirələrdə Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva, deputatlar Azər Allahverənov, Erkin Qədirli, "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin rəhbəri Mehriban Zeynalova, "Qadın və Uşaqların Təhsilinə Dəstək" İctimai Birliyinin sədri Sevinc Abdullayeva, "Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyinin rəhbəri Kəmalə Aşımova, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, Medianın İnkişafı Agentliyinin icraçı direktorunun müavini Natiq Məmmədli, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət komitəsinin Hüquq təminatı şöbəsinin müdiri Taliyə İbrahimova çıxış edərək fikirlərini və təkliflərini səsləndiriblər.

Çıxışlarda qeyd olunub ki, sənəd uşaqların zərərli kontent, kibertəzyiq, onlayn asılılıq, dezinformasiya və digər mənfi təsirlərdən qorunmasının təmin edilməsinə xidmət edəcək. Vurğulanıb ki, bu sənəd rəqəmsal mühitdə uşaqların təhlükəsizliyinin gücləndirilməsinə, onların hüquq və mənafelərinin daha etibarlı şəkildə müdafiəsinə mühüm töhfə olacaq.

Müzakirələrin sonunda rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəşad Həsənov qaldırılan məsələlərə aydınlıq gətirib.

İclasın yekununda qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə edilib.

***"Azərbaycan"***

# İRADƏ MÖHKƏM OLANDA



*İnsanın ən dəyərli mənəvi keyfiyyətlərindən biri iradəsinin möhkəmliyidir.*

*İradəsi möhkəm adam heç bir çətinlikdən və maneələrdən qorxmur, qarşısına qoyduğu bütün məqsədlərə çatır.*

Əksinə, zəif iradəlilər yarı yolda dayanır, daim tərəddüd edərək acizlik göstərir, istəklərinə çata bilmirlər.

**Möhkəm iradə ilə qətiyyət birlikdə olanda isə bütün hədəflər fəth edilir!**

*Dövlətə rəhbərlik edən liderin möhkəm iradəli və qətiyyətli olması xalqın xoşbəxtliyidir!*

**Xalq həmişə belə rəhbərini sevir və qoruyur, daim dəstəkləyir!**

Yaxın tariximizdə müxtəlif tipli - həm zəif, həm də güclü dövlət başçılarının fəaliyyətini müşahidə edə bildik.

Çox ağrı-acılar yaşasaq da, sonda bütün istəklərimizə qovuşduq!

*Başımıza gələnləri və gətirilənləri, yaşadığımız ümidsiz, çətin və xoş günləri isə heç zaman unutmamalıyıq.*

❖ ❖ ❖

**Dövlət qanunlarla və dövlət başçısının qəbul etdiyi qərarlarla idarə olunur.**

Qanun bir dəfə və uzun müddətə qəbul edilir.

Qərarlar isə daha çevikdir və situasiyadan asılıdır.

*Qərarlar həm də vəziyyətə daha operativ təsir göstərir, hadisələrin inkişafını mənfiyə, yaxud müsbətə doğru daha tez dəyişə bilir.*

**Odur ki, kritik məqamlarda qərar qəbulu daha məsuliyyətli və taleyüklü məsələ sayılır.**

Dövlət başçılarının qərar qəbuluna təsir edən obyektiv və subyektiv səbəblər də olur.

*Obyektiv səbəblər mövcud vəziyyətdən, qüvvələr nisbətindən, hadisələrə təsir göstərən daxili və xarici amillərdən doğur.*

Subyektiv səbəblər isə qərarı qəbul edənin bilik və təcrübəsindən, hadisələrin inkişafına dair fərdi rəyi və proqnozundan, eyni zamanda şəxsi və mənəvi keyfiyyətlərindən yaranır.

**Qırmızı imperiyanın dağılması prosesində imperiyasevər qüvvələr keçmiş müttəfiq respublikalarını öz təsir dairələrində saxlamaqdan ötrü bir sıra üsul və vasitələrə, hətta məkrli planlara belə əl atdılar.**

*Cənubi Qafqazın mərkəzi dövləti sayılan Azərbaycana qarşı isə "xüsusi münasibət" vardı.*

Bu münasibətin mərkəzində Azərbaycanın malik olduğu zəngin karbohidrogen ehtiyatları və geosiyasi mövqe dayanırdı.

**Rusiya belə bir "yağlı tikə"ni əldən buraxmaq niyyətində deyildi!**

Odur ki, "mərkəzdənqopma" prosesi başlayan kimi "sınanmış məkrli planını" işə saldı: Qarabağ münaqişəsinə yenidən start verildi!

Bundan ötrü türk birliyini pozmaq və türk dövlətlərinin quru əlaqələrini kəsmək, habelə Türkiyəyə təzyiq və təhdid məqsədilə Azərbaycan torpaqları hesabına yaratdıqları forpost dövlətləri sayılan Ermənistanın millətçi qüvvələrinə fəaliyyətə başlamaq barədə göstəriş verildi.

*Azərbaycana qarşı yenidən ərazi iddiaları irəli sürən Ermənistan Moskva, xüsusən SSRİ-nin birinci və sonuncu prezidenti Mixail Qorbaçov və onun arvadı Raisa Maksimovna tərəfindən şəxsən müdafiə olunur, Ermənistanda "könüllü özünümüdafiə batalyonları", "fədainlər" adı ilə yaradılan qanunsuz terrorçu dəstələr 102-ci baza tərəfindən gizlincə silahlandırılır, onların qanunsuz əməllərinə göz yumulurdu.*

Azərbaycana qarşı isə riyakar mövqe sərgilənir, "xalqlar dostluğu"ndan dəm vurulur, Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin mənasız qərarları ilə baş aldadılırdı.

**Əməli işdə isə silahlı erməni terrorçuları qarşısında Azərbaycan tərəfini əliyalın qoymaq siyasəti yeridilirdi.**

*Bundan ötrü ov tüfənglərinin belə əhalidən yığılmasına respublika rəhbərliyinin qərar verməsinə nail olundu.*

**Qarabağ münaqişəsinin alovlandırılması və bu prosesdə ermənilərə üstünlük verilməsi üçün atılan addımlardan biri də Azərbaycana iradəcə zəif, xaraktercə müti və milli hisslərdən məhrum birisinin rəhbər göndərilməsi oldu.**

Daha bir mühüm məqama diqqəti yönəldirik:

*Ötən əsrin səksəninci illərində Heydər Əliyev SSRİ-nin rəhbərlərindən biri kimi Moskvada işləmək üçün irəli çəkilmişdi.*

**Ulu Öndər Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu müddətdə Azərbaycanla bağlı heç bir zərərli qərarın qəbuluna imkan vermirdi.**

*Məhz Heydər Əliyevin vəzifədən uzaqlaşdırılmasından cəmi bir həftə sonra Qarabağ barədə mənfur plan işə salındı.*

**M.Qorbaçovun köməkçisi olan erməni akademik Aqanbekyan Fransada çıxan "Humanite" qəzetinə Azərbaycanın Qarabağ torpaqlarına iddia ilə bağlı açıqlama verdi.**

Bu açıqlama Azərbaycanda böyük qəzəb və hiddət doğursa da, SSRİ rəhbərliyi tərəfindən sakit qarşılandı.

*Bir qədər keçmiş isə 20 yanvar 1990-cı ildə "cızığından çıxmış azərbaycanlılara qulaqburması verməkdən" ötrü Bakıya imperiya qoşunları yeridildi və dinc əhali divan tutularaq qətlə yetirildi.*

**Buna qədər olan müddətdə isə Moskvaya qul sədaqəti ilə xidmət göstərən Ə.Vəzirov mərkəzin çaldığı bütün havalara oynayırdı.**

Azərbaycan dilində təmiz danışa bilməyən, Azərbaycan xalqının mental dəyərlərindən uzaq olan bu şəxs gülməli danışıq və hərəkətləri, lətifəyə çevrilmiş davranışları ilə yadda qaldı.

*Ən böyük biabırçılığı isə "muştuluğumu verin, ermənilər qayıdır" ifadəsi oldu.*

Ermənistanda yaşayan 200 mindən çox soydaşımızın zorakılıqla, vəhşiyanə bir şəkildə dədə-baba torpaqlarından çıxarılaraq Azərbaycana göndərildikləri bir vaxtda Bakıdan getmiş bir neçə erməni ailəsinin geri qaytarılması Azərbaycanın birinci şəxsini hədsiz dərəcədə xoşbəxt etmişdi.

Amma onun bu "xoşbəxtliy"i uzun sürmədi.

**Qanlı Yanvar hadisələrindən sonra xalqın qəzəbindən qorxaraq hərbi təyyarəyə minib sevdiyi Moskvaya qaçdı.**

❖ ❖ ❖

*Rusiyanın kadrı kimi (sonradan o da Vəzirov kimi hərbi təyyarı ilə Moskvaya qaçdı) Azərbaycana rəhbər qoyulan A.Mütəllibov da iradəsiz və qətiyyətsiz dövlət başçısı kimi tanındı.*

**Onun daha bir çatışmazlığı Azərbaycanı müstəqil dövlət kimi görə bilməməsində idi.**

Moskvanın dediyi ilə durub-oturur, baş verən proseslərin hara aparacağını, nə ilə nəticələnəcəyini aydın təsəvvür etmirdi.

NƏTİCƏDƏ:

* Ordu quruculuğuna başlamadı;
* Qarabağdakı əhalini əliyalın və müdafiəsiz qoydu;
* SSRİ-nin dağıldığı bir vaxtda Moskvanın tapşırığı ilə onun qorunması və saxlanılması üçün referendum keçirdi;
* Qarabağdakı azərbaycanlılar yaşayan kəndlərin qorunması üçün yaratdığı OMON isə sonradan dövlət çevrilişinə cəhd göstərdi;
* Ən nəhayət, xalqın və dövlətin ağır günündə postunu tərk edərək Moskvaya qaçdı.

*Birbaşa Moskvanın əli ilə deyil, meydandan iqtidara gələn AXC-Müsavat cütlüyü Azərbaycanın müstəqilliyini istəsə də, bu barədə ağızları köpükləna-köpüklənə danışsalar da, həmin müstəqilliyi bərqərar edərək yaşatmağa nə savadları, nə bacarıqları, nə də qabiliyyətləri çatırdı.*

**Prezident Ə.Elçibəydə nəinki iradə və qətiyyət vardı, heç komandasının üzvləri belə onun ağzına baxmır, saya almırdılar.**

* Parlamentin sədri İsa Qəmbər prezidentliyə hazırlaşırdı;
* Etibar Məmmədov ayrıca partiya yaradaraq hakimiyyətə gəlmək eşqinə düşmüşdü;
* Baş nazir Pənah Hüseynovun ölkə iqtisadiyyatını idarə etmək barədə təsəvvürü belə yox idi;
* Xarici işlər naziri Tofiq Qasımov heç bir xarici dil bilməyən adi fizik idi;
* Xəyanətkar müdafiə naziri Rəhim Qazıyev Rusiyanın ovaxtkı müdafiə naziri Qraçovun göstərişi ilə Azərbaycan ərazilərini ermənilərə verməkdən ötrü oyunbazlıqlar edirdi;
* Daxili işlər naziri İsgəndər Həmidov qoçuluqla, jurnalistləri döyməklə məşğul idi;
* Dövlət katibi Əli Kərimli isə populist bəyanatlar verməklə Ə.Elçibəyi yıxmaq barədə düşünürdü.

*Məqsədləri yalnız rüşvətxorluqdan ibarət olan təcrübəsiz, səriştəsiz və bacarıqsız insanlardan yığılan bu komanda qısa müddətdə ölkəni idarəolunmaz bir vəziyyətə gətirərək məhvolma həddinə çatdırdı, sonra isə vəzifələrini "donduraraq" hərəsi bir tərəfə qaçıb getdi.*

**Prezident Ə.Elçibəyin sələflərindən fərqi bir onda oldu ki, o, Moskvaya deyil, öz kəndinə - Kələkiyə qaçdı.**

❖ ❖ ❖

**Xalqın arzu və tələbi ilə 1993-cü ildə yenidən ölkə rəhbərliyinə qayıdan Ulu Öndər Heydər Əliyev əsl rəhbər iradəsi və qətiyyəti nümayiş etdirdi, təlatümlər qoynunda çalxalanan dövləti necə idarə etmənin, sabitlik yaratmağın nümunəsini ortaya qoydu!**

Ömür bundan artığına vəfa etmədi...

**Ulu Öndər Heydər Əliyev qurucu, yaradıcı rəhbər idi!**

*O, eyni zamanda bir neçə istiqamətdə fəaliyyət göstərməyi və başladığı hər bir işi uğurla sona çatdırmağı bacarırdı.*

**Heydər Əliyev dahi və uzaqgörən siyasi xadim kimi hadisələri qabaqlayırdı.**

*O, Moskvanın məkirli oyunlarına qrossmeyster gedişləri ilə cavab verməyi bacarırdı.*

* Əvvəlcə ölkəni xaos və anarxiya girdabından qurtararaq bütün sahələrdə qayda-qanun yaratdı.
* Ortaya möhkəm iradə qoyaraq əhalidəki külli miqdarda silah-sursatı yığdırdı, qanunsuz silahlı dəstələri tərk-silah etdirdi.
* Ölkədaxili vəziyyəti düzgün qiymətləndirərək böhrandan çıxış yollarını müəyyənləşdirdi, yeni ordu quruculuğuna başladı, uğurlu hərbi əməliyyat keçirərək Horadiz qəsəbəsi daxil 22 yaşayış məntəqəsini işğaldan azad etdi, Ermənistanla atəşkəs müqaviləsinin bağlanmasına nail oldu.
* "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın gələcək iqtisadi inkişafına ünvanlanan uğurlu addım sayılırdı.
* Ölkənin MDB-yə üzvlüyü də dövləti maraqlara xidmət edirdi.

Lakin düşmən geri çəkilmək niyyətində deyildi.

*İki dəfə - 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında sapı özümüzdən olan baltaların əli ilə dövlət çevrilişi cəhdi törədildi!*

**Həyatı üçün ölüm təhlükəsi belə Ulu Öndər Heydər Əliyevi yolundan döndərə bilmədi!**

*Özündən əvvəlki üç dövlət başçısından fərqli olaraq, Heydər Əliyev nə postunu, nə də təyyarəyə minərək ölkəni tərk etdi.*

Əksinə, üzünü xalqına çevirərək insanları dövlətə qarşı yaranmış təhlükə ilə birgə mübarizəyə səslədi.

**Xalq öz rəhbəri ətrafında yumruq kimi birləşdi, qara qüvvələr biabırçı məğlubiyyətə uğradıldı!**

*Beləliklə, Ulu Öndər Heydər Əliyevin möhkəm iradəsi sayəsində ölkədə dönməz sabitlik yaradıldı, Azərbaycanın müstəqilliyi əbədiliyə çevrildi.*

❖ ❖ ❖

**Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı sayılan cənab İlham Əliyev başlanmış işləri uğurla davam etdirdi, xalqa verdiyi bütün vədləri şərəflə yerinə yetirdi!**

*Prezident İlham Əliyev eyni zamanda bir neçə mühüm istiqamətdə fəaliyyət göstərirdi.*

* Möhkəm iradə, açıq və qətiyyətli mövqe, hədəfə doğru dayanmadan irəliləmək dövlət başçısı cənab İlham Əliyevin xarakterik xüsusiyyətidir.
* Siyasi fəhm, uzaqgörənlik, nəyi nə vaxt və necə etmək məharəti isə uğur və nailiyyətlərinin mayasını təşkil edir.
* Azərbaycan Prezidenti cənab İlham Əliyev müasir dünyanın ən nüfuzlu və sayılıb-seçilən liderlərindən sayılır.

*Bu hörməti dünya dövlətləri ilə qurduğu qarşılıqlı marağa və faydaya əsaslanan münasibətlər, hamıya xeyir gətirən beynəlxalq layihələr əsasında qazanmışdır.*

Bu gün Azərbaycan 10-u Avropa İttifaqının üzvü olmaqla 16 ölkəyə "Cənub qaz dəhlizi" vasitəsilə təbii qaz ixrac edir.

Müharibələr getdiyi, daşımalarda problemlər yarandığı bir vaxtda təhlükəsizliyi ilə diqqət çəkən Orta dəhlizin işə salınmasına son hazırlıq işləri gedir.

**İlham Əliyevin möhkəm iradə və qətiyyətinə 30 illik işğala son qoyulan çarpışmalarda bir daha şahidlik etdik.**

*44 günlük Zəfər müharibəsində, əslində, üç cəbhədə döyüş gedirdi.*

**Zəngilanlılarla son görüşündə həmin illəri xatırlayan cənab İlham Əliyev maraqlı açıqlamalar verdi:**

*"İkinci Qarabağ müharibəsi zamanı bizə nə qədər təzyiqlər olsa da, onların heç biri nəticə vermədi. Halbuki bizi dayandırmaq istəyənlərin sayı kifayət qədər çox idi. Birincisi, o vaxt ATƏT-in Minsk qrupuna rəhbərlik edən həmsədrlər, o ölkələr. Hərəsi öz səbəbinə görə bizi dayandırmaq istəyirdi. 44 gün ərzində dəfələrlə bizə təzyiqlər göstərilirdi. O ölkələr sıradan olan ölkələr deyil - onlar nüvə dövlətləridir, onlar BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir. Görün, biz kimlərlə üz-üzə qalmışdıq. Hər biri bu işğalı əbədi etmək, bundan bir alət kimi istifadə etmək və nəticə etibarilə Azərbaycan xalqına rahat nəfəs almaq imkanı verməmək üçün dəridən-qabıqdan çıxırdı. Təkcə onlar deyil, başqa ölkələr də bizim qələbəmizi istəmirdilər".*

**İnformasiya və diplomatiya müharibəsində də Prezidentimiz eyni qətiyyət və iradə nümayiş etdirdi.**

30-dan çox telekanala, qəzetə və informasiya agentliyinə verdiyi müsahibələrdə bütün məkrli sualları konkret faktlar və dəlillər əsasında cavablandırdı, Azərbaycana ləkəyaxma cəhdlərini rədd etdi!

*Diplomatiya sahəsində də eyni iradə və qətiyyətin şahidi olduq.*

**Cənab İlham Əliyevin irəli sürdüyü şərtlər yerinə yetirilməyənə, Ermənistan silahlı qüvvələrinin ərazilərimizdən çıxarılma qrafiki təqdim edilməyənə qədər hərbi əməliyyatlar dayandırılmadı.**

*Azərbaycan həm də ləyaqətli müharibə apardı, düşməndən qisasını döyüş meydanında aldı.*

**Cənab İlham Əliyevdən daha bir iqtibas:**

*"Bu gün dünyada bizə olan hörmətin bir çox səbəbləri var: həm qalib xalq kimi, həm müharibəni müharibə qanunlarına uyğun aparan xalq kimi, həm humanitar qaydalara riayət edən xalq kimi və qurub-yaradan xalq kimi. Yaxşı, 30 il bu Zəngilan onların əlində idi, daşı daş üstə qoyardılar da əgər bu, onların torpağıdırsa. Zəngilanın o dağılmış məscidini biz konservasiya etmişik, orada da kiçik bir fotosərgi təşkil etmişik ki, heç kim unutmasın nə günə salmışdılar onlar bizim dini-tarixi abidələrimizi. Bu, onların idisə, tikib qurardılar da. Cəmi beş il keçib, təkcə Zəngilan yox, görün, hər yerdə quruculuq işləri aparılır - yollar, körpülər, elektrik stansiyaları, su anbarları, köçkünlər üçün evlər, məktəblər tikilir. Bax, sahiblər belə edər. Talançı, işğalçı isə gələr sökər, dağıdar. Amma nə qədər söksələr də, yenə də bizim iradəmizi qıra bilmədilər. Biz qayıtmalı idik və qayıtmışıq bu torpaqların sahibləri kimi. İndi də qurub-yaradırıq".*

* Bu gün Azərbaycan qətiyyətlə sülh siyasəti yürüdür.
* Ötən il ABŞ-də Prezident D.Trampın iştirakı ilə imzalanan sənədlərə əməl edir.
* Ermənistanın blokadasını birtərəfli qaydada açaraq dəmir yolu ilə ona hər cür yüklərin mütəmadi daşınmasına şərait yaradıb.

**Sülh müqaviləsinin imzalanması üçün qoyulan şərt də dəyişməz və qətidir! Ermənistan Konstitusiyasından Azərbaycana qarşı ərazi iddiaları çıxarılmalıdır!**

❖ ❖ ❖

Srağagün Ermənistanda yeni seçkilər keçirildi.

Bu dəfə erməni xalqı təkcə dövləti idarə edəcək şəxsi yox, həm də müharibə ilə sülh arasında seçim edirdi.

*Ermənistanda kifayət qədər sülh tərəfdarı da var, qisasçılıq hissi ilə yaşayanlar da.*

**R.Koçaryan toy toğlusu kimi ortalığa düşərək yenidən hakimiyyətə gəlmək, xərclədiyi pulların yerini rüşvət və korrupsiya, ianələrdən oğurlayacağı vəsaitlə doldurmaq niyyətindəydi.**

*Əliağa Vahidin məşhur qəzəlində maraqlı bir misra var:*

*"Xəstə çox şey dilər, əmma ona qismət olmaz..."*

**Məhv edilərək diz çökdürülmüş ordusu, on iki min fərarisi olan hayların qalib və qüdrətli Azərbaycanın qarşısına nə ilə çıxacaqları aydın deyil.**

**Rusiyaya və ya Fransaya, durbinli casuslara da güvənmək axmaqlıqdır.**

Hərəsi öz hayındadır.

Rusiya Ukrayna bataqlığından çıxa bilmir...

Makron isə legitimliyini itirən prezidentə çevrilməkdədir...

Daha İran vasitəsilə silah-sursat daşımaq da mümkün olmayacaq.

*Azərbaycan isə qalib, iradəli və qüdrətli Sərkərdəsinə, daim hazır vəziyyətdə olan "dəmir yumruğ"a güvənir!*

**Nə qədər ki İlham Əliyev Azərbaycana rəhbərlik edir, heç kimdən və heç nədən qorxumuz və ya çəkinəcəyimiz yoxdur!**

*Yolumuz sülh yolu, ədalət yolu, nəsibimiz isə zəfər və qələbələrdir!*

**Bəxtiyar SADIQOV**



# Qurtuluş missiyasının başlandığı gün

## Ulu Öndər Heydər Əliyevin 1993-cü il iyunun 9-da Bakıya gəlişi Azərbaycan xalqının sabaha olan inamını bərpa etdi

**Tarix dəfələrlə sübut edib ki, geosiyasi kataklizmlər və daxili xaos burulğanında boğulan gənc dövlətlərin xilası uzaqgörən və milli maraqları hər şeydən uca tutan dahi bir liderin meydana çıxması ilə mümkündür. Liderlik, sadəcə, idarəetmə bacarığı deyil, kütlələrin ümidsizliyini milli özünəinamla əvəzləyən, iflas həddinə çatmış bir ölkəni yenidən ayağa qaldıran unikal siyasi dühə və xilaskarlıq missiyasıdır. Azərbaycan xalqının müasir dövlətçilik salnaməsi məhz belə bir fundamental liderlik fenomeninin - Ümummilli Lider Heydər Əliyevin dühasının işığında yenidən yazılıb, məhv olmaq təhlükəsindən qurtularaq intibah və zəfər mərhələsinə qədəm qoyub.**

XX əsrin sonlarında imperiya buxovlarının parçalandığı, dünyanın yenidən bölüşdürüldüyü mürəkkəb bir şəraitdə öz müstəqilliyini bərpa edən Azərbaycan Respublikası hərbi və siyasi-iqtisadi böhranların içinə düşdü. Müstəqilliyin ilk illərində ölkəyə rəhbərlik edən səriştəsiz qüvvələrin siyasi naşılığı, dövlət maraqlarını daxili çəkişmələrə qurban verməsi və qlobal geosiyasi prosesləri düzgün qiymətləndirə bilməməsi Azərbaycanı daxildən vətəndaş müharibəsi, xaricdən isə Ermənistanın işğalçılıq siyasətinin dəhşətli uçurumu ilə üz-üzə qoydu.

Mərkəzi hakimiyyəti iflic olmuş və parçalanma astanasında olan bir ölkəni bu fəlakətdən çıxarmaq insan ağlının və bacarığının sərhədlərini aşan bir missiya tələb edirdi. Böhranın pik həddində, 1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyevin xalqın təkidli və israrlı çağırışlarına səs verərək Naxçıvandan Bakıya gəlməsi Azərbaycanın bütövlükdə dövlət olaraq mövcudluq mübarizəsinin dönüş nöqtəsi oldu.

9 iyun tarixi milli qurtuluş fəlsəfəsinin təməlinin qoyulduğu, xalq-lider birliyinin monolitə çevrildiyi tarixi gündür. Həmin gündən başlanan strateji gedişlər və həyata keçirilən qətiyyətli idarəçilik Azərbaycanı vətəndaş qırğınından xilas etməklə yanaşı, ölkəmizin gələcək onilliklər üçün qlobal inkişaf modelinin konturlarını cızdı. Müstəqil dövlətimizin qazandığı qlobal uğurlardan, beynəlxalq miqyasda əldə edilmiş etibarlı tərəfdaş və qüdrətli ölkə statusundan qürurla söz açarkən bu nailiyyətlərin təməlinin qoyulduğu zamanın Azərbaycan tarixinin silinməz salnaməsi olduğunu xüsusi qeyd etməliyik. Çünki bu gün müasir, suveren və güclü Azərbaycanın beynəlxalq arenada qazandığı möhtəşəm uğurların, Avropanın enerji təhlükəsizliyinin qarantına çevrilməsinin, qlobal logistik layihələrin mərkəzi statusunu daşımasının sarsılmaz təməli Ulu Öndər Heydər Əliyevin 9 iyun qayıdışı ilə qoyulub. Tarixin silinməz məqamları müstəqil dövlətimizi böyük təhlükələrdən xilas edərək dünyada nüfuz qazanmış Azərbaycanın adını zirvələrə yüksəldib.

Danılmaz tarixi reallıqdır ki, müstəqilliyi əldə etmək nə qədər çətin və fədakarlıq tələb edən bir prosesdirsə, onu qoruyub saxlamaq, dövlət təsisatlarını daxili və xarici təhdidlərdən sığortalamaq bir o qədər də mürəkkəb və önəmlidir. Dövlətçilik ənənələrinin formalaşması, xalqımızın milli azadlıq ideallarının real siyasi müstəviyə keçməsi, Azərbaycanın qanlı-qadalı illərdən çıxması və intibah dövrünə qədəm qoyması birbaşa Ulu Öndər Heydər Əliyevin adı və misilsiz fəaliyyəti ilə bağlıdır. 1990-cı ilin qanlı 20 Yanvar hadisələrindən sonra Ümummilli Liderin Moskvadakı xəyanətkar sovet rejiminin ciddi təqiblərinə və təzyiqlərinə baxmayaraq, öz həyatını təhlükəyə ataraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlməsi, sovet imperiyasının rəhbərliyinə qarşı kəskin, ifşaedici və cəsarətli bəyanatla çıxış etməsi milli azadlıq hərəkatına verilən ən böyük tarixi, siyasi və mənəvi dəstək idi.

Dahi rəhbərin sonradan Azərbaycana qayıtması, doğma Naxçıvana üz tutması, Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan Ali Məclisinə deputat seçilməsi ölkəmizin hər yerində mübarizə alovunu daha da alovlandırdı. Müdrik siyasətçinin uzaqgörən taktikası xalqın buxovlanmış arzularının yolunda real bir ümid çırağı yandırdı.

Ulu Öndər Heydər Əliyev yüksək rəhbərlik keyfiyyətləri sayəsində Naxçıvanı erməni təcavüzündən qorumaqla yanaşı, həm də dövlət müstəqilliyimizin əsas rəmzlərini ümummilli müstəviyə çıxardı. Ümummilli Liderin sədrliyi ilə 17 noyabr 1990-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin tarixi iclasında muxtar respublikanın adından "sovet sosialist" sözləri birdəfəlik götürüldü. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı rəsmi dövlət bayrağı kimi qəbul edildi. Bu barədə Azərbaycan parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması haqqında qəbul edilən qərarlar dövlətçilik tariximizin ən parlaq səhifəsini təşkil etdi. Naxçıvanda həyata keçirilən köklü demokratik tədbirlər və milli dövlətçiliyin bərpası istiqamətində atılan cəsarətli addımlar bütün Azərbaycana mütləq bir nümunə oldu.

Məhz Naxçıvandan başlayan unikal ideoloji rəhbərliyin nəticəsi olaraq 5 fevral 1991-ci ildə Azərbaycan SSR Ali Sovetinin sessiyasında demokratik qüvvələrin və xalqın tələbi ilə dövlətin adı dəyişdirilərək Azərbaycan Respublikası adlandırıldı. Bunun ardınca 26 avqust 1991-ci ildə Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan Kommunist Partiyasının fəaliyyəti tamamilə dayandırıldı və onun bütün strukturları birdəfəlik ləğv edildi. Azadlıq hərəkatının təzyiqləri fonunda Ali Sovetin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyası 30 avqust 1991-ci ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə qəbul etdi.

18 oktyabr 1991-ci ildə Ali Sovetin sessiyasında Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilərək xalqımız əsrlər boyu can atdığı müstəqilliyinə yenidən qovuşdu. 1991-ci il oktyabrın 19-da Azərbaycan Ali Sovetinin sessiyasına ünvanladığı müraciətdə bu hadisəni yüksək qiymətləndirən Ulu Öndər Heydər Əliyev qeyd edirdi: "Biz bu gün xoşbəxtik ki, nəhayət, Azərbaycan Respublikasının ali hakimiyyət orqanı milli azadlıq niyyətlərimizin həyata keçirilməsi üçün ilk addım atdı. Azərbaycan xalqı tam əmin ola bilər ki, bütün Naxçıvan əhalisi milli azadlıq hərəkatı uğrunda başladığımız mübarizəni heç vaxt dayandırmayacaq və bundan sonra daha əzmlə davam etdirəcəkdir".

Azərbaycan müstəqillik əldə etdikdən dərhal sonra daxili və xarici mütəşəkkil təhdidlərin, hərbi təcavüzün və dərin siyasi böhranların hədəfinə çevrilmişdi. 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq, xaos, idarəolunmazlıq və avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar həmin dövrdə yeni yaradılmış müstəqil dövlətə rəhbərlik etmək üçün heç bir liderlik xüsusiyyətinə malik olmayan, siyasi hadisələrə düzgün qiymət vermək, qlobal geosiyasi proseslərin mahiyyətini anlamaq və gələcəyi görmək imkanlarından tamamilə məhrum olan naşı şəxslərə görə baş vermişdi. Adi böhran vəziyyətlərindən belə çıxış yolu tapmağa qadir olmayan ozamankı səriştəsiz və bacarıqsız iqtidar əhali arasında nüfuzunu itirmiş, baş vermiş qanlı hadisələrdən düzgün nəticə çıxara bilməmişdi. Dövlət idarəçiliyindəki bu qətiyyətsizlik ucbatından ölkədə vətəndaş müharibəsinə rəvac verilmişdi. Siyasi hakimiyyətdə təmsil olunan qüvvələrin daxili çəkişmələri, dövlət strukturlarının tamamilə iflic vəziyyətinə düşməsi Ermənistanın işğalçılıq siyasətinin genişlənməsinə şərait yaratmışdı.

Azərbaycanda siyasi böhranın pik həddi 1993-cü ilin iyun ayında yaşandı. 4 iyun 1993-cü ildə Gəncədə Surət Hüseynovun rəhbərlik etdiyi hərbi hissənin tərk-silah edilməsi məqsədilə hökumət qüvvələrinin həyata keçirdiyi əməliyyat uğursuzluğa düçar oldu. Nəticədə qan töküldü və qiyamçı hərbi qüvvələr mərkəzi hakimiyyətin tabeliyindən çıxaraq Bakıya doğru hərəkət etməyə başladılar. Ozamankı dövlət rəhbərliyi yaranmış bu dərin böhran, hərbi qiyam və vətəndaş qarşıdurması fonunda tamamilə iflic vəziyyətinə düşmüşdü.

Ölkənin parçalanmaq, daxili müharibədə məhv olmaq təhlükəsi real idi və Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davamlı şəkildə işğal edilməsi, Şuşa, Laçın və Kəlbəcərin itirilməsi, regional separatizmin baş qaldırması milli dövlətçiliyimizi ikinci dəfə məhv olmağın bircə addımlığına gətirmişdi.

Mürəkkəb və gərgin vəziyyət cəmiyyətin bütün təbəqələrində ölkəni bu bəlalardan xilas edə biləcək, daxili qiyamları yatıracaq, xalqı öz arxasınca aparmağa qadir güclü bir Liderə ehtiyac olduğunu şərtləndirmişdi. Ona görə cəmiyyətin bütün təbəqələrinin nəzərləri Naxçıvana yönəlmişdi. Xalqımızın böyük oğlu Heydər Əliyevin proseslərə müdaxilə etməsinin labüdlüyü həmin günlərdə bütün Azərbaycan ictimaiyyətinin siyasi istəyi idi.

Hər kəs yaxşı anlayırdı ki, ölkədəki hərc-mərcliyin, itaətsizliyin, anarxiyanın, siyasi çəkişmələrin, Gəncədə başlanmış qardaş qırğınının, qanunsuz silahlı dəstələrin Bakıya yürüşünün qarşısını yalnız bu böyük insan aradan qaldıra bilərdi. Hətta dövrün naşı rəhbərliyi də tamamilə əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəmizi düşdüyü bu dərin geosiyasi, iqtisadi və mənəvi-psixoloji tənəzzüldən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Ulu Öndər Heydər Əliyevdir. Bu, bütün xalqın istəyi, milli harayı idi.

Xalqın milli dövlətçiliyi qorumaq, ölkənin parçalanmasının qarşısını almaq və vətəndaş müharibəsinin ağır fəsadlarından qurtulmaq üçün etdiyi təkidli, israrlı çağırışlarına səs verən Ümummilli Lider 9 iyun 1993-cü ildə Naxçıvandan Bakıya gəldi. Ulu Öndərin gəlişi ilə Azərbaycanın siyasi-ictimai həyatında xoş ovqat, cəmiyyətdə yüksək əhvali-ruhiyyə baş qaldırmışdı. Bakı sakinləri "Heydər baba, xalqı bu bəladan qurtar!" kimi şüarlarla Ulu Öndəri qarşılamaq üçün hava limanına yollanmışdılar.

Ulu Öndər çıxışlarının birində bu barədə deyib: "1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı, ovaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi, qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycanın ərazisinin, demək olar ki, yarısından çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək, məni Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən o vaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri, ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".

Dövlət müstəqilliyinin itirilməsi, ölkəmizin daxili regional didişmələr fonunda parçalanması, xarici güclərin təsiri altında olan hərbi qruplaşmaların dövlət təsisatlarını iflic etməsi fonunda 9 iyun tarixi milli qurtuluş salnaməsinin əsas tarixlərindən birinə çevrildi. Ulu Öndərin Naxçıvandan Bakıya gəlişi günü Azərbaycanın siyasi tarixində ümidsizliyin bitdiyi, milli özünəinamın və dövlətin bərpası prosesinin rəsmən başladığı gün oldu.

Ulu Öndər Heydər Əliyev Bakıya gələn kimi dərhal fəaliyyətə başladı, böyük siyasi iradə və şəxsi cəsarət göstərərək vəziyyəti yerində qiymətləndirmək üçün birbaşa Gəncəyə səfər etdi. Dahi liderin nümayiş etdirdiyi yüksək dövlətçilik təfəkkürü və müdrik diplomatiya sayəsində Gəncədəki hərbi qarşıdurmanın geniş miqyas almasının və paytaxta doğru irəliləyən qüvvələrin qan tökməsinin qarşısı qətiyyətlə alındı.

Xalqımızı nicata aparan strateji yol məhz 9 iyun qayıdışı və onun ardınca həyata keçirilən gərgin fəaliyyətlə başlandı. Bu misilsiz siyasi manevrin, xalq-lider birliyinin və daxili sabitləşmə prosesinin məntiqi davamı olaraq, 15 iyun 1993-cü ildə Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi və həmin gün tariximizə Milli Qurtuluş Günü kimi silinməz hərflərlə həkk olundu. 15 iyun 1997-ci ildən etibarən parlamentin qərarı ilə rəsmi dövlət bayramı kimi qeyd edilməyə başlandı.

Ali Sovetin həmin tarixi iclasındakı çıxışında Ümummilli Lider Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını, onun ideoloji, siyasi və iqtisadi konturlarını açıqlayaraq bildirdi ki, həyatını da, fəaliyyətini də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən çıxmasına həsr edəcək: "Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni öz üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm. Ali Sovetin Sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün əsas vəzifələrdən biri hesab edirəm. Azərbaycan respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında, müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini, harada olursa-olsun yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Bununla əlaqədar olaraq bildirmək istəyirəm ki, mənim fikrimcə, Azərbaycan Respublikası, bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcək".

Ulu Öndər respublikamızda ictimai-siyasi sabitlik və sağlam mühit olmazsa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməyəcəyini qətiyyətlə ifadə etdi. Əgər Ümummilli Lider 9 iyun tarixində xalqın çağırışını qəbul edib paytaxta gəlməsəydi, siyasi idarəçiliyi öz əlinə almasaydı, müstəqil Azərbaycandan və ölkəmizdəki mövcud əmin-amanlıqdan, iqtisadi müstəqillikdən söz açmaq belə qeyri-mümkün olardı. Heydər Əliyev dühası Azərbaycan tarixində həm xilaskar, həm də modern qurucu lider statusunda yer almış unikal şəxsiyyətdir.

Ulu Öndər daxili sabitliyi bərqərar etmək üçün qətiyyətli addımlar atdı, mərkəzi dövlət idarəçiliyindəki iflic vəziyyəti aradan qaldırdı, dövlət çevrilişinə cəhd edən separatçı və qiyamçı qüvvələrin fəaliyyətini daxili sabitlik qorunmaqla tamamilə dəf etdi. Ümummilli Lider 3 oktyabr 1993-cü ildə keçirilən şəffaf və demokratik seçkilərdə xalqımızın mütləq əksəriyyətinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçildi.

Heydər Əliyev prezident seçildikdən sonra nəhəng dövlət quruculuğu işlərinə başladı. 20 sentyabr 1994-cü ildə Bakıda dünyanın ən nəhəng neft şirkətləri ilə imzalanan tarixi neft müqaviləsi, yəni "Əsrin müqaviləsi" ölkənin maliyyə müstəqilliyinin təmin olunmasında, sənaye profilinin yenidən qurulmasında, hərbi potensialının güclənməsində və modern milli kadr korpusunun hazırlanmasında həlledici rol oynadı, ölkəmizi beynəlxalq iqtisadi sistemin etibarlı tərəfdaşına çevirdi.

Xarici siyasət sahəsində də Ulu Öndər Azərbaycanı regional təcriddən sürətlə xilas etdi. Həyata keçirilən balanslaşdırılmış və milli maraqlara söykənən diplomatiyanın ən parlaq nəticələrindən biri 1996-cı ilin dekabrında keçirilən ATƏT-in Lissabon sammitində qazanıldı. Heydər Əliyevin yüksək diplomatik məharəti və qətiyyəti sayəsində sammitdə iştirak edən 53 dövlət Azərbaycanın ərazi bütövlüyünü tanıyan tarixi sənədi dəstəklədi. Bu, gələcək qələbələrimizin hüquqi təməllərindən biri idi.

Ulu Öndərin müstəqillik dövründə dövlət quruculuğuna verdiyi ən böyük fundamental töhfələrdən biri də cəmiyyətin vahidliyinin və həmrəyliyinin təmin olunması üçün milli ideologiyanın - azərbaycançılığın sistem halında təqdimatı oldu. Azərbaycançılıq məfkurəsi dünya azərbaycanlılarının ideologiyasına, milli birliyin təliminə və vahid dövlətçilik konsepsiyasına çevrildi.

Azərbaycanın bugünkü möhtəşəm qlobal uğurlarına, beynəlxalq münasibətlər sistemindəki sarsılmaz yerinə və qazandığı tarixi qələbələrə nəzər saldıqda, bütün bu nailiyyətlərin təməlində birbaşa Ümummilli Liderin uzaqgörən strateji irsinin dayandığını aydın şəkildə görürük. 1993-cü ilin iyununda başlayan bu yol bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə qalib, güclü və müasir Azərbaycanın uğur salnaməsinə çevrilib. Məhz taleyüklü zamanlarda verilmiş uzaqgörən qərarlar bu günün zəfərlərinin başlanğıcı oldu.

Bu gün Azərbaycan qlobal miqyasda mühüm geosiyasi və geoiqtisadi proseslərin mərkəzində dayanan suveren bir gücdür. Ölkəmiz Avropanın enerji təhlükəsizliyində xüsusi rola malik strateji tərəfdaşdır, irimiqyaslı qlobal infrastruktur layihələrinin təşəbbüskarı və icraçısıdır. Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən nəqliyyat dəhlizlərinin, o cümlədən Orta dəhlizin və regional kommunikasiya xətlərinin mərkəzi qovşağı məhz Azərbaycandır. Bakı şəhəri beynəlxalq miqyaslı siyasi, iqtisadi və humanitar forumların keçirildiyi mötəbər bir məkana, qlobal dialoq platformasına çevrilib. Bütün bu möhtəşəm uğurların əsası məhz 1993-cü ilin 9 iyununda başlanan xilaskarlıq missiyası, daxili siyasi sabitlik, güclü dövlətçilik fəlsəfəsi və Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu uzaqgörən daxili və xarici siyasət strategiyası üzərində ucalıb.

Ümummilli Lider Heydər Əliyevin siyasi və strateji kursu Prezident İlham Əliyev tərəfindən uğurla, yeni dövrün tələblərinə uyğun şəkildə davam etdirilir. Dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən strateji kursun nəticəsində müasir müstəqil Azərbaycan möhtəşəm nailiyyətlər qazanaraq keyfiyyətcə yeni zirvələr fəth edir. 2003-cü ildən bu günədək keçən dövr aydın şəkildə göstərdi ki, Prezident İlham Əliyev ölkə həyatının bütün sahələrində xalqa verdiyi vədlərin hamısını yerinə yetirdi, dövlət proqramlarını və genişmiqyaslı kompleks islahatları uğurla icra etdi. Həyata keçirilən çoxtərəfli, balanslaşdırılmış, milli maraqlara və beynəlxalq hüquqi prinsiplərə əsaslanan diplomatiya sayəsində Cənubi Qafqaz regionunda reallaşan bütün qlobal layihələrdə Bakının mövqeyi mütləq nəzərə alınır.

Azərbaycan 44 günlük Vətən müharibəsində düşmənə unudulmaz dərs verdi və öz adını qalib dövlət kimi bəşəriyyət tarixinə qızıl hərflərlə yazdı. Prezident İlham Əliyev bu möhtəşəm Zəfərlə ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu, torpaqlarımızın işğaldan azad edilməsini tam şəkildə gerçəkləşdirdi. Bu qələbənin qazanılmasında əsas yükü Ulu Öndər Heydər Əliyevin ideoloji xətti ilə yetişən, müstəqillik dövründə böyüyən, milli ruhda tərbiyə almış vətənpərvər gənc nəsil öz çiyinlərində daşıdı. 2023-cü ilin sentyabrında həyata keçirilən antiterror əməliyyatı nəticəsində ölkəmizin suverenliyi bütün ərazilərimizdə tam bərqərar oldu, Xankəndidə, Xocalıda şanlı bayrağımız ucaldıldı.

Bununla da 9 iyun qurtuluş fəlsəfəsinin dövlətçilik xətti özünün ən zirvə, ən mükəmməl nöqtəsinə çatdı. Müasir müstəqil Azərbaycan dövlətinin banisi, dahi şəxsiyyət Heydər Əliyevin adı və rəhbərlik fəlsəfəsi doğma vətənimizlə birlikdə əbədiyyət rəmzinə çevrilib. Ulu Öndərin irəli sürdüyü fundamental ideyalar xalqımızın gələcək inkişaf üfüqlərinə və dövlətçilik strategiyamıza daim parlaq işıq saçmaqdadır. Ümummilli Liderin müəyyənləşdirdiyi uzaqgörən siyasi xəttin bu gün Prezident İlham Əliyev tərəfindən böyük məharətlə davam etdirilməsi, həmçinin bu strateji kursun yeni dövrün qlobal çağırışlarına uyğun olaraq daha da zənginləşdirilməsi nəticəsində Azərbaycan keyfiyyətcə yeni bir inkişaf mərhələsinə qədəm qoyub.

Prezident İlham Əliyevin rəhbərliyi altında respublikamızda müşahidə olunan hərtərəfli tərəqqi, icra edilən qlobal əhəmiyyətli transmilli və daxili infrastruktur layihələri, habelə ölkə həyatının sürətlə modernləşməsi Ulu Öndərin əsasını qoyduğu dövlətçilik məktəbinin və möhkəm təməllərin birbaşa məntiqi nəticəsidir.

Azərbaycanın qlobal arenada müasir, innovativ və qalib bir ölkə kimi yenidən təqdim olunmasına imkan yaradan bu köklü və müsbət dəyişikliklər dahi rəhbər Heydər Əliyevin cızdığı xilaskarlıq və tərəqqi yolunun uğurlu davamıdır. Bu möhtəşəm tarixi yüksəliş və qazanılan hər bir qlobal uğur Ümummilli Lider tərəfindən müəyyən edilmiş milli inkişaf strategiyasının heç bir alternativinin olmadığını, onun zamanı qabaqlayan universal xarakter daşıdığını tam dolğunluğu və fəlsəfi dərinliyi ilə bir daha təsdiq etməkdədir.

***Səttar MÖHBALIYEV,***
***Milli Məclisin deputatı***



# Azərbaycanın "yaşıl inkişaf", ekoloji məsuliyyət və dayanıqlı gələcək yolu

**Qlobal iqlim dəyişikliyi fonunda ekoloji təhlükəsizliyin təmin edilməsi müasir beynəlxalq münasibətlər sisteminin strateji prioritetinə çevrilmişdir. Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) ilə tərəfdaşlıq çərçivəsində bu günlərdə ölkəmiz Ümumdünya Ətraf Mühit Gününə (WED) uğurla evsahibliyi etdi.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına müraciətində də xüsusi vurğulandığı kimi, ölkəmizin regionda ilk dəfə olaraq belə bir qlobal tədbirə evsahibliyi etməsi mühüm hadisədir. Bu, Azərbaycanın beynəlxalq səviyyədə ətraf mühitin mühafizəsi ilə bağlı maarifləndirmənin artırılması sahəsində fəal roluna və planetimizi qorumaq naminə kollektiv səylərə verdiyi töhfəsinə yüksək qiymətin göstəricisidir. Beynəlxalq ictimaiyyətə ünvanlanan müraciət həm də rəsmi Bakının qlobal "yaşıl gündəliy"in formalaşmasındakı mütərəqqi rolunu hüquqi və siyasi baxımdan təsbit edir.

Belə bir tədbirə evsahibliyi ölkəmizin qlobal ekoloji təşəbbüslərdə fəal iştirakının və "yaşıl inkişaf" strategiyasına sadiqliyinin növbəti təzahürü oldu. Bu, ətraf mühitin qorunması, iqlim dəyişiklikləri ilə mübarizə və davamlı inkişaf məqsədləri istiqamətində beynəlxalq əməkdaşlığın gücləndirilməsinə xidmət etməklə yanaşı, Azərbaycanın ekoloji məsələlərin həllinə verdiyi töhfələrin dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirildiyini də nümayiş etdirdi.

Xatırladaq ki, "Təbiətdən ilhamlanaraq. İqlim naminə. Gələcəyimiz naminə" qlobal çağırışı altında keçirilən Ümumdünya Ətraf Mühit Günü ilə bağlı estafeti Azərbaycan 2024-cü ildə Koreya Respublikasında təşkil olunan tədbirdə qəbul etmişdir. 1972-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən təsis olunmuş Ümumdünya Ətraf Mühit Günü milyonlarla insanı bir araya gətirən ətraf mühit sahəsində qlobal platformadır. Belə mötəbər bir tədbirə evsahibliyi üçün məhz Azərbaycanın seçilməsi təsadüfi deyil. Ölkəmiz qorunan təbiət ərazilərinin genişləndirilməsi, biomüxtəlifliyin mühafizəsi, ekosistemlərin bərpası və iqlim dəyişmələri ilə mübarizə istiqamətində fəaliyyətini uğurla davam etdirməkdədir. Azərbaycan həmçinin Paris Sazişi tərəfi kimi emissiyaların azaldılması öhdəliyini götürüb və bərpaolunan enerji sahəsini genişləndirir.

COP29-a evsahibliyinin yaratdığı dinamikanı davam etdirən dövlətimiz bu tədbir vasitəsilə beynəlxalq əməkdaşlığın daha da gücləndirilməsinə və ekoloji öhdəliklərin praktik fəaliyyətə çevrilməsinə töhfə verməyi hədəfləyir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ümumdünya Ətraf Mühit Günü tədbirinin iştirakçılarına müraciəti ətraf mühitin qorunması naminə birgə fəaliyyətə strateji baxışın ifadəsi, ölkəmizin bu sahədə həyata keçirdiyi əməli tədbirlərin ümumi mənzərəsi kimi də beynəlxalq aləmdə çox böyük maraq doğurdu.

## Yeni çağırışlar qarşısında

Əsrimiz bəşəriyyətin qarşısında yeni çağırışlar qoyub: əgər ötən əsrlərdə ölkələrin inkişafı daha çox sənayeləşmə, iqtisadi güc və hərbi potensialla ölçülürdüsə, bu gün dövlətlərin məsuliyyət dərəcəsini müəyyən edən əsas meyarlardan biri məhz ətraf mühitə münasibətdir. İqlim dəyişiklikləri, qlobal istiləşmə, su ehtiyatlarının azalması, biomüxtəlifliyin məhvi və ekoloji tarazlığın pozulması artıq ayrı-ayrı ölkələrin deyil, bütün dünyanın ortaq problemidir. Buna görə ekoloji təhlükəsizlik məsələsi beynəlxalq siyasətin və qlobal gündəliyin ən mühüm mövzularından biri kimi getdikcə daha da aktuallaşır. Müraciətdə oxuyuruq: "Planetimizin üzləşdiyi ekoloji problemlər təkcə ekosistemlərə deyil, həm də dayanıqlı inkişafa, insan sağlamlığına, həyat şəraitinə və ölkələrin tərəqqisinə ciddi təsir göstərir. Gələcək nəsillərin rifahı bu gün bizim bu çağırışların öhdəsindən gəlmək bacarığımızdan asılıdır".

Prezident İlham Əliyevin müraciətində bölüşdüyü strateji baxış bu reallıqlar fonunda xüsusi əhəmiyyət daşıyır, həm qlobal ekoloji çağırışlar həm Azərbaycanın üzləşdiyi problemlər, həm də ölkəmizin "yaşıl inkişaf" strategiyası və beynəlxalq ekoloji diplomatiyadakı rolu bu baxışda ətraflı öz əksini tapır. İqlim dəyişikliklərinin getdikcə daha dağıdıcı xarakter alması, su ehtiyatlarının azalması, torpaqların deqradasiyası, biomüxtəlifliyin itirilməsi və atmosferin çirklənməsi artıq yalnız ekoloqların deyil, siyasətçilərin, iqtisadçıların, təhlükəsizlik ekspertlərinin də əsas müzakirə mövzusudur.

Bu gün dünyanın müxtəlif bölgələrində müşahidə olunan quraqlıqlar, daşqınlar, meşə yanğınları və anomal istilər iqlim böhranının real nəticələridir. Ətraf mühit sahəsində yaranan problemlər iqtisadi inkişafı ləngidir, insanların həyat keyfiyyətini aşağı salır, ərzaq və su təhlükəsizliyini təhdid edir.

Azərbaycan Prezidentinin vurğuladığı kimi, gələcək nəsillərin rifahı məhz bugünkü qərarlardan və həyata keçirilən tədbirlərdən asılıdır. Bu yanaşma ekoloji siyasətin yalnız təbiətin qorunması deyil, həm də insanın və cəmiyyətin gələcəyinin təmin olunması anlamına gəldiyini göstərir.

## Azərbaycanın "yaşıl inkişaf" modeli

Son illər Azərbaycan dövlət siyasətində ekoloji məsələlərə xüsusi yer ayırır. Təsadüfi deyil ki, "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" hədəfi Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişaf üzrə beş milli prioritetindən biri kimi müəyyənləşdirilib. Bu yanaşma, əslində, ölkəmizin inkişaf modelində keyfiyyətcə yeni mərhələnin başlanğıcı kimi də qiymətləndirilə bilər. Əgər əvvəlki dövrlərdə əsas diqqət iqtisadi inkişafa və infrastruktur quruculuğuna yönəlmişdisə, hazırda bu proses ekoloji dayanıqlılıq prinsipləri ilə tamamlanır.

Yaşıllıq sahələrinin artırılması, meşələrin bərpası, tullantıların idarə olunması sisteminin təkmilləşdirilməsi, su ehtiyatlarından səmərəli istifadə və alternativ enerji mənbələrinin inkişafı Azərbaycanın "yaşıl transformasiya" strategiyasının əsas istiqamətlərini təşkil edir. Bu siyasət bir tərəfdən ətraf mühitin qorunmasına xidmət göstərir, digər tərəfdən isə iqtisadiyyatın yeni inkişaf modelinə keçidinə təminat yaradır. Dünya təcrübəsi göstərir ki, "yaşıl iqtisadiyyat" yaxın onilliklərdə qlobal rəqabətin əsas istiqamətlərindən biri olacaq. Azərbaycan da bu prosesin iştirakçısı olmaqla gələcək iqtisadi üstünlüklər üçün möhkəm zəmin yaratmaqdadır.

Prezident İlham Əliyevin müraciətində xüsusi diqqət çəkən məsələlərdən biri də su ehtiyatları ilə bağlıdır. Azərbaycan özü son illər həm quraqlıq, həm də daşqın risklərinin artması ilə üzləşir. Bu problem təkcə ölkəmiz üçün xarakterik deyil. BMT və digər beynəlxalq təşkilatların hesabatlarında da yaxın onilliklərdə su çatışmazlığının qlobal təhlükəsizlik məsələsinə çevriləcəyi vurğulanır.

Azərbaycanın yerləşdiyi regionda transsərhəd çaylardan asılılıq, iqlim dəyişikliklərinin təsiri və yağıntıların qeyri-sabitliyi su ehtiyatlarının idarə edilməsini daha da zəruriləşdirir. Dövlətimizin başçısının müraciətində qeyd olunan fakt - Xəzər dənizinin səviyyəsinin son iki yüzillikdə müşahidə olunan ən aşağı göstəricilərdən birinə yaxınlaşması vəziyyətin ciddiliyini göstərir.

Xəzərin dayazlaşması təkcə ekoloji problem doğurmur, bunun çox ciddi iqtisadi və geosiyasi nəticələri də ola bilər. Çünki balıqçılıq, dəniz nəqliyyatı, sahil ekosistemləri və enerji infrastrukturu bu prosesdən birbaşa təsirlənir. Bu baxımdan Azərbaycanın su təhlükəsizliyinə yönəlmiş siyasəti artıq milli təhlükəsizliyin ayrılmaz hissəsinə çevrilməkdədir.

## "Yaşıl yenidənqurma"

Müasir dünyada təbiətin qorunması yalnız ağaclar əkməklə, yaşıllıqlar salmaqla məhdudlaşmır, əsas məsələlərdən biri biomüxtəlifliyin saxlanılmasıdır. Azərbaycan coğrafi mövqeyi və təbii şəraiti baxımından dünyanın nadir biomüxtəliflik mərkəzlərindən biri hesab olunur. Prezidentin müraciətində də xüsusi vurğulanan Hirkan meşələri bunun ən parlaq nümunələrindəndir. UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmiş Hirkan meşələri milyonlarla il əvvəl formalaşmış relikt meşə ekosistemini özündə qoruyub saxlayır. Burada dünyanın başqa yerlərində rast gəlinməyən çoxsaylı flora və fauna növləri mövcuddur. Həmin ərazilərin qorunması təkcə Azərbaycanın deyil, bütün bəşəriyyətin təbii irsinin qorunması deməkdir. Məhz ona görə də xüsusi mühafizə olunan təbiət ərazilərinin genişləndirilməsi dövlət siyasətinin vacib istiqamətlərindən biridir.

Azərbaycan Prezidentinin müraciətində işğaldan azad olunmuş ərazilərdəki ekoloji vəziyyət də mühüm yer tutur. Təxminən 30 il ərzində Ermənistanın işğal altında saxladığı torpaqlarımız yalnız fiziki dağıntılara deyil, həm də ciddi ekoloji fəsadlara məruz qalmışdı. Meşələrin məhv edilməsi, təbii sərvətlərin talan olunması, su hövzələrinin çirkləndirilməsi və yaşayış məntəqələrinin dağıdılması regionun ekoloji tarazlığını pozmuşdu. Bu proses beynəlxalq hüquqda "ekosid" və "urbisid" anlayışları ilə xarakterizə edilir.

44 günlük Vətən müharibəsindəki tarixi qələbəmizdən, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpasından sonra Azərbaycan işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işlərini həm də ekoloji reabilitasiya proqramı kimi həyata keçirir. Qarabağ və Şərqi Zəngəzurda reallaşdırılan layihələrin əsas məqsədlərindən biri insanla təbiət arasında harmoniyanın yenidən qurulmasıdır. Hazırda bu ərazilər Azərbaycanın "yaşıl enerji" strategiyasının da əsas mərkəzlərindəndir. "Ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları əsasında qurulan yaşayış məntəqələri, enerji səmərəliliyinə malik infrastruktur, rəqəmsal idarəetmə sistemləri və bərpaolunan enerji layihələri regionun inkişaf modelini müəyyənləşdirir. Bu ərazilər günəş, külək və hidroenerji potensialı baxımından olduqca zəngindir. Azərbaycanın məqsədi isə yeni yaşayış məntəqələri qurmaqla yanaşı, gələcəyin "yaşıl iqtisadiyyat" modelini də formalaşdırmaqdır. Bununla Qarabağ və Şərqi Zəngəzur dünyanın bir çox ölkəsi üçün postmünaqişə dövründə "yaşıl yenidənqurma" nümunəsinə çevrilə bilər.

## COP29-dan başlayan yeni mərhələ

Azərbaycanın qlobal ekoloji gündəlikdəki rolunu müəyyən edən əsas hadisələrdən biri məlumdur ki, COP29-a evsahibliyi oldu. Prezident İlham Əliyevin müraciətində vurğulandığı kimi, Azərbaycan COP29 dövründə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında dialoqun qurulmasında mühüm vasitəçi rolunu oynadı. "Bakı sıçrayışı" adlandırılan nəticələr iqlim diplomatiyasının tarixində mühüm mərhələ kimi qiymətləndirilməkdədir. COP29 Azərbaycanın beynəlxalq nüfuzunu artırmaqla yanaşı, ölkənin "yaşıl transformasiya" sahəsində liderlik iddiasını da gücləndirdi.

Bu proses COP29-un başa çatması ilə yekunlaşmadı. Sonrakı dövrdə Azərbaycanın evsahibliyi etdiyi Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası və qəbul edilən "Bakı Fəaliyyətə Çağırış" sənədi ölkəmizin dayanıqlı şəhərsalma və iqlimədavamlı yaşayış mühiti sahəsində də qlobal təşəbbüslərə töhfə verdiyini göstərdi.

Prezident İlham Əliyevin Ümumdünya Ətraf Mühit Günü münasibətilə müraciəti isə Azərbaycanın ekoloji siyasətinin fəlsəfəsini aydın şəkildə ortaya qoyur. Bu fəlsəfənin əsasında təbiətin qorunması ilə iqtisadi inkişafın uzlaşdırılması, milli maraqlarla qlobal məsuliyyətin birləşdirilməsi dayanır.

Çağdaş dünyamızda Azərbaycan yalnız öz ətraf mühitini qoruyan dövlət kimi deyil, həm də beynəlxalq ekoloji əməkdaşlığın fəal iştirakçısı kimi çıxış edir. "Yaşıl enerji" layihələri, biomüxtəlifliyin qorunması, su təhlükəsizliyi tədbirləri, Qarabağın "yaşıl dirçəliş"i və iqlim diplomatiyasındakı təşəbbüslər ölkəmizin gələcəyə baxışını əks etdirir. Nəzərə alsaq ki, müasir dövrdə dövlətlərin gücü təkcə iqtisadi göstəricilər və ya hərbi imkanlarla deyil, həm də planetin gələcəyinə verdiyi töhfə ilə ölçülür, Azərbaycanın seçdiyi bu yol məhz "yaşıl inkişaf", ekoloji məsuliyyət və dayanıqlı gələcəyə istiqamətlənib.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Aqrar sahə ikinci "yaşıl inqilab"ın astanasında

**Prezident İlham Əliyevin kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə səsləndirdiyi fikirlər, "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı verdiyi tapşırıq və tövsiyələr ölkənin aqrar sektoru ilə əlaqəsi olan hər kəs üçün fəaliyyət proqramıdır.**

Dövlətimizin başçısı çıxışında demişdir: "Kənd təsərrüfatının inkişafı üçün subsidiyaların böyük əhəmiyyəti var. Azərbaycan dünyada nadir ölkələrdəndir ki, genişmiqyaslı və çoxçeşidli subsidiya mexanizmlərini tətbiq edir. Müxtəlif güzəştlər verilir, o cümlədən gübrə, yanacaq güzəştləri. Deyə bilərəm ki, bu da dünyada nadir sayda olan ölkələrdə tətbiq edilir".

Azərbaycanda kənd təsərrüfatının modernləşdirilməsi istiqamətində mühüm addımlar atılır. "Ağıllı kənd" layihələri, müasir suvarma sistemləri və rəqəmsal texnologiyaların tətbiqi, çoxçeşidli subsidiyaların ayrılması aqrar sahənin inkişafına güclü təkan verir. Xüsusən Qarabağ və Şərqi Zəngəzur bölgələrində "ağıllı kənd" konsepsiyasının tətbiqi ikinci "yaşıl inqilab"ın elementləri kimi qiymətləndirilə bilər.

Məlumdur ki, kənd təsərrüfatı insan həyatının əsas dayaqlarındandır. Əhalinin sürətlə artması, iqlim dəyişiklikləri, su ehtiyatlarının azalması və ərzaq təhlükəsizliyi problemləri kənd təsərrüfatında yeni yanaşmaların tətbiqini zəruri etmişdir. Düzdür, XX əsrin ortalarında baş vermiş "yaşıl inqilab" dünyada ərzaq çatışmazlığının qarşısını almaqda mühüm rol oynadı. Lakin zaman keçdikcə yeni problemlər ortaya çıxdı və daha dayanıqlı, müasir texnologiyalara əsaslanan yeni mərhələ - ikinci "yaşıl inqilab" anlayışı formalaşdı.

Birinci "yaşıl inqilab" 1940-1970-ci illər arasında əsasən Asiya və Latın Amerikası ölkələrində həyata keçirilmiş kənd təsərrüfatı yenilikləri proqramı idi. Bu dövrdə yüksək məhsuldar toxum növləri yaradıldı, kimyəvi gübrə və pestisidlərdən istifadə genişləndi, suvarma sistemləri inkişaf etdirildi, kənd təsərrüfatı texnikaları tətbiq olundu. Bu dəyişikliklər nəticəsində buğda, düyü və qarğıdalı istehsalı əhəmiyyətli dərəcədə artdı, Hindistan və Meksikada aclıq təhlükəsinin azalmasına böyük təsir göstərdi. İkinci "yaşıl inqilab" kənd təsərrüfatında yalnız məhsuldarlığın artırılmasını deyil, həm də ekoloji tarazlığın qorunmasını, resurslardan səmərəli istifadəni və davamlı inkişafı hədəfləyir. Bu mərhələdə əsas rol müasir texnologiyalara və innovasiyalara verilir. İkinci "yaşıl inqilab"ın əsas xüsusiyyətləri aşağıdakılardır:

1. Rəqəmsal kənd təsərrüfatı: süni intellekt, peyk görüntüləri, dronlar və sensor sistemləri vasitəsilə torpağın vəziyyəti, rütubət səviyyəsi və məhsulun inkişafı izlənilir. Bu texnologiyalar fermerlərə daha dəqiq qərarlar verməyə kömək edir.

2. Biotexnologiya və gen mühəndisliyi: yeni bitki növləri yaradılaraq quraqlığa, xəstəliklərə və zərərvericilərə davamlı məhsullar əldə edilir. Bu isə həm məhsuldarlığı artırır, həm də kimyəvi maddələrdən istifadənin azalmasına şərait yaradır.

3. Su ehtiyatlarından səmərəli istifadə: damcı suvarma və "ağıllı suvarma" sistemləri vasitəsilə su itkisi minimuma endirilir. Bu, xüsusilə su çatışmazlığı olan bölgələr üçün böyük əhəmiyyət daşıyır.

4. Ekoloji davamlılıq: ikinci "yaşıl inqilab" torpaq eroziyasının qarşısının alınması, kimyəvi çirklənmənin azaldılması və biomüxtəlifliyin qorunması kimi məsələlərə xüsusi diqqət yetirir.

5. Aqrar innovasiyalar və startaplar: müasir dövrdə kənd təsərrüfatında fəaliyyət göstərən texnologiya şirkətləri yeni həllər təqdim edir. "Ağıllı istixana"lar, avtomatlaşdırılmış texnikalar və robot sistemləri istehsal prosesini daha effektiv edir.

İkinci "yaşıl inqilab"ın bir sıra mühüm üstünlükləri var: ərzaq istehsalının artması, kənd təsərrüfatında məhsuldarlığın yüksəlməsi, su və enerji resurslarına qənaət, ekoloji problemlərin azalması, fermerlərin gəlirlərinin artması, kənd yerlərində innovativ məşğulluğun yaranması. Bununla yanaşı, bəzi problemlər də mövcuddur: yüksək texnologiyaların baha olması, kiçik fermerlərin bu texnologiyalara çıxış imkanlarının məhdudluğu, geni dəyişdirilmiş məhsullarla bağlı narahatlıqlar, texnologiyadan həddindən artıq asılılıq.

Artıq kənd təsərrüfatında analoji dövr başa çatmış, sahə rəqəmsal erasına qədəm qoymuşdur. "Goldman Sachs" şirkətinin proqnozlarına görə, yeni nəsil texnologiyaların tətbiqi 2050-ci ilə qədər dünyada kənd təsərrüfatının məhsuldarlığını 70 faiz artırmağa imkan verəcək.

Ən az İT (informasiya texnologiyası) ilə əlaqəli sahə hesab edilən kənd təsərrüfatına artıq məlumatlar daxil olmağa başlamışdır. Bu məlumatlarla birlikdə BigData, DataScience, riyaziyyat, analitika, robototexnika və süni intellekt sahəsində mütəxəssislərə olan tələbat da artmaqdadır. Ümumiyyətlə, kənd təsərrüfatı proseslərinin maksimum dərəcədə rəqəmsallaşdırılması və avtomatlaşdırılması dünyanın aparıcı aqrarsənaye və maşınqayırma şirkətlərinin inkişaf strategiyalarında şüurlu bir zərurət kimi yer almaqdadır.

2010-cu ilə qədər dünyada kənd təsərrüfatı sahəsində yüksək texnologiyalarla məşğul olan şirkətlərin sayı 20-dən çox deyildi. Lakin 2013-2016-cı illər ərzində investorlar artıq 1300-dən çox yeni texnoloji startapa ümumilikdə 11 milyard dollardan çox sərmayə yatırmışlar. Nəticədə yeni bir investisiya seqmenti AgroTech (Aqrotexnologiyalar) formalaşmışdır və bu seqment 2014-cü ildə FinTech (Maliyyə texnologiyaları) sahəsini geridə qoymuşdur. Bununla yanaşı, ABŞ-dən başqa Kanada, Hindistan, Çin və İsrail də bu sahədə ciddi aktivlik göstərmişdir.

Kənd təsərrüfatı məhsullarının dəyər zəncirinin uzun olması və sahədə hələ də həllini tapmamış, lakin İT və avtomatlaşdırma vasitəsilə həll edilə biləcək çoxsaylı problemlərin mövcudluğu bu sahənin investisiya baxımından cəlbediciliyini əsaslandıran mühüm amillərdən biridir. Kənd təsərrüfatında əlavə dəyər zənciri iştirakçıların mürəkkəb strukturu ilə xarakterizə olunur və daha çox üfüqi xarakter daşıyır. Bundan əlavə, müxtəlif növ bitkilər və məhsullar özünəməxsus və çox zaman parçalanmış tədarük zəncirini formalaşdırır.

Kənd təsərrüfatı istehsalı ən həssas biznes sahələrindən biridir. Çünki hava şəraiti və təbii hadisələrdən ciddi şəkildə asılıdır. Ənənəvi istehsaldan fərqli olaraq, kənd təsərrüfatında bütün biznes proseslərini əvvəlcədən strukturlaşdırmaq mümkün deyil. Standart becərmə cədvəlləri (ümumi suvarma, gübrələmə, kimyəvi işləmə) yerli xüsusiyyətləri və təbii dəyişkənliyi nəzərə almır və bu da resursların artıq sərf edilməsinə və ya vaxtında aşkarlanmayacaq problemlərə səbəb olur. Quraqlıq və ya artıq rütubət, gübrələrin çatışmazlığı və ya normadan artıq olması, alaq otları, xəstəliklər və zərərvericilər dərhal müdaxilə tələb edir. Bitki xəstəliklərinin yayılması gözlənilmədən baş verə bilər və səbəbini müəyyənləşdirmək hər zaman asan olmur. Xəstəliyin gec aşkar olunması və düzgün idarə edilməməsi isə məhsulun bir hissəsinin itirilməsinə səbəb ola bilər.

Mövsüm ərzində fermer 40-dan çox müxtəlif qərar qəbul etməlidir: hansı toxumları əkəcəyini, nə zaman əkəcəyini, onları necə becərəcəyini, xəstələnmiş bitkini nə ilə müalicə edəcəyini və s. Qərar qəbuletmə üçün informasiya çatışmazlığı səbəbindən əkin, becərmə və bitkilərə qulluq proseslərində məhsulun 40 faizə qədəri itirilir. Məhsul yığımı, saxlanması və daşınması zamanı isə əlavə olaraq daha 40 faiz itki baş verir. Alimlərin müəyyən etdiyinə görə, bu itkilərin əsas səbəbi təkcə hava şəraiti deyil. Bu gün itkilərə təsir edən amillərin üçdəikisini avtomatlaşdırılmış idarəetmə sistemləri (Hi-Tech Management) vasitəsilə nəzarətdə saxlamaq mümkündür.

İT-nin vəzifəsi istehsal dövrünün bütün mərhələlərinin maksimum avtomatlaşdırılmasıdır ki, bu da itkilərin azaldılmasına, biznesin məhsuldarlığının artırılmasına və resursların optimal idarə olunmasına imkan verir. Lakin bu halda da nəticə yalnız məhsul yığmağa hazır bitkilərə və ya heyvanlara aiddir, amma gəlirin əldə olunmasına zəmanət vermir, çünki məhsulun hələ yığılması, saxlanması, ilkin emalı və alıcıya-istehlakçıya çatdırılması tələb olunur. Daha dərin avtomatlaşdırma daha yüksək səviyyədə rəqəmsal inteqrasiyanı nəzərdə tutur ki, bu da biznesdə mürəkkəb təşkilati dəyişiklikləri əhatə edir. Lakin bu dəyişikliklərin həyata keçirilməsi gəlir və məhsulun, eləcə də şirkətin rəqabət qabiliyyətinə köklü təsir göstərə bilər. Alınan məlumatların müxtəlif intellektual İT tətbiqləri ilə inteqrasiyası onların real vaxt rejimində emalını təmin etməklə fermer üçün qərar qəbulunda inqilabi dəyişiklik yaradır. Bu, çoxsaylı amillərin analizinin nəticələrini təqdim və gələcək addımlar üçün əsaslandırmanı təmin edir. Eyni zamanda şəbəkəyə daha çox sayda sensor, detektor və sahə nəzarətçisi qoşulduqca, məlumat mübadiləsi etdikcə informasiya sistemi daha ağıllı olur və istifadəçiyə daha faydalı məlumatlar təqdim etmək imkanı qazanır. Beləliklə, ilk dəfə olaraq fermer təbii amilləri nəzarətdə saxlamaq, dəqiq biznes prosesləri layihələndirmək və həmçinin nəticəni riyazi dəqiqliklə proqnozlaşdırmaq imkanına malik olur.

Heyvandarlıq sahəsində də çoxsaylı dəyişikliklər baş verir. Heyvandarlıq dövrünün uzunluğunu nəzərə alaraq genişləndirilmiş istehsal göstəricilərinin qabaqcıl təhlili sistemləri hazırlanır və tətbiq olunur. Bu, istehsal prosesinin insident əsaslı idarə edilməsindən proaktiv idarəetməyə keçid imkanı yaradır.

Beləliklə, ikinci "yaşıl inqilab" müasir dünyanın ərzaq təhlükəsizliyi və ekoloji problemlərinə cavab verən mühüm inkişaf mərhələsidir. Bu inqilab yalnız məhsuldarlığın artırılmasını deyil, həm də təbiətin qorunmasını və davamlı inkişafı əsas məqsəd hesab edir. Gələcəkdə texnologiyanın daha da inkişaf etməsi kənd təsərrüfatında yeni imkanlar yaradacaq və insanların həyat keyfiyyətinin yüksəlməsinə töhfə verəcək.

Əgər elm, innovasiya və fermer təhsili paralel inkişaf etsə, Azərbaycan da bu mərhələdə yalnız iştirakçı deyil, bəzi sahələrdə nümunə göstərən ölkələrdən birinə çevrilə bilər.

*Həsənəli ASLANOV,*
*ADAU-nun kafedra müdiri,*
*aqrar elmləri doktoru, professor*

# "Real Ermənistan" xəstə təfəkkürə qalib gəldi

**Ermənistan Mərkəzi Seçki Komissiyası iyunun 7-də keçirilən parlament seçkilərinin ilkin nəticələrini açıqlayıb. Məlum olub ki, Nikol Paşinyanın rəhbərlik etdiyi "Vətəndaş Müqaviləsi" Partiyası qalib gəlib.**



**Milli Məclisin deputatı Vüqar RƏHİMZADƏ** qəzetimizə açıqlamasında deyib ki, Ermənistanda keçirilən parlament seçkilərində Baş nazir Nikol Paşinyan və onun təmsil etdiyi partiyanın qalib gəlməsi təkcə daxili siyasi hadisə deyil, eyni zamanda bir sıra vacib məqamlarla qiymətləndirilə bilər. Bu nəticə Ermənistan cəmiyyətinin əhəmiyyətli hissəsinin qarşıdurma və revanşizm deyil, sabitlik, inkişaf və regional əməkdaşlıq yolunu seçdiyini göstərir. "Son illərdə Ermənistan rəhbərliyi Azərbaycanla münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün əldə olunması istiqamətində bir sıra addımlar atıb. Paşinyan dəfələrlə bəyan edib ki, regionun gələcəyi qarşılıqlı ərazi bütövlüyünün tanınması, sərhədlərin müəyyənləşdirilməsi və qonşularla normal münasibətlərin qurulmasından keçir. Seçkilərin nəticələri göstərir ki, Ermənistan cəmiyyətinin əksər hissəsi revanşistləri dəstəkləmir. Çünki uzun illər davam edən münaqişələr, iqtisadi çətinliklər və regional təcrid Ermənistan vətəndaşlarında daha təhlükəsiz və firavan gələcəyə ehtiyac hissini gücləndirib", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, sülh şəraitində sərhədlərin açılması, nəqliyyat-kommunikasiya xətlərinin bərpası və iqtisadi əlaqələrin genişlənməsi Ermənistan üçün yeni inkişaf imkanları yarada bilər. Paşinyan son çıxışlarında Ermənistan və Azərbaycan arasında sülhün artıq yeni bir reallıq yaratdığını, müharibənin siyasi alət kimi rədd edilməsinin region üçün dönüş nöqtəsi olduğunu vurğulayıb. O, iki xalq arasında düşmənçilik səhifəsinin bağlanmasının və mehriban qonşuluq münasibətlərinin qurulmasının vacibliyini qeyd edib. Bu baxımdan Paşinyanın seçki uğuru Ermənistan cəmiyyətinin əksər hissəsinin sülh və əməkdaşlıq ideyasına verdiyi dəstək kimi dəyərləndirilə bilər. Ölkə daxilində bu kursa qarşı çıxan qüvvələr, revanşistlər və fərqli baxışlar mövcuddur. Lakin seçkinin nəticələri göstərir ki, Ermənistan vətəndaşlarının əhəmiyyətli qismi gələcəyini yeni qarşıdurmalarda deyil, regionda sabitliyin və əməkdaşlığın möhkəmlənməsində görür.

V.Rəhimzadə bildirib ki, Ermənistanda Paşinyanın rəhbərlik etdiyi siyasi xəttin qalib gəlməsi Cənubi Qafqazda sülh gündəminin güclənməsi baxımından mühüm siyasi hadisədir: "Bu nəticə region xalqları arasında etimadın bərpası, iqtisadi inteqrasiyanın genişlənməsi və uzunmüddətli sabitliyin təmin olunması üçün yeni imkanlar yaradır. Azərbaycanla Ermənistan arasında yekun sülh müqaviləsinin imzalanması və regional təhlükəsizliyin təmin edilməsi üçün Ermənistan konstitusiyası dəyişdirilməlidir. Bu dəyişiklik nəticəsində Ermənistanın Müstəqillik Bəyannaməsində və əsas qanununda Azərbaycana qarşı yer alan ərazi iddiaları tam olaraq aradan qaldırılmalıdır".

Deputat xatırladıb ki, tarixi Zəfərimizdən dərhal sonra Azərbaycan regionda dayanıqlı sülhün və təhlükəsizliyin təmin edilməsi, Ermənistanla münasibətlərdə yeni səhifənin açılması üçün qarşı tərəfə sülh təklif edib. Lakin Ermənistan müxtəlif bəhanələrlə sülh müqaviləsinin imzalanmasından yayındı, prosesin uzanması üçün cəhdlər göstərdi və Azərbaycanın Qarabağ iqtisadi rayonunda müxtəlif hərbi təxribatlar törətdi. Bütün bunlara cavab olaraq 2023-cü il sentyabrın 19-da Azərbaycan Ordusu bölgədə lokal xarakterli antiterror tədbirlərinə başladı. Bir gün ərzində rəşadətli ordumuz qarşıya qoyulan hədəflərə yüksək səviyyədə nail oldu, bütün ərazilərimizdə suverenliyimiz tam bərpa edildi.

Deputat qeyd edib ki, Ermənistana sülh təklifinin edilməsi ölkəmizin humanist siyasətinin tərkib hissəsidir: "Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət döyüş meydanında qazanılan qələbənin uzaqgörən diplomatik səylərlə möhkəmləndirilməsinin vacibliyini bir daha sübut etdi. Dövlətimiz tarixi qələbə qazanmaq, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməklə yanaşı, həm də regionda yeni geosiyasi reallıq yaradaraq uzunmüddətli sülhün təməlini qoydu. Azərbaycan tarixi zəfərimizin reallıqlarının beynəlxalq səviyyədə təqdimatı və qəbul etdirilməsi istiqamətində səylər göstərdi və buna nail oldu. Ötən il avqustun 8-də Vaşinqtonda ABŞ, Azərbaycan və Ermənistan arasında Ağ Evdə keçirilən sülh sammiti tarixi əhəmiyyət daşımaqla Cənubi Qafqazda davamlı sülhün bərqərar olmasında yeni səhifə açdı. Bu görüş Azərbaycan və Ermənistan arasında sülh mətninin razılaşdırılması ilə əlamətdar oldu. Azərbaycanın müəllifi olduğu sülh gündəliyi Ermənistan tərəfindən qəbul edildi və yekun sülh mətni paraflandı".

V.Rəhimzadə bildirib ki, Azərbaycan hər zaman dünyaya sülh, təhlükəsizlik, əməkdaşlıq çağırışlarını edib və bunu sözdə deyil, əməldə təsdiqləyir. Yerləşdiyi coğrafi məkana görə ölkələri, xalqları bir araya gətirən Azərbaycan eyni zamanda beynəlxalq arenada qlobal problemlərin həllinə böyük töhfələr verən ölkə kimi tanınır. 44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib gələn Azərbaycan dünyada nüfuzu artan, regionda yeni reallıqlar yaradan, müstəqil, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş ölkədir. Azərbaycan dövləti və onun lideri regionda sülhün müəllifidir. "Sülh əlini uzadan tərəf olaraq Azərbaycan prosesin sürətlənməsi üçün, demək olar ki, bütün lazımi addımları atıb. İndi növbə Ermənistanda, parlament seçkilərində qalib gələn Paşinyanın üzərinə götürdüyü öhdəliklərin icrasıdır. Regionda sülhün müəllifi və təminatçısı Azərbaycandır. Ölkəmizin sülh quruculuğu prosesi dünya üçün nümunəvi modeldir", - deyə deputat əlavə edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# CNN-nin qərəzi

## Bu telekanalın Azərbaycanla bağlı irəli sürdüyü iddiaların heç bir əsası yoxdur

**CNN telekanalının Azərbaycandan guya İran əleyhinə hərbi və ya kəşfiyyat fəaliyyətlərində istifadə edilməsi, habelə İsrail qüvvələrinin Azərbaycan ərazisində yerləşdirilməsi ilə bağlı irəlü sürdüyü iddiaların heç bir əsası yoxdur. Rəsmi Bakı da bəyan edib ki, sözügedən iddialar əvvəllər də müxtəlif platformalarda səsləndirilib və hər dəfə rəsmi şəkildə rədd edilib. Məsələ burasındadır ki, Azərbaycanın mövqeyi məqalə dərc olunmazdan əvvəl CNN tərəfinə də təqdim edilib, lakin təəssüf ki, bu mövqe materialda lazımi şəkildə nəzərə alınmayıb. Diqqətçəkən məqam odur ki, məqalədə yer alan əsas ittihamlar anonim mənbələrə istinad edir. Halbuki belə məlumatların ciddi faktlarla və müstəqil təsdiqlərlə dəstəklənməsi vacibdir. Əks halda informasiyanın obyektivliyi və etibarlılığı ilə bağlı suallar yarana bilər.**



**Milli Məclisin deputatı Könül NURULLAYEVA** qəzetimizə açıqlamasında deyib ki, Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri bütün qonşu dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsidir: "Bu siyasət illərdir ki, ölkənin milli maraqlarının qorunmasına, regional sabitliyin möhkəmlənməsinə və beynəlxalq tərəfdaşlıq imkanlarının genişlənməsinə xidmət edir. İranla münasibətlər də məhz bu strateji yanaşmanın mühüm tərkib hissəsidir. Regionun həssas geosiyasi mərhələdən keçdiyi bir dövrdə bu cür dezinformasiyaların yayılması təsadüfi deyil. Son illərdə Azərbaycanın regional siyasətdə artan rolu, nəqliyyat və enerji layihələrinin genişlənməsi, həmçinin Yaxın Şərq və Cənubi Qafqaz arasında strateji əlaqələrin güclənməsi ölkəni beynəlxalq informasiya mübarizələrinin də hədəfinə çevirib. CNN-in qərəzli məqaləsi məhz bu kontekstdə dezinformasiya xarakteri daşıyır".

Deputat qeyd edib ki, bu gün İran ətrafında yaranmış gərginlik yalnız bir ölkənin problemi deyil, hər hansı genişmiqyaslı hərbi qarşıdurma regionun enerji təhlükəsizliyinə, nəqliyyat marşrutlarına, iqtisadi əlaqələrə, ümumilikdə beynəlxalq təhlükəsizlik mühitinə ciddi təsir göstərə bilər. Azərbaycan isə məhz sabitlik və təhlükəsizlikdən faydalanan ölkə kimi regionda gərginliyin artmasında deyil, onun qarşısının alınmasında maraqlıdır. Azərbaycanın İrana göstərdiyi humanitar yardım və dəstək rəsmi Tehran tərəfindən də yüksək qiymətləndirilib. "Azərbaycanın bu addımı ölkənin humanitar dəyərlərə sadiqliyini və regionda sabitlik, əməkdaşlıq və qarşılıqlı yardım prinsiplərinə önəm verdiyini nümayiş etdirir. Belə təşəbbüslər xalqlar arasında etimadın möhkəmlənməsinə, qarşılıqlı anlayışın artmasına və mehriban qonşuluq münasibətlərinin inkişafına töhfə verir. Qloballaşan informasiya məkanında media artıq yalnız xəbərləri çatdıran vasitə deyil, həm də ictimai rəyin formalaşmasına təsir göstərən mühüm aktordur. Bu səbəbdən beynəlxalq media qurumlarının təqdim etdiyi məlumatların yüksək peşəkarlıq standartlarına uyğun hazırlanması xüsusi əhəmiyyət daşıyır. İddiaların dərcindən əvvəl bütün tərəflərin mövqeyinin balanslı şəkildə təqdim olunması jurnalistikanın fundamental prinsiplərindən biridir", - deyə o əlavə edib.

K.Nurullayeva bildirib ki, Azərbaycan heç vaxt öz ərazisinin hər hansı üçüncü dövlətə qarşı hərbi və ya kəşfiyyat məqsədləri üçün istifadə edilməsinə imkan verməyib və bundan sonra da verməyəcək. Bu qərəzli mövqe onu göstərir ki, dövlətlərin beynəlxalq imicinə təsir edən məlumatların yayılmasında məsuliyyət, obyektivlik və faktlara söykənmək əsas şərtdir. Bu baxımdan ortaya atılan iddiaların şəffaf araşdırılması və bütün tərəflərin mövqeyinin nəzərə alınması həm media etikası, həm də beynəlxalq etimadın qorunması baxımından vacibdir.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Erməni xalqının seçimi - "böyük" yox, real Hayastan

**Son illər Cənubi Qafqaz tarixinin ciddi dəyişikliklər dövrünü yaşayır. Uzun müddət davam edən hərbi qarşıdurmalar və geosiyasi rəqabət regionun inkişaf potensialını məhdudlaşdırmışdı. Amma 2020-ci il sentyabrın 27-də başlanan, Azərbaycanın Zəfəri ilə yekunlaşan müharibə bölgədə yeni reallıq yaratdı və bu reallıq təkcə ölkəmiz üçün deyil, Ermənistan üçün də siyasi düşüncənin istiqamətini dəyişməyə başladı. Ermənistanda keçirilən son parlament seçkilərinin nəticələri də məhz bu dəyişən reallığın siyasi müstəvidə növbəti təsdiqi kimi qiymətləndirilə bilər.**



2018-ci ildə küçə yürüşlərindən hakimiyyətə gələn Nikol Paşinyan Ermənistan cəmiyyətinə yeni siyasi kurs vəd etmişdi. O dövrdə bir çoxu onun əvvəlki hakimiyyətlərdən fərqli siyasət yürüdəcəyini düşünsə də, sonrakı hadisələr N.Paşinyanın da Ermənistanın uzun illər ərzində formalaşmış siyasi stereotiplərindən tam uzaqlaşa bilmədiyini göstərdi. O, hətta hakimiyyətini möhkəmləndirmək üçün ən riskli addımlardan biri olan hərbi avantüraya da əl atdı. Nəticədə Ermənistan Azərbaycanla müharibəyə sürükləndi və bu savaş Hayastanın tarixində ağır siyasi və hərbi məğlubiyyətlərdən biri ilə başa çatdı.

Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfər yalnız işğala son qoymadı, bu qələbə regionun siyasi xəritəsini, güc balansını və gələcəyə baxışını da dəyişdirdi. Əslində, Ermənistanın bu gün gəlib çatdığı nöqtənin əsas səbəblərindən biri də məhz Azərbaycanın yaratdığı həmin geosiyasi reallıqdır. Çünki 44 günlük Vətən müharibəsindən sonra bölgədə köhnə qaydalarla yaşamaq mümkün deyildi.

Diqqətçəkən məqamlardan biri də odur ki, Azərbaycan qalib dövlət olmasına baxmayaraq, müharibədən dərhal sonra revanşizm və təzyiq yolunu seçmədi. Əksinə, Prezident İlham Əliyev dəfələrlə vurğuladı ki, regionun gələcəyi iki ölkə arasında əməkdaşlıqdan, iqtisadi inteqrasiyadan və davamlı sülhdən keçir. Azərbaycanın irəli sürdüyü beş əsas prinsipə söykənən sülh təşəbbüsü Ermənistan üçün yeni imkanlar yaratdı. Belə siyasətin əsas məqsədi qarşı tərəfi məğlub edilmiş dövlət kimi deyil, gələcək regional əməkdaşlığın iştirakçısı kimi görmək idi.

Bu baxımdan Ermənistanda keçirilən parlament seçkilərinin nəticələrini yalnız daxili siyasi hadisə kimi qiymətləndirmək düzgün olmazdı. Seçkilər, əslində, Ermənistan cəmiyyətinin qarşısında duran fundamental seçimin göstəricisi idi - ya keçmişin müharibə və qarşıdurma siyasəti, ya da gələcəyin sülh və inkişaf yolu.

Nikol Paşinyanın seçkilərdən sonra verdiyi bəyanatlar da bunu təsdiqləyir. Onun Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşdırılmasının vacibliyini vurğulaması, sülh müqaviləsinin imzalanmasının zəruriliyini qeyd etməsi, sərhədlərin açılması və regional əməkdaşlıq barədə danışması təsadüfi deyil. Bu bəyanatlar Ermənistanın yeni geosiyasi reallığı qəbul etməsini göstərir. Lakin burada bir vacib məqamı da unutmaq olmaz. N.Paşinyanın sülh ritorikası onun siyasi keçmişini və məsuliyyətini aradan qaldırmır. Məhz onun rəhbərliyi dövründə Azərbaycanın Gəncə, Bərdə, Tərtər və digər yaşayış məntəqələri raket hücumlarına məruz qalmış, mülki əhali hədəf seçilmişdi. Bu faktlar tarixdən silinməməli və unudulmamalıdır. Eyni zamanda Ermənistan hələ də taleyi məlum olmayan minlərlə azərbaycanlı əsir və girov barədə tam məlumat verməyib.

Digər tərəfdən N.Paşinyan hakimiyyəti son illər Ermənistanın iqtisadi vəziyyətini müəyyən qədər sabitləşdirməyə, beynəlxalq münasibətlərdə daha çevik siyasət yürütməyə nail olub. Baş nazir Avropa İttifaqı, Rusiya və digər tərəfdaşlarla paralel əlaqələr saxlayaraq ölkənin iqtisadi imkanlarını genişləndirməyə çalışıb. Xarici aləmdə demokratiya görüntüsünün formalaşdırılması istiqamətində də müəyyən addımlar atılıb.

Bu mövqenin Ermənistan cəmiyyətində hansı səviyyədə dəstək qazandığını parlament seçkilərinin nəticələri də nümayiş etdirir. Ermənistan Mərkəzi Seçki Komissiyasının dünən günorta saatlarına açıqladığı məlumatlarına əsasən, 105 yerlik parlamentdə Baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi "Vətəndaş Müqaviləsi" Partiyası 61 mandat qazanaraq birinci olub. Digər mandatlar isə "Güclü Ermənistan" blokuna 28, "Ermənistan" blokuna 11, "Çiçəklənən Ermənistan" Partiyasına isə 5 yer olmaqla bölüşdürülüb. Bu nəticə N.Paşinyana hökuməti yenidən təkbaşına formalaşdırmaq imkanı verir. Çünki Ermənistan qanunvericiliyinə əsasən, 105 nəfərlik parlamentdə hökumət qurmaq üçün minimum 53 mandat tələb olunur. Hakim partiya isə 61 yer qazanıb. Amma bu, N.Paşinyanın əvvəlki seçkilərdə əldə etdiyi mandatların sayından azdır. Bu isə onun parlamentdəki mütləq üstünlüyünü itirməsi deməkdir.

Məsələ ondadır ki, Ermənistanın siyasi idarəetmə sistemində bir sıra strateji qərarların qəbulu və mühüm dövlət vəzifələrinə təyinatlar üçün sadə səs çoxluğu kifayət etmir. Konstitusiyaya görə, bəzi hallarda parlamentdə ən azı beşdəüç səs çoxluğu tələb olunur. Bu isə 105 nəfərlik parlamentdə 63 mandat tələb edir. Hakim partiyanın isə, qeyd etdiyimiz kimi, 61 mandatı var. Başqa sözlə, N.Paşinyan bundan sonra bir sıra mühüm məsələlərdə əvvəlki kimi təkbaşına qərar vermək imkanına malik olmayacaq. Söhbət baş prokurorun, Mərkəzi Seçki Komissiyasının rəhbərliyinin, Konstitusiya Məhkəməsi hakimlərinin, insan hüquqları müvəkkilinin, Mərkəzi Bank sədrinin, Televiziya və Radio Şurası üzvlərinin, eləcə də Hesablama Palatasının rəhbərliyinin müəyyənləşdirilməsi kimi strateji postlardan gedir. Bu vəzifələr üzrə qərarların qəbulunda hakim qüvvə əlavə səslərə ehtiyac duyacaq. Belə vəziyyət N.Paşinyanı parlament daxilində daha çox siyasi dialoqa, kompromislərə və müxtəlif qüvvələrlə əməkdaşlığa sövq edən yeni siyasi reallıq yaradır. Təbii ki, bunlar son və rəsmi rəqəmlər deyil. Odur ki, bir neçə gün gözləməli olacağıq.

Diqqətçəkən başqa bir məqam seçkilərdən sonra Ermənistan rəhbərliyinin verdiyi mesajlardır. Nikol Paşinyan çıxışında Ermənistan xalqının sülhə, regional rifaha və əməkdaşlığa üstünlük verdiyini bildirərək Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşdırılmasının rəsmi İrəvan üçün prioritet olaraq qaldığını bəyan edib. O, xüsusilə vurğulayıb ki, Azərbaycanla sülh müqaviləsinin mətni artıq razılaşdırılıb və növbəti mərhələ onun imzalanması olmalıdır. Türkiyə ilə münasibətlərə toxunan N.Paşinyan sərhədlərin açılması və normallaşma prosesində yeni irəliləyişlərə ümid etdiyini də qeyd edib.

Əslində, bütün bunlar onu göstərir ki, Ermənistanın köhnə və yeni siyasi rəhbərliyi regionda yaranmış yeni geosiyasi reallıqları artıq əvvəlkindən daha aydın dərk edir. Çünki bu gün Ermənistanın iqtisadi inkişafı, regional layihələrə qoşulması və beynəlxalq əlaqələrin genişlənməsi böyük ölçüdə qonşu dövlətlərlə münasibətlərin normallaşmasından və davamlı sülhün təmin olunmasından keçir.

Ancaq bütün bunlar Ermənistan daxilində və xaricində fəaliyyət göstərən revanşist qüvvələrin tam sıradan çıxması anlamına gəlmir. Əksinə, müəyyən dairələr hələ də bölgədə yeni qarşıdurma yaratmaq arzusundan əl çəkməyiblər. Ermənistanın sürətlə silahlanması, yeni hərbi texnologiyalar əldə etməsi və ordunun modernləşdirilməsi də diqqətlə izlənilməli olan proseslərdir. Məhz buna görə Ermənistanda hansı siyasi qüvvənin hakimiyyətdə olmasından asılı olmayaraq, Azərbaycan öz milli təhlükəsizlik maraqlarını daim prioritet saxlayır. Çünki məsələ ayrı-ayrı siyasətçilərin deyil, uzun illər formalaşmış siyasi düşüncə modelinin dəyişməsindən gedir.

Bununla belə son seçkilərin ən mühüm nəticəsi Ermənistan cəmiyyətinin əhəmiyyətli hissəsinin sülhə üstünlük verməsidir. İnsanlar artıq yeni müharibələr deyil, sabitlik, iqtisadi inkişaf, açıq sərhədlər, beynəlxalq layihələrdə iştirak və normal gələcək istəyirlər. Bu isə region üçün müsbət siqnaldır.

Əslində, bu gün Ermənistanın qarşısında başqa real alternativ də yoxdur. Hətta seçkilərdə revanşist mövqeyi ilə tanınan siyasi qüvvələr qalib gəlsəydilər belə onlar da sonda Azərbaycanla razılaşmaq məcburiyyətində qalacaqdılar. Çünki bölgədə formalaşmış yeni güc balansı, Azərbaycanın siyasi, iqtisadi və hərbi imkanları, beynəlxalq nüfuzu və regional təşəbbüsləri bunu qaçılmaz edir. Bu mənada Ermənistanda keçirilən seçkilərin nəticələrini Azərbaycanın yaratdığı yeni regional reallığın növbəti təsdiqi kimi qiymətləndirmək mümkündür. Bu həm də onu göstərir ki, uzun illər separatizm, ərazi iddiaları və düşmənçilik üzərində qurulmuş siyasət artıq öz resurslarını tükəndirib.

Lakin qarşıda hələ mühüm mərhələlər var. Sülh sazişinin imzalanması, sərhədlərin tam delimitasiyası, kommunikasiyaların açılması, Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarını ehtiva edən müddəaların çıxarılması və qarşılıqlı etimadın formalaşdırılması prosesin vacib tərkib hissələridir.

Bu gün Cənubi Qafqaz yeni tarixi mərhələnin astanasındadır. Onun adı müharibə deyil, əməkdaşlıqdır, qarşıdurma deyil, inteqrasiyadır, təcrid deyil, inkişafdır. Ermənistanda keçirilən son seçkilər də göstərdi ki, region xalqları üçün ən real və ən rasional yol məhz budur.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*



# Müasir dünya nizamında Azərbaycan reallığı

## Regional sabitliyin və qlobal siyasi-iqtisadi tərəfdaşlığın gələcək xəritəsi ölkəmizin iştirakı ilə cızılır

**Beynəlxalq münasibətlər sistemi geosiyasi qırılma, çoxqütblülük və güc mərkəzlərinin amansız rəqabəti mərhələsini yaşayır. Ənənəvi hüquqi mexanizmlərin effektivliyini itirdiyi, supergüclər arasında təsir dairələri uğrunda mübarizənin kəskinləşdiyi və strateji coğrafiyalarda təhlükəsizlik arxitekturasının sarsıldığı müasir dünya nizamı dövlətlərdən çevik, qətiyyətli və milli maraqlara söykənən xarici siyasət yürütməyi tələb edir. Belə mürəkkəb tarixi dövrdə Azərbaycan regional proseslərin axarını dəyişən və qlobal miqyasda söz sahibi olan müstəqil güc mərkəzinə çevrilməkdədir.**

Azərbaycanın müasir xarici siyasi kursunun uğurunun fundamental səbəbi hər hansı qlobal qütbün diktəsindən uzaq, tamamilə suveren qərarlara əsaslanan müstəqil siyasət yürütməsidir. Bu model Şərqlə Qərb, Şimalla Cənub arasında dayanıqlı balans yaratmaqla yanaşı, ölkəmizin beynəlxalq arenada manevr imkanlarını maksimum dərəcədə genişləndirib.

Müstəqilliyin ilk illərində ağır daxili böhranlar və xarici hərbi təcavüzlə üzləşən bir dövlətdən Avrasiya məkanının mühüm geoiqtisadi və logistik mərkəzinə çevrilən Azərbaycan öz milli qüdrətini hərbi-siyasi sferada qazandığı tarixi qələbələrlə tam bərpa edib. Suverenliyimizin tam təmini ilə nəticələnən proseslər Azərbaycanın beynəlxalq hüququ təkbaşına təmin edə biləcək regional liderlik potensialını bütün dünyaya göstərdi.

Bu gün rəsmi Bakının yürütdüyü aktiv diplomatiya təkcə ənənəvi karbohidrogen resursların daşınması və qlobal enerji təhlükəsizliyinin sığortalanması ilə məhdudlaşmır. Eyni zamanda Qoşulmama Hərəkatına uğurlu sədrlik, Türk Dövlətləri Təşkilatının aparıcı aktorlarından birinə çevrilmək, COP29 və WUF13 kimi mötəbər tədbirlərə evsahibliyi etmək Azərbaycanın qlobal nüfuzunun keyfiyyətcə yeni mərhələyə keçdiyini göstərir. Vaşinqtondan Pekinə, Brüsseldən Moskvaya qədər bütün dövlətlər iqtisadi bağlantıların məhz Azərbaycanın iştirakı ilə formalaşdığı reallığını qəbul edirlər.

Ölkəmizin qlobal gücünün artması, sadəcə, iqtisadi göstəricilərin yox, həqiqi müstəqilliyin, sarsılmaz siyasi iradənin, uzaqgörən liderliyin və strateji zəkanın praktiki zəfəridir. Xüsusən beynəlxalq arenadakı real mənzərə dövlət suverenliyinin və siyasi iradənin nə qədər önəmli olduğunu ortaya qoyur. Müasir dünyada formal müstəqilliklə real suverenlik arasındakı sərhəd dövlətin öz taleyini sərbəst şəkildə təyin edə bilməsindən keçir.

Bu kontekstdə Prezident İlham Əliyevin mayın 28-də Şuşa rayonunun Böyük Qaladərəsi kəndində sakinlərlə görüşündə dünyaya bəyan etdiyi fikirlər Azərbaycanın milli dövlətçilik doktrinasının əsas manifesti sayılır. Dövlətimizin başçısı Qarabağda vurğuladı ki, əsl müstəqillik o vaxt olur ki, ölkə müstəqil siyasət apara bilsin: "Bax, Azərbaycan o ölkələrdəndir. İndi dünyada 200-ə yaxın müstəqil ölkə var. Amma demək olmaz ki, onların hər biri doğrudan da müstəqildir. Biz, sözün əsl mənasında, müstəqil dövlətik. Çünki öz taleyimizi özümüz həll edirik, siyasətimizi heç kimə baxmadan xalqın, dövlətin naminə, milli maraqların qorunması əsasında aparırıq. Buna görə də dünyada böyük şöhrət qazanmışıq. Baxmayaraq ki, torpaqlarımız uzun illər erməni işğalı altında idi, hətta o vaxt müstəqil siyasət apararaq böyük hörmət qazanmışıq dünyada. Əlbəttə ki, İkinci Qarabağ müharibəsi və ondan üç il sonra antiterror əməliyyatı, bizim Şanlı Zəfərimiz ölkəmizin, xalqımızın nüfuzunu dünyada daha da artırmışdır".

Prezident İlham Əliyevin fikirləri beynəlxalq münasibətlər sisteminin reallığını üzə çıxarmaqla yanaşı, eyni zamanda Azərbaycanın dövlətçilik fəlsəfəsini ortaya qoyur. BMT-də bayrağı dalğalanan elə ölkələr var ki, onların daxili və xarici siyasətini, iqtisadi addımlarını, hətta kiminlə dost-düşmən olacağını belə qlobal güc mərkəzləri müəyyənləşdirir. Azərbaycan isə tam müstəqil siyasət həyata keçirir və bütün qərarlarını özü verir. Adətən ərazisi işğal edilmiş, qaçqın və köçkün problemi yaşamış ölkələr xarici təzyiqlərə qarşı daha həssas və zəif olurlar. Rəsmi Bakı hətta ən çətin dönəmlərdə belə öz prinsiplərindən zərrə qədər güzəştə getməyib. Məhz bu qətiyyətli mövqe Azərbaycana fərqli hörmət və xüsusi siyasi çəki qazandırıb.

Mürəkkəb beynəlxalq şəraitdə Azərbaycan ənənəvi etibarlı tərəfdaş imicini daha da gücləndirir. Bakıda keçirilən qlobal miqyaslı forumlar ölkəmizin artan nüfuzunu, eyni zamanda karbohidrogen və "yaşıl enerji" diplomatiyasının əsas mərkəzlərindən biri olduğunu təsdiqləyir. İyunun 1-3-də paytaxtımızda keçirilən "Bakı Enerji Həftəsi" Azərbaycanın geoiqtisadi strategiyasını yeni zirvəyə daşıdı.

Prezident İlham Əliyev "Bakı Enerji Həftəsi"nin açılış mərasimində ölkəmizin əldə etdiyi uğurları sadalamaqla kifayətlənmədi, həmçinin yenidən formalaşan qlobal resurs arxitekturasında Azərbaycanın yüksələn siyasi və iqtisadi çəkisini dünyaya bəyan etdi: "Bu gün Avropa enerji bazarının "Cənub qaz dəhlizi" olmadan necə olacağını təsəvvür etmək çətindir. Qeyd etdiyim kimi, biz sayı artmaqda olan ölkələri qazla təchiz edirik. Keçən il burada - "Bakı Enerji Həftəsi"ndə mən auditoriyaya məlumat verdim ki, Azərbaycan qazını 12 ölkə alır. Bu gün onların sayı 16-dır və onlardan 10-u Avropa İttifaqına üzv olan ölkələrdir. Bu ölkələrin sayı, əlbəttə ki, artacaqdır. Boru xətti ilə qazın müxtəlif ölkələrə nəql edilməsi, ərazi və coğrafiya kimi parametrlərə baxsanız görərsiniz ki, biz dünyada birinciyik. Biz qaz təchizatımızı artıracağıq".

Dövlətimizin başçısının bəyanatları təsdiqləyir ki, qlobal miqyasda tərəfdaşlığın genişlənməsi, regional sabitliyin qorunması və beynəlxalq enerji təhlükəsizliyinin təmini Bakı üçün fundamental əhəmiyyət kəsb edir. Azərbaycan balanslaşdırılmış xarici siyasəti sayəsində qonşularla etimada söykənən münasibətlər quraraq geosiyasi maneələri aşmağı bacarıb. Ölkəmiz bir tərəfdən yüzillik karbohidrogen ehtiyatları ilə ənənəvi bazarları sığortalayır, digər tərəfdən 2032-ci ilə qədər bərpaolunan enerji gücünü 8 giqavata çatdıraraq "yaşıl keçid" layihələrini siyasi prioritet edir.

"Bakı Enerji Həftəsi"nə dünyanın supergüclərinin rəhbərlərinin ünvanladıqları məktublar da Azərbaycanın qlobal güc mərkəzləri tərəfindən aparıcı siyasi aktor kimi qəbul edilməsinin göstəricisidir. Forum çərçivəsində ABŞ, Türkiyə, Serbiya, San-Marino və Fransa kimi müxtəlif ölkələrin qabaqcıl şirkət və qurumları ilə imzalanan 7,5 milyard dollarlıq müqavilələr, memorandumlar beynəlxalq maliyyə institutlarının Azərbaycanın uzunmüddətli sabitliyinə olan etimadını nümayiş etdirir. Sazişlərin siyasi və strateji əhəmiyyəti onun coğrafiyası və əhatə dairəsi ilə bağlıdır.

Bu gün dövlətimiz həm resurs istehsalçısı, həm əvəzolunmaz tranzit mərkəzi, həm də qlobal enerji təhlükəsizliyinin təminatçısı kimi beynəlxalq münasibətlər sistemində özünəməxsus yerə sahibdir. Yeni nizamda hər kəs bir reallığı qəbul etmək məcburiyyətindədir. Regional sabitliyin və qlobal tərəfdaşlığın gələcək xəritəsi məhz Azərbaycanın gücü və imzası ilə cızılır. Dünya gücləri Azərbaycanı qlobal böhranların həllində mühüm strateji tərəfdaş kimi qəbul edirlər. Bu uğurlar atılan uzaqgörən addımların, xalq-dövlət birliyinin və ən çətin sınaqlarda belə prinsiplərdən geri addım atmayan lider qətiyyətinin bəhrəsidir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Yeni "orta güc" aktoru

**Azərbaycan Prezidenti İlham Əliyev 2026-cı il mayın 25-də kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədəki çıxışında Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayının ildən-ilə artdığını bəyan etmişdir. Dövlət başçısı ifadə etmişdir: "Bizim dünya miqyasında çox yüksək reputasiyamız var, çox müsbət imicimiz var. Azərbaycan artıq dünyada "orta güc"ə malik olan dövlət kimi tanınır və bir çox ölkələrin şirkətləri müxtəlif sahələrdə bizimlə əməkdaşlıq etmək istəyirlər".**

Ölkə rəhbəri bu fikri, əlbəttə, konkret faktlar, göstəricilər, Azərbaycanın daxili və xarici siyasətinin rasional arqumentlərə söykənən dərin təhlili əsasında söyləmişdir. Eyni zamanda dünyanın qlobal güclərinin, BMT üzvlərinin, çoxlu sayda ölkələrin gəldikləri ümumi qənaət və dəqiq meyarlar üzrə qiymətləndirmələri nəzərə alınmışdır.

"Orta güc" kimi vacib status bütün hallarda dövlətin fəaliyyətinin praktiki nəticələrinə əsaslanır. Məsələn, Türkiyə, İsrail, Braziliya, Hindistan, İndoneziya və ya Misirin "orta güc" statusu konkret sosial, siyasi, iqtisadi və digər göstəricilərə görə qiymətləndirilir. Azərbaycan isə müstəqilliyini XX əsrin 90-cı illərində sovetlərin dağılması ilə əldə etdiyindən və kifayət qədər ciddi problemləri həll etmək məcburiyyətində qaldığından onun da tarixi baxımdan çox qısa bir müddətdə "orta güc" statusuna yüksəlməsi olduqca əhəmiyyətli hadisədir. Burada dövlətimiz öz liderinin fəaliyyəti sayəsində həm ərazi bütövlüyünü bərpa etməli, həm də sosial-iqtisadi, geosiyasi, ideoloji, nüfuzetmə miqyası, təhlükəsizlik və digər vacib sferalarda elə uğurlar əldə etməli idi ki, yeni "orta güc" nümunəsi kimi qəbul edilsin. Azərbaycan Prezidentinin liderliyi ilə dövlət, ölkə və cəmiyyət buna nail oldu.

### "Orta güc" dövləti anlayışı

Biz elmi ədəbiyyatda istifadə edilən təsniflər üzrə dövlətin "orta güc" kimi ümumi xüsusiyyətlərini nəzərdən keçirəcəyik. Birincisi, "orta güc" dövləti qlobal hərbi və nüvə iddialarına görə fövqəldövlətlərdən sonra gəlir. İkincisi, əhəmiyyətli iqtisadi və logistik təsirlərə malikdir. Burada sadalanan hər bir sahə və ya onların bir qismi həlledici rol oynaya bilər. Əsas odur ki, praktikada dövlət "orta güc" səviyyəsində təsiretmə qabiliyyətinə və lazımi nüfuza malik olsun. Üçüncüsü, "orta güc" öz regionunda siyasi gündəmi müəyyən edə bilməlidir. Dördüncüsü, regionda sərt qarşıdurmaları aradan qaldırmaq üçün balans yaratmalıdır.

Buradan "orta güc"ü xarakterizə edən ümumi faktorlar haqqında nəticə hasil olur. Birincisi, regional liderlik, yəni həm öz sərhədlərindəki hadisələrə təsir edə bilmək, həm də qlobal güclərin müdaxiləsinə mane olmaq qüdrətidir. İkincisi, çevik diplomatiya, yəni çoxvektorlu siyasətə, fövqəladə vəziyyətlərdə koalisiyalar yaratmaq qabiliyyətinə, vasitəçi ola bilmək imkanlarına malik olmaqdır. Üçüncüsü, iqtisadi praqmatizm, başqa sözlə desək, beynəlxalq ticarətdə, nəqliyyat dəhlizlərində və enerji layihələrində aktiv iştirakdır.

Vurğulanan meyarlar üzrə Azərbaycan "orta güc" kimi qiymətləndirilir. Bu zaman Azərbaycanın müstəqil geosiyasi kurs həyata keçirməsi və Avropa ilə Asiyanı birləşdirən enerji və nəqliyyat qovşağı olması xüsusi qeyd edilir. Ancaq Azərbaycanın "orta güc" modelinin vurğulanan faktorlarla yanaşı, başqa güclü tərəfləri də mövcuddur. Biz onların üzərində dayanacağıq.

Qeyd edilən meyarlar kontekstində "orta güc" dövləti geniş geosiyasi məkanda əməkdaşlıq şəbəkəsinin yaradılmasında iştirak etməlidir. Qlobal miqyasda sabitləşdirici rol oynamalıdır. Fraqmentləşmənin qarşısını almaqda fəal olmalıdır. Öz milli maraqlarını gözləməklə fövqəlgüclərin sərt hegemonluğunun qarşısını almalıdır.

Belə görünür ki, müasir mərhələdə "orta güc" dövləti bir neçə xüsusiyyətə malik olmalıdır. Bununla yanaşı, onların hər birinin özünəxas üstünlükləri də vardır. Azərbaycan üçün bu xüsusiyyətləri aydınlaşdırmaq çox vacibdir. Bu halda ölkəmizin "orta güc" perspektivlərinə aydınlıq gətirmək olar.

### Ümumi əlamətlər

Əlbəttə, Azərbaycanın "orta güc" kimi ümumi və dolğun qiymətləndirilməsini Prezident İlham Əliyev vermişdir. Dövlətimizin başçısı ölkənin "yüksək reputasiyası" və "çox müsbət imici"ni vurğulayır. Bunlar yeni "orta güc" nümunəsi üçün çox vacib xüsusiyyətlərdir. Çünki müasir dünyada "orta güc" dövləti hər şeydən əvvəl qlobal miqyasda elə nüfuz sahibi olmalıdır ki, dünya üçün kritik sayılan situasiyalarda vəziyyəti müsbətə doğru dəyişə bilsin.

Azərbaycan bu anlamda yüksək reputasiyasını 2025-ci ilin avqustunda Vaşinqtonda əldə olunan razılaşmalar, sülh istiqamətində atılan qətiyyətli addımlarla nümayiş etdirdi. Həmin yüksək reputasiyanın nəticəsidir ki, ABŞ Ermənistanla Zəngəzur dəhlizi/TRIPP layihəsi çərçivəsində strateji tərəfdaşlıq haqqında çərçivə sazişini paraflamışdır - bu, Azərbaycana yüksək etimadın mövcudluğu ilə mümkün ola bilərdi.

Digər tərəfdən, yüksək reputasiya və çox müsbət imic sayəsində ABŞ-nin regiona yönəlik siyasəti faktiki olaraq daha geniş geosiyasi məkanı əhatə etməyi hədəfləmişdir. Yəni, əslində, Ermənistan Azərbaycanın yüksək reputasiyası və çox müsbət imicinə görə regionlararası əməkdaşlıq, təhlükəsizlik və nəqliyyat-logistika istiqamətləri üzrə layihələrdə iştirak edə biləcəyinə əmindir. Maraqlıdır ki, prinsipial məqamlarda rəsmi İrəvan Azərbaycanın diplomatik təsirinə də çox inanır. Nümunə olaraq son zamanlar Ermənistanda baş qaldıran revanşistlərə Prezident İlham Əliyevin xəbərdarlığının verdiyi səmərəni göstərə bilərik: orada sakitləşənlər oldu!

Buradan dövlət başçısının Azərbaycanı "orta güc" olaraq qiymətləndirməsində mühüm yer tutan tezis formalaşır: "bir çox ölkələrin şirkətləri müxtəlif sahələrdə bizimlə əməkdaşlıq etmək istəyirlər". Əlbəttə, bu istəyin təməlində həmin ölkələrin özlərinin Azərbaycanla əməkdaşlıq etmək arzusu və niyyəti dayanır. Yəni artıq Azərbaycan "orta güc"ə malik olan dövlət kimi praktiki nəticələr verən imkanlara malikdir.

Xarici şirkətlərin Azərbaycanla ciddi qlobal geosiyasi risklərin mövcudluğu şəraitində işləmək istəyi, faktiki baxımdan etimad, inam və etibarla yanaşı, dövlətimizin perspektivlərinin də qəbulunu ifadə edir. Azərbaycanın liderinin verdiyi hər bir sözə əməl etməsi və konkret layihələri həyata keçirməsi bunun sübutudur. Bu tezislərin işığında daha konkret səviyyədə Azərbaycanın "orta güc" özəlliklərinə nəzər salaq.

### Azərbaycanın yeni "orta güc" modeli

Azərbaycan Prezidentinin müəyyən etdiyi ümumi prinsiplərin müxtəlif aspektlərini dövlət strukturlarında mühüm yer tutan şəxslər izah edirlər. Azərbaycanın "orta güc" kimi oynadığı rolun ifadəsi bu sıradandır. Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev məqalələrinin birində vurğulamışdır: "Bu gün Azərbaycan öz iqtisadi, siyasi, diplomatik, hərbi və mədəni potensialını daha da inkişaf etdirərək Cənubi Qafqazın lider ölkəsi, siyasi və iqtisadi mərkəzinə, Avrasiya məkanının yeni orta güc aktoruna çevrilmişdir. Azərbaycan öz sözünü deyən, mövqeyini qətiyyətlə müdafiə edən, çoxsaylı dostları və tərəfdaşları ilə regionun və dünyanın yeni enerji, nəqliyyat xəritəsini cızan, COP29 kimi nəhəng tədbirləri yüksək səviyyədə keçirən və qlobal problemlərin həllinə dəyərli töhfələr verən dövlət kimi beynəlxalq arenada böyük nüfuz sahibidir".

Aydındır ki, bu fikirlərdə Azərbaycan Prezidentinin ölkəmizin "orta güc" kimi qiymətləndirilməsinin yüksək reputasiya, çox müsbət imic və bir çox ölkələrin şirkətlərinin onunla əməkdalığa can atmasının müəyyən aspektləri açılır. Burada birinci məqam ondan ibarətdir ki, Azərbaycan Cənubi Qafqazın lider ölkəsi kimi öz iqtisadi, siyasi, diplomatik, hərbi və mədəni potensialını daha da inkişaf etdirməkdədir və bu, "orta güc" aktorluğuna ciddi təkan verməkdədir.

İkinci məqam belədir: Azərbaycan Avrasiyanın siyasi və iqtisadi mərkəzlərindən birinə çevrilmişdir. Bu məqam çox müxtəlif kontekstlərdə dövlət başçısının tezislərində dolğun ifadə olunmuşdur.

Üçüncü məqam da əhəmiyyətlidir. Burada Azərbaycanın mövqeyini qətiyyətlə müdafiə edən, çoxsaylı dostları və tərəfdaşları olan dövlət kimi dünyanın yeni enerji, nəqliyyat xəritəsini cızan və qlobal problemlərin həllində fəal iştirak edən ölkə kimi beynəlxalq arenada böyük nüfuz sahibi olması əksini tapmışdır.

Buradan Azərbaycan Prezidentinin hərtərəfli düşünülmüş və strateji hədəfi dəqiq müəyyən edilmiş siyasi kurs həyata keçirməsi sayəsində yeni anlamda ölkəmizin "orta güc" kimi formalaşdığı qənaətinə gəlmək olar. Həmin kontekstdə Azərbaycanı "orta güc" kimi xarakterizə edən başqa bir tezis də maraq doğurur.

### Azərbaycanın "orta güc" nümunəsinin konseptual əsası

Bu, məsələnin çox əhəmiyyətli və aktual tərəfidir. Azərbaycan lideri ölkəmizin "orta güc" olması prosesini dəqiq konseptual yanaşma əsasında müəyyən etmişdir. Onun iki mühüm aspektini Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ifadə etmişdir: əvvəla, Azərbaycan üçün "orta güc" olmaq problemlərin həllinə yönələn yanaşmadır, ikincisi, həmin yanaşmanın konseptual gücünə və praktiki səmərəsinə böyük inam mövcuddur. Hikmət Hacıyev XIII Qlobal Bakı Forumu çərçivəsində keçirilən "Böhran içində çoxtərəflilik: Qlobal əməkdaşlığa yenidən baxış" adlı panel müzakirəsində çıxışı zamanı vurğulanan kontekstdə ifadə etmişdir: "Təəssüf ki, bəzən "orta güc" haqqında danışarkən ilk növbədə ölkənin hərbi imkanları və ya ərazi ölçüsü xatırlanır. Biz özümüzü "orta güc" kimi qiymətləndirsək də, bunu hərbi güc baxımından rəqabət kimi görmürük. Bizim üçün "orta güc" anlayışı problemlərin həllinə yönələn yanaşma deməkdir. Bu həm də öz regionuna və qlobal gündəliyə töhfə vermək iradəsi, müsbət gündəliyi irəli aparmaq və inkişaf etdirmək istəyidir".

Nümunə kimi enerji təhlükəsizliyinin təmini məsələsini göstərmək olar. Azərbaycan üçün enerji təhlükəsizliyi çoxtərəfli diplomatiyanın və əməkdaşlığın uğurlu nümunəsidir. Bu aspektdə "Xəzərdən Avropaya uzanan marşrut boyunca eyni baxışları paylaşan ölkələrin bir araya gələrək hər kəs üçün uğurlu və qarşılıqlı fayda yaradan layihə" həyata keçirmələri xüsusi anlam daşıyır. Burada Azərbaycanın konkret layihələrlə regional və qlobal gündəliyə əhəmiyyətli töhfələr verməsi ciddi yer tutur. Mərkəzi Asiya-Azərbaycan əməkdaşlığı buna misaldır. Çünki həmin əməkdaşlıq modeli göstərir ki, Azərbaycan "orta güc" kimi "öz regionuna və qlobal gündəliyə töhfə vermək iradəsi" əsasında "müsbət gündəliyi irəli aparmaq və inkişaf etdirmək" xəttinə böyük anlam vermişdir.

Əlbəttə, "orta güc"ün problemlərin həllinə yönələn yanaşma nöqteyi-nəzərindən müəyyən edilməsi Azərbaycan Prezidentinin hazırkı tarixi mərhələdə müstəqil dövlətçiliyin inkişafı kontekstində çox perspektivli kurs müəyyən etdiyinin bariz nümunələrindəndir. Bu, BMT institutlarının əməkdaşlıq etmək əvəzinə bir-biri ilə rəqabət apardığı bir şəraitdə müstəqil dövlət üçün yeganə düzgün yoldur.

### "Orta güc" nümunəsinin üç aspekti

Azərbaycanın "orta güc" "kimliyi"ndə regional və qlobal gündəliyə töhfə vermək iradəsi, müsbət gündəliyi irəli aparmaq və inkişaf etdirmək xətti konseptual yanaşmanın bünövrəsini təşkil edir. Çünki Azərbaycan həmin təməl üzərində çox geniş geosiyasi məkana təsir etmək, orada nüfuz sahibi olmaq imkanı əldə edir. Bu, Azərbaycanın "orta güc" nümunəsinin ilk aspektini ifadə edir.

Azərbaycan yerləşdiyi regionda və ona yaxın regionlarda konkret layihələrlə infrastruktur şəbəkəsi yaradır. Bu isə həm regional, həm də regionlararası məkanda ölkələr arasında bağlılığı yeni səviyyəyə və qarşılıqlı etimada yüksəldir. Azərbaycan realpolitik çərçivəsində çoxlu sayda ölkəyə faydası olan əməkdaşlıq və təhlükəsizlik platformalarını vahid şəbəkədə birləşdirir.

Bu, yeni "orta güc" modeli üçün prinsipial əhəmiyyət kəsb edir. Məsələ onunla bağlıdır ki, infrastruktur şəbəkəsi əsasında "orta güc" statusuna yüksəlmək kursu ilk dəfədir ki, başlıca faktor kimi seçilir. Bir-birinə bağlı əməkdaşlıq, təhlükəsizlik və nəqliyyat-logistika infrastruktur vahidləri eyni məntiq və məqsədlə vahid şəbəkədə birləşdirilirsə, bu, inteqrasiyanı sosial, iqtisadi, mədəni və hüquqi müstəviyə gətirmək deməkdir. Məsələnin hüquqi tərəfinin çox mühüm bir özəlliyi vardır.

### Rəqabətdən əməkdaşlığa

Hazırda dünyada enerji resursları uğrunda mübarizəni əllərində bayraq edən böyük güclərin məsələyə hüquqi baxımdan birtərəfli yanaşmaları ciddi problemlər yaradır. Çünki onlar dünya resurslarından əməkdaşlıq naminə deyil, qarşı tərəfdən üstün olmaq, ona iradəsini diktə etmək məqsədilə istifadəyə üstünlük verirlər. Bu isə avtomatik olaraq daha geniş rəqabət elementləri yaradır ki, regional və qlobal miqyaslarda yeni fraqmentləşmələrə səbəb olur. Belə bir şəraitdə yeni model "orta güc"ə keçid mürəkkəb məsələdir. Ancaq Azərbaycan bunun öhdəsindən böyük uğurla gəlməkdədir. Bu, "orta güc" kimi Azərbaycan modelinin ikinci mühüm aspektidir.

Belə ki, Azərbaycan özünün təşəbbüsü ilə əməkdaşlıq platformaları yaratmışdır ki, ən müxtəlif ölkələr rəqabətə deyil, qarşılıqlı faydalı əməkdaşlığa çalışırlar. Onların hər birinin enerji və milli təhlükəsizliyi üçün önəmli olan faktorları Bakı dəqiqlik və aydınlıqla təqdim edir. Hələlik Avrasiya məkanında böyük rəqabətdən qarşılıqlı faydalı əməkdaşlığa praktiki müstəvidə keçməyə imkan verən yeganə konseptual yanaşmanın müəllifi Azərbaycandır. Bu yanaşmanın perspektivinin davamlı olacağına şübhə yoxdur.

Yuxarıda qeyd edilən birinci və ikinci aspektlərdən sinxron olaraq üçüncü aspekt yaranır.

### Regionlararası və qlobal geosiyasi kontekst

Azərbaycanın "orta güc" nümunəsində bu məsələ ciddi əhəmiyyət daşıyır. Çünki indiki beynəlxalq münasibətlər mühiti elədir ki, "orta güc" statusuna iddialı olan istənilən dövlətin regionlararası və qlobal miqyaslarda təsiri olan fəaliyyət modeli olmalıdır. Öz regionunda çox uğurlu olan ölkə belə regionlararası və qlobal miqyaslara nüfuz etməsə, real "orta güc"ə çevrilə bilməz. Bu istiqamətdə Azərbaycan nümunəsi unikaldır.

Onun təməlində geosiyasi aspektdə konseptual mahiyyətə malik maraqlı bir faktor dayanır. Azərbaycan Prezidentinin müəyyən etdiyi xarici siyasət kursunda ölkənin geosiyasi identikliyi və ya kimliyi dəqiq meyarlar üzrə müəyyən edilmişdir. Həmin meyarlara görə, Azərbaycan bir ölkə olaraq Cənubi Qafqaz, Mərkəzi Asiya və Türk Dövlətləri Təşkilatı identikliklərini eyni dərəcədə özündə ehtiva etmişdir. Bu isə "yeni geosiyasi əməkdaşlıq platforması"nı formalaşdırır. "Bundan əlavə, Yaxın Şərq regionu ilə coğrafi yaxınlığımız bizə bu istiqamətdə də əməkdaşlıq imkanları yaradır. Azərbaycan-Türkiyə-Suriya əməkdaşlığı bunun bariz nümunəsidir". Bütün bunlardan üçüncü aspektin başlıca tezisi ortaya çıxır: "Azərbaycan yalnız Cənubi Qafqaz ölkəsi deyil, eyni zamanda çoxşaxəli geosiyasi kimliyə malik ölkədir".

Azərbaycanın xarici siyasətinin vurğulanan özəlliyi və onun qlobal geosiyasi proseslərə proyeksiyası ölkəmizin "orta güc" kimi digər çox maraqlı xüsusiyyətlərini dərk etməyə imkan yaradır.

*(ardı var)*

***Kamal ADIGÖZƏLOV,***
***beynəlxalq münasibətlər üzrə ekspert***

# REGİONLAR

## Yerlərdə kənd təsərrüfatı məsələlərinə həsr olunan tədbirlər keçirilib









**Lənkəran**

**Lənkəran Şəhər İcra Hakimiyyətində (ŞİH) yerli fermerlərlə müşavirə keçirilib. Tədbir Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən kənd təsərrüfatı məsələlərinə həsr olunmuş respublika müşavirəsində qaldırılan məsələlərdən irəli gələn vəzifələrin, qarşıya qoyulan strateji hədəflərin icrasına həsr olunmuşdur.**

Müşavirədə çıxış edən ŞİH başçısı Taleh Qaraşov bildirib ki, dövlət başçısının çıxışı bütün dövlət qurumları, o cümlədən yerli icra hakimiyyətləri qarşısında aqrar sahənin inkişafı ilə bağlı mühüm vəzifələr qoyub. O, Azərbaycanda müxtəlif illəri əhatə edən çayçılığın, çəltikçiliyin və sitrus meyvəçiliyinin inkişafına dair dövlət proqramlarının icrasının təmin edilməsi, həmin sənədlərdə qarşıya qoyulan hədəflərə nail olunması üçün mütərəqqi texnologiyaların tətbiqinin, iri çəltik, çay və sitrus təsərrüfatlarının yaradılmasının, isifadəsiz qalan əkinəyararlı torpaq sahələrinin əkinə cəlb edilməsinin, habelə sudan səmərəli istifadə olunmasının, yeni suvarma mənbələrinin yaradılmasının vacibliyini qeyd edib.

ŞİH-in başçısı fermerlərin qaldırdığı məsələləri, irəli sürdüyü təklifləri dinləyib, aidiyyəti dövlət qurumları qaşısında irəli sürdükləri məsələrin həll ediləcəyini vurğulayıb.

Yerli fermerlər dövlət başçısının kənd təsərrüfatı ilə bağlı ölkə səviyyəsində qoyulan hədəflərə çatmaq üçün bütün potensial imkanlarını səfərbər edəcəklərini, Prezidentin çağırışına lənkəranlıların hər zaman olduğu kimi, səs verəcəklərini bildiriblər.

**Salyan**

**Salyanda keçirilən iclasda çıxış edən RİH-in başçısı R.Xəlilov yeni qəbul olunmuş dövlət proqramının növbəti illərdə aqrar sektorun dayanıqlı inkişafının təmin edilməsində, regionların iqtisadi potensialının gücləndirilməsində və ərzaq təhlükəsizliyinin effektiv şəkildə formalaşdırılmasında, şəhərdən kəndə qayıdışın güclənməsində mühüm rol oynayacağını vurğulayıb.**

Qeyd edilib ki, dövlətin aqrar sahəyə göstərdiyi diqqət və qayğı ölkəmizin davamlı inkişaf strategiyasının mühüm tərkib hissəsi olmaqla yanaşı, gələcək nəsillərin ərzaq təminatının etibarlı şəkildə qorunmasına da xidmət edir.

Sonra fermer və sahibkarların dövlət proqramı ilə bağlı təklifləri dinlənilib, rayonun aqrar sektor üzrə inkişaf perspektivləri, mövcud potensialı və gələcək hədəflərin müəyyənləşdirilməsi istiqamətində fikir mübadiləsi aparılıb. Həmçinin proqramın yerli səviyyədə səmərəli icrasının təmin edilməsi üçün görüləcək tədbirlər barədə müzakirələr keçirilib.

Sonda rayon rəhbərliyi Prezident İlham Əliyev tərəfindən kənd təsərrüfatı ilə bağlı keçirilən müşavirədə verilən tapşırıqların icrasının təmin edilməsi istiqamətində rayonda aqrar inkişafın sürətləndirilməsi, innovativ metodların yerli təsərrüfatlara inteqrasiyası və qarşıya qoyulmuş hədəflərə vaxtında nail olunması məqsədilə konkret tapşırıqlar verib.

**Biləsuvar**

**Biləsuvarda keçirilən tədbirdə də rayon rəhbərliyi çıxış edib. RİH-in başçısı F.Qürbətov Prezident İlham Əliyevin rəhbərliyi ilə keçirilmiş son müşavirədən irəli gələn tapşırıqları diqqətə çatdıraraq, aqrar sahənin ərzaq təhlükəsizliyindəki strateji rolunu vurğulayıb.**

Bildirilib ki, yeni dövlət proqramı çərçivəsində innovativ texnologiyaların tətbiqi, suvarma infrastrukturunun modernləşdirilməsi və fermerlərə dövlət dəstəyinin gücləndirilməsi əsas hədəflərdir. İclasda həmçinin məlumat verilib ki, son 5 il ərzində rayon iqtisadiyyatına 427,3 milyon manat investisiya yatırılıb. Bunun 179,2 milyon manatı dövlət, 248,1 milyon manatı özəl sektorun payına düşüb. Uğurlu islahatlar nəticəsində 2025-ci ildə rayon üzrə 516 milyon 887,1 min manatlıq ümumi məhsul istehsal olunub ki, bu da əvvəlki illə müqayisədə 4 faiz artım deməkdir. Bu istehsalın 45,8 faizinin məhz kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrinin payına düşməsi aqrar sektorun rayondakı aparıcı mövqeyini bir daha təsdiqləyir.

İclasda yeni emal müəssisələrinin yaradılması, logistika imkanlarının genişləndirilməsi, Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemindən tam istifadə və fermerlərin maarifləndirilməsi məsələləri müzakirə edilib. RİH başçısı tərəfindən pambıqçılıq, taxılçılıq və heyvandarlıq sahələrində səmərəliliyin artırılması, su ehtiyatlarından qənaətlə istifadə və növbəlilik prinsipinə əməl olunması ilə bağlı aidiyyəti qurumlara tapşırıqlar verilib.

**Hacıqabul**

**Hacıqabulda keçirilən tədbirdə rayonun aidiyyəti dövlət qurumlarının nümayəndələri, aqrar sahədə fəaliyyət göstərən müəssisələrin rəhbərləri, fermerlər və digər şəxslər iştirak ediblər.**

İclası giriş sözü ilə açan RİH başçısının birinci müavini Saleh Ələskərov Prezident İlham Əliyevin rəhbərliyi ilə kənd təsərrüfatının inkişafının ölkənin sosial-iqtisadi siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən olunduğunu bildirib. Qeyd edib ki, dövlət başçısının həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində aqrar sahədə mühüm nailiyyətlər əldə olunub, kənd təsərrüfatı istehsalının genişləndirilməsi, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və regionların inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilib. Vurğulanıb ki, son illər ölkədə meliorasiya və irriqasiya sistemlərinin yenilənməsi, su təminatının yaxşılaşdırılması, aqrar sahəyə dövlət dəstəyinin gücləndirilməsi, subsidiya mexanizmlərinin təkmilləşdirilməsi və güzəştli kreditlərin verilməsi kənd təsərrüfatının inkişafına ciddi təkan verib, həyata keçirilən tədbirlər nəticəsində kənd təsərrüfatında məhsuldarlıq yüksəlib, müasir texnologiyaların tətbiqi genişləndirilib və kənd əhalisinin məşğulluq imkanları artıb.

Çıxışda Hacıqabul rayonunda kənd təsərrüfatının inkişafı istiqamətində görülən işlərdən də bəhs olunub. Bildirilib ki, son illər rayonda əkinçilik və heyvandarlıq sahələrinin inkişafına xüsusi diqqət yetirilib, fermerlərin dövlət dəstəyi mexanizmlərindən istifadəsi təşviq edilib, kənd yerlərində məşğulluğun artırılması və əhalinin rifahının yüksəldilməsi istiqamətində müxtəlif layihələr uğurla icra olunub. Eyni zamanda vurğulanıb ki, yeni dövlət proqramının məqsədlərinə uyğun olaraq rayon ərazisində kənd təsərrüfatı məhsullarının istehsalı və emalının genişləndirilməsi, investisiyaların cəlb olunması və aqrar infrastrukturun daha da təkmilləşdirilməsi istiqamətində işlərin davam etdirilməsi nəzərdə tutulur. Bildirilib ki, dövlət proqramının uğurlu icrası aqrar sektorun davamlı inkişafına, regionların sosial-iqtisadi tərəqqisinə və ölkənin ərzaq təminatının daha da güclənməsinə mühüm töhfə verəcək.

Müşavirədə Hacıqabul Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Elşən Quliyev, "Agro Dairy" MMC-nin əməliyyatlar üzrə rəhbəri Nahiq Ağayev və "Kənd Kimya" ASC-nin direktoru Xəzri İsgəndərov çıxış edərək dövlət proqramının icrası, aqrar sahənin inkişaf perspektivləri, müasir texnologiyaların tətbiqi, məhsuldarlığın artırılması və qarşıda duran vəzifələr barədə fikirlərini bölüşüblər.

Sonda qeyd olunub ki, dövlət proqramının uğurla icrası kənd təsərrüfatı, balıqçılıq və akvakultura sahələrinin davamlı inkişafına, ölkənin ərzaq təhlükəsizliyinin daha da möhkəmləndirilməsinə, kənd əhalisinin rifahının yüksəldilməsinə və regionların sosial-iqtisadi inkişafına mühüm töhfə verəcəkdir.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Cəlilabadda maarifləndirici bir ənənənin təməli qoyulub

**Rayon icra hakimiyyəti, "Azərbaycan Nəşriyyatları Assosiasiyası" İctimai Birliyi və Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin birgə təşkilatçılığı ilə I Cəlilabad Kitab Sərgisi keçirilib.**

Sərginin açılış mərasimində "Azərbaycan Nəşriyyatları Assosiasiyası" İctimai Birliyinin sədri Şamil Sadiq çıxış edərək sərginin məqsədi və əhəmiyyəti barədə məlumat verib. Rayon icra hakimiyyətinin başçısı Rafiq Cəlilov isə çıxışında bildirib ki, bu gün Cəlilabadda ilk dəfə təşkil olunan kitab sərgisi təkcə mədəni hadisə deyil, həm də maarifçiliyin, elmin və mənəvi inkişafın bayramıdır. Sərginin əsas məqsədi insanlarda mütaliə vərdişlərini gücləndirmək, gənc nəslin kitaba marağını artırmaq, cəmiyyət içində oxu mədəniyyətinin daha da inkişafına töhfə verməkdir.

Cəlilabad şəhəri Heydər Əliyev seyrəngahında keçirilən kitab sərgisi çərçivəsində tanınmış yazıçıların imza saatları, konsert proqramları, təqdimatlar təşkil edilib. Sərgi cəlilabadlı oxucular tərəfindən məmnuniyyətlə qarşılanıb və böyük marağa səbəb olub. Kitabsevərlər bu kimi tədbirlərin regionlarda keçirilməsinin oxucuların sayının artmasına və gənc nəslin daha da sosiallaşmasına müsbət təsir göstərdiyini vurğulayıblar.

*S.QUBADOĞLU,*
*"Azərbaycan"*

## FHN Akademiyasının əməkdaşları Quba Soyqırımı Memorial Kompleksini ziyarət ediblər

**Fövqəladə Hallar Nazirliyinin Akademiyasının bir qrup professor-müəllim heyəti və kursantları Quba şəhərində Soyqırımı Memorial Kompleksini ziyarət ediblər.**



Ziyarətçilərə məlumat verilib ki, XX əsrin əvvəllərində bolşevik-erməni dəstələrinin Azərbaycanda həyata keçirdikləri etnik təmizləmə və təcavüzkar siyasət nəticəsində bir çox bölgədə on minlərlə günahsız insan qətlə yetirilib. 1918-ci ilin aprel-may aylarında yalnız Quba qəzasında 167 kənd tamamilə dağıdılıb.

Bildirilib ki, Quba soyqırımı məzarlığı 2007-ci ilin aprel ayında ərazidə torpaq işləri görülərkən aşkarlanıb. Burada müxtəlif yaş qruplarına aid yüzlərlə insan cəsədlərinin qalıqları qeydə alınıb. Məzarlıqda azərbaycanlılarla bərabər, Qubada yaşayan ləzgi, yəhudi, tat və digər etnik qrupların nümayəndələri də amansızcasına qətlə yetirilib.

2013-cü ildən fəaliyyət göstərən Memorial Kompleks bu istiqamətdə açılan canlı səhifədir.

*A.ƏLİYEV,*
*"Azərbaycan"*

## Qarabağ və Şərqi Zəngəzurda sakinlərin məşğulluq imkanları qiymətləndirilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən Xocavənd, Xocalı və Cəbrayıl rayonlarında sakinlərlə, Zəngilanda isə işəgötürənlərlə növbəti səyyar görüşlər keçirilib.**




Görüşlərdə sakinlərin məşğulluq imkanları qiymətləndirilib, peşə bacarıqları, əmək fəaliyyətinə maraqları, məşğulluq ehtiyacları araşdırılıb. Agentlik tərəfindən həyata keçirilən aktiv məşğulluq tədbirləri, o cümlədən işlə təminat, özünüməşğulluq proqramı, peşə hazırlığı kursları barədə ətraflı məlumat verilib.

Sakinlərin maraqlarına və əmək bacarıqlarına uyğun iş yerləri ilə təmin edilmələri, özünüməşğulluq proqramına, peşə hazırlığı kursları və digər tədbirlərə cəlb edilmələri üçün ilkin qeydiyyat aparılıb.

İşəgötürənlərlə keçirilmiş görüşdə isə işğaldan azad edilmiş ərazilərdə məşğulluğun təminatı istiqamətində görülən birgə işlərdən bəhs olunub. Agentliyin fəaliyyət istiqamətləri, aktiv məşğulluq proqramları, işəgötürənlərlə birgə icra olunan layihələr diqqətə çatdırılıb.

Əlavə iş yerlərinin yaradılması, məqsədli proqramlar barədə də işəgötürənlər məlumatlandırılıb, onları maraqlandıran suallar cavablandırılıb.

*L.QULİYEV,*
*"Azərbaycan"*

## Lerikin ucqar dağ kəndlərində elektrik şəbəkəsi yenilənir

**"Azərişıq" ASC-nin yaydığı məlumata görə, Lerik rayonu üzrə kəndləri elektrik enerjisi ilə qidalandıran 10 kV-luq hava xətlərindən 7-də əsaslı təmir və yenidənqurma işləri aparılır.**

Meşə zolaqlarında və mürəkkəb relyefi ilə seçilən digər ərazilərdə, eləcə də nəqliyyat vasitələrinin qalxa bilmədiyi yüksəkliklərdə yeni metal dayaqlar əkilir, elektrik xətləri təmir olunur. Zərurət yaranan hissələrdə köhnə naqillərin əvəzinə 10 kV-luq müasir Özünüdaşıyan İzolyasiyalı Naqillər (ÖİN-3) çəkilir. Həmçinin qarlı-şaxtalı havalarda ağac budaqlarının qırılaraq xətlərin üzərinə düşməsi və nəticədə qəza hallarının baş verməsinin qarşısını almaq üçün yaşıllıq zonalarında budanma işləri aparılır, meşə zolaqlarından keçən elektrik hava xətləri üçün dəhliz yaradılır.

Bəzi ərazilərdə dayaqlar dağlıq və dağətəyi hissələrdən çıxarılaraq yol kənarlarında əkilir və xətlər yeni dayaqlara köçürülür. Məqsəd elektrik itkisi və qəza riskini azaltmaq, qarlı, şaxtalı, küləkli havalarda baş verə biləcək nasazlıqları qısa vaxtda aradan qaldırmaq, texnikanın, canlı qüvvənin operativ hərəkətini təmin etməkdir.

Görülən işlər nəticəsində Lerikin Züvüc, Zövnə və Lüləkəran kəndlərinin də elektrik şəbəkəsi yenilənib. Lüləkəran kəndində 0,4 və 10 kV-luq metal dayaqlar əkilib, 0,4 kV-luq Özünüdaşıyan İzolyasiyalı Naqil (ÖİN) çəkilib. Həmçinin 10 kV-luq xətlərdə də təmir işləri aparılıb, kənddə yeni smart sayğaclar, 2 ədəd Transformator Məntəqəsi (TM) quraşdırılıb.

## Qusar bağçılığın intensiv inkişaf etdiyi bölgədir

**Prezident İlham Əliyev bu ilin may ayında keçirdiyi kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə ölkəmizin aqrar siyasətinin əsas istiqamətlərini yeni reallıqlar kontekstində müəyyən etmişdir. Dövlətimizin başçısı kənd təsərrüfatının ərzaq təhlükəsizliyinin təmin olunmasında, regionların sosial-iqtisadi inkişafında və qeyri-neft sektorunun genişləndirilməsində mühüm rol oynadığını vurğulamışdır.**







Müşavirədə səsləndirilən əsas məsələlərdən biri də intensiv bağçılığın inkişafı olmuşdur.

Bu istiqamət son illər Azərbaycanda həyata keçirilən aqrar islahatların mühüm tərkib hissəsinə çevrilmişdir. Xatırladaq ki, intensiv bağçılıq müasir texnologiyaların tətbiqinə, yüksək məhsuldarlığa, su və torpaq ehtiyatlarından səmərəli istifadəyə əsaslanan təsərrüfatçılıq formasıdır. Bu model xüsusilə meyvəçilik və subtropik bitkiçilik sahəsində yüksək iqtisadi nəticələr əldə etməyə imkan verir. Azərbaycanın müxtəlif bölgələrində intensiv bağçılığın inkişafı üçün əlverişli şərait mövcuddur.

Bu gün həmin mövzuya toxunanda qusarlıların da deməyə sözü var. Ümumiyyətlə, Qusarda yüksək ixrac potensialına malik kənd təsərrüfatı məhsullarının istehsalına xüsusi önəm verilir. Bunun üçün aqrar sahədə müasir texnologiyalar və innovativ yanaşmalar geniş tətbiq olunur. Qusar bu baxımdan ölkənin qabaqcıl rayonlarından biri sayılır. Son illər intensiv bağçılığın inkişafı və müasir suvarma sistemlərinin geniş tətbiqi rayonda əldə olunan mühüm nailiyyətlərdəndir.

Qusarda intensiv bağçılığı genişləndirən, müasir suvarma sistemlərindən istifadə edən təsərrüfatların sayı ildən-ilə artır. Son illər rayonda həmçinin tərəvəzçilik sahəsində innovativ üsullara üstünlük verilməsi kənd təsərrüfatının inkişafını sürətləndirir. Odur ki, bu sahədə məqsədyönlü tədbirlər həyata keçirilir.

Görülən işlər su ehtiyatlarından səmərəli istifadəyə, məhsuldarlığın artırılmasına və rəqabətqabiliyyətli məhsul istehsalına, rayonun aqrar potensialının daha da güclənməsinə xidmət edir. Müasir texnologiyaların tətbiqinin genişlənməsi Qusarın ölkənin aqrar inkişafında aparıcı rayonlardan biri kimi mövqeyini daha da möhkəmləndirir və gələcək uğurlar üçün etibarlı zəmin yaradır.

Qeyd edək ki, Qusarda 18 min hektar meyvə bağı var. Bunun 10 min hektarı intensiv və super intensivdir. Rayonda bağçılıq xəritəsi hər il 700-800 hektar artırılır. Ötən təsərrüfat ilində bağlardan 90 min tondan artıq meyvə yığılıb. Rayonun Qalacıq kəndində 145 hektar intensiv bağlarda tumlu və çəyirdəkli meyvə yetişdirilir. Öz keyfiyyəti ilə seçilən meyvələr Rusiya daxil olmaqla onlarca ölkəyə ixrac edilir. Bu yerdə bildirək ki, bağların becərilməsinə ayrılan subsidiyalar fermerlərin bu sahəyə marağını artırır. Vaxtında budama və gübrə verildiyinə, işlərin mütəxəssislərin nəzarəti altında aparıldığına görə hər il bağlardan meyvə toplanması gözlənilən nəticəni verir.

Qusar Rayon Aqrar İnkişaf Mərkəzinin direktoru Rauf Minhacov bizimlə söhbətində vurğuladı ki, intensiv bağların salınması ekoloji baxımdan ərzaq təhlükəsizliyində, əhalinin keyfiyyətli məhsulla təminatında və ixrac potensialının artırılmasında mühüm rol oynayır: "Torpaq islahatlarından sonra təsərrüfatlarda ömrünü yaşamış meyvə bağları yeni tinglərlə əvəz edilib. Həmin bağ yerlərində müasir intensiv bağlar salınıb. Belə bağların salınması qusarlı fermerlərə imkan verir ki, xarici bazara çıxarıla bilən keyfiyyətli məhsul yetişdirsinlər. Müasir innovasiyalarla idarə edilən bağlarda məhsul yetişdirilməsi gələcəkdə bu sahənin daha da inkişaf etdiriləcəyindən xəbər verir".

R.Minhacov həmçinin qeyd etdi ki, Qusarda yetişdirilən meyvələr yerli bazarlarda daha tez alınır: "Çünki dağlar qoynunda becərilən məhsul tamı və keyfiyyətinə görə fərqlənir. Bu baxımdan fermerlərimizin daxili bazarlara göndərdiyi meyvələrin geri dönüşü olmayıb. Yaxın gələcəkdə yeni və müasir bağların salınması və onların inkişafı davam edəcək".

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

# Mətbuatımızın incə, gözəl, zərif səhifələri - "Evraqi-nəfisə"

**Mətbuat yalnız informasiya vasitəsi deyil, həm də dövrün ictimai fikrini, milli ideyalarını, maarifçilik hərəkatını və cəmiyyətin problemlərini özündə əks etdirən olduqca qiymətli tarixi mənbədir. Bu baxımdan mətbuat tarixinin sistemli şəkildə araşdırılması milli yaddaşın qorunmasına və gələcək nəsillərə çatdırılmasına xidmət edir. Azərbaycan mətbuat tarixinin öyrənilməsi də xalqımızın ictimai-siyasi, mədəni və mənəvi inkişaf yolunun araşdırılmasında mühüm əhəmiyyət kəsb edir.**

Azərbaycanın XX əsrin əvvəllərində nəşr olunan mətbu nümunələri tarixi, siyasi və ədəbi məlumatlarla zəngindir. Lakin bu gün ərəb əlifbasını bilməyən oxucular onları oxumaqda çətinlik çəkirlər. Transliterasiya həmin dəyərli mənbələrin daha geniş oxucu kütləsi üçün əlçatan olmasını təmin edir, eyni zamanda tarixi faktların, dil xüsusiyyətlərinin və ictimai fikir tarixinin daha dəqiq öyrənilməsinə şərait yaradır. Odur ki, ərəb qrafikalı mətbuat nümunələrinin transliterasiyası milli-mədəni irsin qorunması və elmi dövriyyəyə daxil edilməsi baxımından mühüm vəzifələrdən biri hesab edilə bilər. Bu mənada Azərbaycan mətbuat tarixində ilk incəsənət, mədəniyyət və ədəbiyyat dərgisi olan "Evraqi-nəfisə"nin materialları əsasında "Evraqi-nəfisə" (araşdırma, tədqiqatlar) kitabının nəşr edilməsi təqdirəlayiqdir.

Kitab Azərbaycan Türk Ocağı İctimai Birliyinin təşəbbüsü ilə hazırlanaraq Mədəniyyət Nazirliyinin qeyri-hökumət təşkilatları üçün elan etdiyi 2025-ci il qrant müsabiqəsi çərçivəsində çap olunub. "Evraqi-nəfisə" "Zərdabi Nəşr" MMC nəşriyyatı tərəfindən 200 nüsxə ilə yüksək poliqrafiyada işıq üzü görüb.

Kitabı ərsəyə gətirən Əməkdar jurnalist, Azərbaycan Türk Ocağı İctimai Birliyinin sədri, tarix üzrə fəlsəfə doktoru Akif Aşırlıdır. "Evraqi-nəfisə" kitabının akademik məsləhətçisi Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, professor Asif Rüstəmli, rəyçisi Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, ərəb qrafikalı mətnlərin transliterasiya redaktoru Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin Mətbuat tarixi kafedrasının baş müəllimi Samir Mirzəyevdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə nəşrə başlayan "Evraqi-nəfisə" dərgisinin cəmi 6 sayı nəşr olunub. Kitabda qeyd olunduğu kimi, ilk sayı 1919-cu ilin martında işıq üzü görən "Evraqi-nəfisə"nin müdir və sahibi-imtiyazı dövrün tanınmış ziyalısı, bəstəkar Zülfüqar bəy Hacıbəyli, baş mühərriri mətbuat aləmində kifayət qədər tanınan Əliabbas Müznib idi.

Professor Asif Rüstəmli kitaba yazdığı "Övraq", yoxsa "Evraq" başlıqlı yazısında dərginin adına aydınlıq gətirib. Onun fikrincə, uzunmüddətli araşdırmalar isbatlayır ki, Azərbaycan ədəbiyyatının klassik nümunələrini ilk (ərəb qrafikalı) mənbələrdən transfoneliterasiya edənlərdən bəziləri söz birləşməsinin məntiqə zidd məna verdiyini nəzərə almadan "Evraq" əvəzinə "övraq" sözündən intensiv istifadə etmişlər: "Nəticədə çox mühüm, klassik nəşrlərdə əsərlərin mənası təhrif olunmuş, fikrin fəlsəfi anlamı, məntiqi dürüstlüyü pozulmuş, müəllif sözünün qayəsinə, orijinallığına xələl dəymişdir. Xüsusilə izafət qəbul edən söz birləşmələrində "Evraq" ("ovraq") yerinə sözün "övraq" şəklində yanlış transfoneliterasiya edildiyinin şahidi oluruq".



Professor A.Rüstəmli onu da diqqətə çatdırıb ki, "Evraqi-nəfisə" adının hər iki komponenti ərəb mənşəli sözdür: "Nəfis - incə, gözəl, zərif anlamını ifadə edir. Evraq - vərəqlər, səhifələr, sənədlər mənasında yuvalanıb. "Evraqi-nəfisə" - incə gözəl, zərif vərəqlər, səhifələr fikrinin məna yükünü özündə əks etdirir". A.Rüstəmli məcmuənin sərlövhəsinin təsadüfi seçilmədiyini vurğulayıb.

"Evraqi-nəfisə"nin müdir və sahibi-imtiyazı Zülfüqar bəy Hacıbəyli ilk nömrəyə yazdığı "Bir neçə söz" adlı baş məqaləsində məcmuənin məqsədini, məramını belə açıqlayıb: "Evraqi-nəfisə" məcmuəsi islam aləminin gərək sabiq və gərəksə hali-həyatda olan ərbabi-hünərinin təracimi-əhvalı və asarından bəhs etməklə bərabər, səhnə və musiqi tərəqqi və təalisinə çalışmağı öhdəsinə götürərək, meydani-intişara qədəm qoyur".

Məcmuənin birinci sayında Ə.Müznib "İdarədən" başlığı ilə yazırdı ki, məsləkimiz ədəbiyyat və "sənayei-nəfisə"mizə xidmət olaraq türk teatr və musiqisindən də lazımınca məlumat verməkdir: "İştə, bununla da ədib, şair və mühərrirlərimizin mənəvi cəhətdən müavinətlərini arzu etməklə bərabər, yazdıqları şeir və məqalələrinə məcmuəmizin səhifəsi açıq olduğunu bildiriyoruz".

Hər bir mətbu orqan öz dövrünün aynasıdır. "Evraqi-nəfisə" dərgisi də öz zəmanəsi haqqında məlumat verərək zəngin təəssürat yarada bilir. Səhifələrində yer verilmiş milli teatr xadimlərinin, görkəmli ədiblərin bioqrafiyaları, onların haqqında verilmiş faktlar, Şərq musiqisi, incəsənəti, türk-müsəlman dünyasının tarixi sənət nümunələri barədə yazılar xüsusi maraq doğurur. Həmin yazılar zəngin məlumat mənbəyi olmaqla yanaşı, əhatə etdiyi problemlərin bu gün də aktual olması baxımından əhəmiyyətlidir.

"Evraqi-nəfisə" kitabında qeyd olunub ki, Azərbaycan milli teatrının bünövrəsini yaradan, onu inkişaf etdirən, ömrünü sənətə həsr edən aktyorların bioqrafiyaları, teatra gəlişləri və oynadıqları rolları, sənətə baxışlarını geniş oxucu kütləsinə çatdırmaq "Evraqi-nəfisə"nin qədirşünaslığından, keçmişə ehtiramından doğurdu: "Məcmuənin 6 sayının hər birində "hali-həyatda olan" teatr və mədəniyyət xadimlərinin tərcümeyi-halları, milli teatr tarixi ilə bağlı faktlar və bu sənətkarların oynadıqları rollardan fotoşəkillər çap olunub. Ömrünün ahıllığını yaşayan aktyorlar özləri "Evraqi-nəfisə" ilə əlaqə yaradır, tərcümeyi-hallarını qələmə alır, oynadıqları obrazlarla bağlı məlumatlar verilirdi".

Kitabda "Evraqi-nəfisə" məcmuəsinin ideya istiqamətləri təhlil edilib, ayrı-ayrı bölmələr, bəzi seçilmiş mətnlərin ərəb əlifbasından latın qrafikasına transliterasiyası, qeyd və şərhlər verilib. Kitabda məcmuənin hər sayına uyğun ərəb-fars sözləri lüğətinin verilməsi də "Evraqi-nəfisə"nin oxunuşunu bu günün oxucusu üçün daha asan edib.

Qeyd edək ki, "Evraqi-nəfisə" (araşdırma, tədqiqatlar) kitabı mədəniyyət və incəsənət tariximizə, öyrənilməsinə maraq göstərən oxucular və ali məktəblərin Jurnalistika fakültəsi tələbələri, magistr və doktorantları üçün gərəkli mənbədir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Ötən həftənin iqtisadi icmalı

# İqlim gündəmi, regional tranzit və dəyişən əməkdaşlıq xəritəsi

Ötən həftə Azərbaycan iqtisadiyyatında baş verən bir sıra mühüm tendensiyalar və göstəricilərlə yadda qaldı. Dövlət büdcəsi daxilolmaları, enerji bazarlarındakı dəyişmələr, xarici ticarət əlaqələri və iqtisadi artımla bağlı proqnozlar ölkənin iqtisadi gündəmini formalaşdırdı.

Həftənin birinci üç günü neft-qaz sənayesində beynəlxalq əməkdaşlığın genişləndirilməsi və yeni investisiya imkanlarının müzakirəsi ilə diqqət mərkəzində yer alıb. "Bakı-Ekspo" Mərkəzi növbəti dəfə dünyanın enerji sənayesinin diqqət mərkəzinə çevrilərək qapılarını ziyarətçilərin üzünə açıb. İyunun 1-dən fəaliyyətə başlayan 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi ("Caspian Oil and Gas") və 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi ("Caspian Power") keçmişin uğurlarını, bu günün gücünü və sabahın potensialını eyni platformada birləşdirən mühüm beynəlxalq tədbir kimi diqqət çəkib. Üç gün ərzində dünyanın müxtəlif ölkələrindən gələn nümayəndələri, aparıcı şirkətləri və sahə mütəxəssislərini bir araya gətirən bu mötəbər platformada enerji sektorunun ümdə məsələləri müzakirə olunub, yeni əməkdaşlıqların əsası qoyulub.

* * *

Enerji sektoru ilə yanaşı, rəqəmsallaşma və informasiya təhlükəsizliyi istiqamətində də mühüm müzakirələr aparılıb. Fakt: Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) təşkilatçılığı və Dövlət Təhlükəsizliyi Xidmətinin Milli Kibertəhlükəsizlik Mərkəzinin əsas tərəfdaşlığı ilə iyunun 4-də Bakıda IV Milli Kibertəhlükəsizlik Forumu keçirilib. Forumda kibertəhlükəsizliyin gücləndirilməsi, süni intellektin tətbiqi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və insan kapitalının inkişafı kimi məsələlər ön plana çıxıb. Müzakirələr göstərib ki, rəqəmsal təhlükəsizlik iqtisadiyyatın dayanıqlı inkişafının əsas şərtlərindən biri kimi əhəmiyyətini artırmaqdadır.

Tədbidə dövlət qurumları, özəl sektor və akademik dairələr arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində yeni təşəbbüslər irəli sürülüb. Rəqəmsal transformasiya prosesinin sürətlənməsi fonunda kritik informasiya infrastrukturunun qorunması və innovativ texnologiyaların təhlükəsiz tətbiqi məsələləri xüsusi diqqət mərkəzində olub. Bu istiqamətdə aparılan müzakirələr Azərbaycanın rəqəmsal iqtisadiyyatının inkişafı və rəqabət qabiliyyətinin artırılması baxımından mühüm əhəmiyyət daşıyır.

* * *



Rəqəmsal transformasiya ilə yanaşı, nəqliyyat və logistika sahəsində də regional əməkdaşlığın gücləndirilməsi istiqamətində mühüm addımlar atılıb. İyunun 3-də "Trans-Logistica Caspian" beynəlxalq sərgisi çərçivəsində 2-ci Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika Forumu "Radisson Hotel Baku"da keçirilib.Beynəlxalq forumda logistika zəncirlərinin rəqəmsallaşdırılması, innovativ texnologiyaların tətbiqi və tranzit marşrutlarının inkişaf perspektivləri müzakirə olunub.

Tədbirdə Orta dəhlizin əhəmiyyəti, regionun tranzit potensialının artırılması və beynəlxalq əməkdaşlığın genişləndirilməsi əsas mövzular sırasında yer alıb. Yerli və xarici ekspertlərin iştirakı ilə keçirilən müzakirələr Azərbaycanın Avropa ilə Asiya arasında mühüm nəqliyyat qovşağı kimi mövqeyinin daha çox gücləndirilməsinə xidmət edən təşəbbüsləri ön plana çıxarıb.

* * *

Ötən həftə neftdənkənar sahənin də müxtəlif istiqamətlərində fəallıq müşahidə olunub. Bu mənada iyunun 4-də Bakıda keçirilən "Azerbaijan Jewelry Show" sərgisinin adını çəkə bilərik. Beynəlxalq zərgərlik sərgisi qiymətli metallar və daşlar bazarında əməkdaşlıq imkanlarının genişləndirilməsi, yeni biznes əlaqələrinin qurulması və yerli istehsalçıların məhsullarının tanıdılması baxımından diqqət çəkib.

Tədbirdə müxtəlif ölkələrdən şirkətlər iştirak edərək zərgərlik məmulatları, qiymətli daşlar və sənaye avadanlıqlarını nümayiş etdiriblər. Sərgi həm yerli zərgərlik sənətinin təbliği, həm də bu sahədə ixrac potensialının artırılması və beynəlxalq əməkdaşlığın inkişafı üçün mühüm platforma kimi qiymətləndirilib.

* * *

Biznes və ticarət əlaqələrinin genişləndirilməsi ilə yanaşı, ötən həftə regional maliyyə əməkdaşlığının gücləndirilməsi istiqamətində də mühüm tədbirlər keçirilib. Bakı "Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Mərkəzi Banklarının Şurası"nın növbəti toplantısına evsahibliyi edib.

Görüşdə maliyyə sabitliyinin möhkəmləndirilməsi, mərkəzi banklar arasında əməkdaşlığın genişləndirilməsi və daha inteqrasiya olunmuş maliyyə ekosisteminin formalaşdırılması məsələləri müzakirə edilib. İştirakçılar regional iqtisadi inteqrasiyanın dərinləşdirilməsi və innovativ maliyyə mexanizmlərinin tətbiqinin əhəmiyyətini vurğulayıblar.

* * *

Həftəsonu Bakıda keçirilən Ümumdünya Ətraf Mühit Günü maraqlı və gərəkli müzakirələr, eləcə də bir sıra təklif və təşəbbüslərlə yadda qalıb. Tədbirdə qlobal iqlim dəyişiklikləri, bərpaolunan enerji keçidi və ekoloji bərpa məsələləri əsas müzakirə mövzusu olub. Azərbaycan tərəfi "yaşıl enerji" siyasəti və işğaldan azad edilmiş ərazilərdə aparılan ekoloji bərpa işlərini diqqətə çatdırıb.

BMT rəsmiləri isə iqlim böhranının dərinləşdiyini, emissiyaların azaldılmasının və beynəlxalq əməkdaşlığın vacibliyini vurğulayıblar. Ümumilikdə tədbir dünya ölkələrinin ekoloji problemlərə qarşı birgə fəaliyyətinə çağırış kimi yadda qalıb.

* * *

Arxada qoyduğumuz 7 günün diqqətçəkən iqtisadi və regional xəbərlərindən biri də Azərbaycandan Ermənistana neft məhsullarının növbəti partiyasının ixracı olub. Məlumata görə, Azərbaycandan Ermənistana 42 vaqondan ibarət, ümumilikdə 2475 ton dizel yanacağı göndərilib. Bundan əvvəl də ölkədən Ermənistana müxtəlif neft məhsullarının ixracı həyata keçirilib.

Paralel olaraq Rusiyadan Ermənistana Azərbaycan ərazisindən tranzitlə buğda, arpa və gübrə daşınması da davam edib. Ümumilikdə minlərlə ton taxıl və digər məhsullar ölkə ərazisindən keçməklə Ermənistana çatdırılıb.

Rəsmi rəqəmlər göstərir ki, həm ixrac, həm də tranzit daşımalar son dövrdə artmaqda davam edir və regionda nəqliyyat əlaqələrinin genişləndiyini nümayiş etdirir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbycan"*

# Çatbotların zəif tərəfi

**Süni intellekt çatbotları insanların gündəlik həyatının ayrılmaz hissəsinə çevrilib. Bir neçə il əvvəl yalnız sadə suallara cavab verən sistemlər kimi görünən bu texnologiyalar artıq insanların şəxsi köməkçisi, psixoloji dəstəkçisi, iş planlayıcısı, hətta gündəlik həyat yoldaşı rolunu oynamağa başlayıb. İnsanlar yemək planlarını hazırlamaq, iş qrafikini tənzimləmək, məktublar yazmaq, maliyyə qərarları vermək, münasibətlər qurmaq barədə məsləhət almaq və emosional vəziyyətlərini bölüşmək üçün çatbotlardan istifadə edirlər. Məhz bu yaxınlıq süni intellekt şirkətlərini sistemləri daha "şəxsi" və "insanı anlayan" hala gətirməyə sövq edib. Bunun üçün isə əsas vasitə yaddaşdır.**

Bu gün aparıcı süni intellekt platformalarının əksəriyyəti istifadəçiləri "xatırlamağa" çalışır. Sistemlər əvvəlki söhbətlərdən məlumat toplayır, istifadəçinin davranışlarını analiz edir, maraqlarını, vərdişlərini və hətta emosional vəziyyətini müəyyənləşdirməyə çalışır. Məqsəd daha fərdiləşdirilmiş təcrübə təqdim etməkdir. İlk baxışdan bu rahat görünür. Çatbot sizin yazı üslubunuzu xatırlayır, hansı mövzularla maraqlandığınızı bilir, əvvəl yarımçıq qoyduğunuz işi davam etdirə bilir və sizə daha uyğun cavablar təqdim edir. Lakin texnologiyanın bu xüsusiyyəti getdikcə daha çox mübahisə doğurur. Çünki süni intellektin yaddaşı bəzən istifadəçini anlamır, onu yanlış tanıyır və keçmişdə qalan məlumatları uzun müddət daşıyaraq insan davranışına təsir etməyə başlayır.

ABŞ-nin Yuta ştatında yaşayan proqram təminatı mühəndisi Brayan Del Rosarionun yaşadığı hadisə bu problemin ən diqqətçəkən nümunələrindən biridir. O, gündəlik həyatında təqvim idarəçiliyindən tutmuş yemək planlaşdırılmasına qədər bir çox işi çatbot vasitəsilə həll edirdi. Sistemə evli və üç övladının olduğunu bildirmişdi. Daha sonra həyat yoldaşından ayrıldıqda isə çatbotun gələcək planlarında həyat yoldaşını nəzərə almaması üçün bu dəyişikliyi sistemə izah etməli olmuşdu. Ancaq bundan sonra çatbot ayrılığı sanki onun həyatının əsas hadisəsi kimi qəbul etməyə başlamışdı. Del Rosario işdəki yorğunluğundan danışanda sistem bunu boşanmanın yaratdığı streslə əlaqələndirmişdi. Təqvim planlaşdırması zamanı belə çatbot onun emosional vəziyyətinə dair şərhlər vermiş, ayrılıq mövzusunu davamlı gündəmə gətirmişdi. Del Rosario sonradan etiraf edib ki, sistemə "Boşanmam barədə hər fürsətdə danışmağınızı istəmirəm" deməsinə baxmayaraq, çatbot həmin məlumatı söhbətlərin mərkəzində saxlamaqda davam etmişdir.

Bu hadisə süni intellekt yaddaşının əsas problemlərindən birini ortaya çıxarır: sistemlər insan həyatındakı məlumatların hansı dərəcədə vacib olduğunu düzgün qiymətləndirə bilmir. İnsan üçün müəyyən dövrdə mühüm olan hadisə sonradan arxa plana keçə bilər. Lakin süni intellekt bunu həmişə anlaya bilmir və keçmiş məlumatları aktual mövzu kimi təqdim edir.

Əslində, çatbot yaddaşının yaradılmasının arxasında olduqca məntiqli məqsədlər dayanır. Şirkətlər istifadəçilərə daha rahat xidmət göstərmək istəyirlər. Məsələn, sistem sizin vegetarian olduğunuzu xatırlayırsa, resept tövsiyələrində ət yeməklərini azaltmağa çalışır. Yazılarınızın üslubunu öyrənirsə, məktubları dilinizə uyğun hazırlayır. Uzun layihələrdə əvvəlki söhbətləri xatırlayaraq işin davamlılığını təmin edir. Bu xüsusiyyətlər istifadəçilərə vaxt qazandırır və texnologiyanı daha funksional edir. Ancaq problem ondadır ki, süni intellekt insan davranışını çox vaxt kontekstdən kənar qiymətləndirir. İstifadəçi bir dəfə müəyyən mövzuda sual verirsə, sistem bunu onun şəxsiyyətinin daimi xüsusiyyəti kimi qəbul edə bilir. Məsələn, valideyn öz uşağının diqqət əskikliyi və hiperaktivlik pozuntusu ilə bağlı məlumat axtarırsa, çatbot sonradan istifadəçinin özündə diqqət problemi olduğunu düşünə bilər. Həftələr sonra məhsuldarlıqla bağlı məsləhət istəyən həmin şəxsə sistem diqqət dağınıqlığı ilə bağlı tövsiyələr verməyə başlaya bilər. Bu cür yanlış nəticələr təkcə narahatedici deyil, həm də insan davranışına təsir göstərə bilir. Süni intellekt istifadəçiyə müəyyən "şəxsiyyət hekayəsi" formalaşdırır və zamanla həmin hekayəni ona geri qaytarır.

"Google" şirkəti belə problemlərin mövcudluğunu açıq şəkildə etiraf edib. Şirkətin təqdim etdiyi "Şəxsi zəka" funksiyası istifadəçinin "Gmail", "YouTube" və fotoarxivindəki məlumatları analiz edərək fərdiləşdirmə aparır. Şirkətin təqdim etdiyi hipotetik nümunədə sistem istifadəçinin telefonunda qolf meydançasında çəkilmiş çoxlu şəkil görür və onun qolf həvəskarı olduğu qənaətinə gəlir. Halbuki həmin şəxs, sadəcə, oğlunu məşqlərə aparır. Belə halda istifadəçi süni intellektə qolfu sevmədiyini ayrıca bildirməlidir. Bu nümunə texnologiyanın daha böyük problemini göstərir: süni intellekt təkcə məlumat toplamır, həm də həmin məlumatları şərh edir. Və bu şərhlər hər zaman düzgün olmur. İnsan beynindən fərqli olaraq, sistemlər məlumatların emosional və sosial kontekstini tam anlamır. Onlar statistik əlaqələr qurur və nəticələr çıxarır. Bu isə yanlış fərziyyələrin yaranmasına səbəb ola bilər.

Digər problem məlumatların köhnəlməsidir. İnsan həyatı davamlı dəyişir, lakin çatbot həmin dəyişiklikləri yalnız istifadəçi ayrıca məlumat verərsə, öyrənə bilir. Altı ay əvvəl marafona hazırlaşdığınızı demisinizsə, sistem sizi aktiv idmançı kimi yadda saxlayır. Sonradan ciddi zədə alsanız və bunu bildirməsəniz, çatbot yenə sizə intensiv məşq proqramları tövsiyə edə bilər. Bu cür köhnəlmiş məlumatlar isə yanlış yönləndirmələr yaradır.

Mütəxəssislərin fikrincə, problem yalnız texniki səhvlərlə məhdudlaşmır. Süni intellekt yaddaşı insanların qərarvermə prosesinə də təsir göstərə bilər. Harvard Universitetinin mütəxəssisi Coşua Cozef bildirir ki, çatbotlar keçmiş söhbətlərdən çıxardıqları nəticələr əsasında istifadəçini müəyyən istiqamətlərə yönəldə bilər. İnsan isə çox vaxt bunun fərqinə varmır. Məsələn, istifadəçi bir söhbətdə maliyyə problemlərindən danışıbsa, sistem sonradan karyera məsləhətləri zamanı onu daha yüksəkmaaşlı işlərə istiqamətləndirə bilər. Halbuki həmin insan üçün iş mühiti, yaradıcılıq və ya həyat balansı daha vacib ola bilər. Çatbot isə keçmiş məlumatlara əsaslanaraq prioritetləri özü müəyyənləşdirir. Bu, süni intellektin "neytral texnologiya" olması ilə bağlı təsəvvürləri də zəiflədir. Çünki sistemlər istifadəçinin düşüncələrini formalaşdırmağa başlayır.

Ekseter Universitetinin filosofu Lusi Osler isə daha ciddi təhlükəyə diqqət çəkir. Onun sözlərinə görə, çatbotlar istifadəçi haqqında müəyyən "hekayə" qurur və bu hekayəni davamlı olaraq ona əks etdirirlər. Sistemlər istifadəçini narahat edən düşüncələrini sakitləşdirməkdən çox, bəzən onları gücləndirir. Çünki çatbotlar çox vaxt istifadəçi ilə "uyğunlaşmaq" üçün hazırlanır və mübahisə etməkdən çəkinirlər. Bu xüsusiyyət xüsusilə psixoloji baxımdan həssas istifadəçilər üçün risk yaradır. İnsan öz narahatlıqları və qorxuları barədə çatbotla danışdıqda, sistem həmin düşüncələri təkrar gündəmə gətirə və onları normallaşdıra bilər. Bu isə reallıq qavrayışına təsir etmək gücünə malikdir. Məhz buna görə son aylarda süni intellekt yaddaşı ilə bağlı tənzimləmə çağırışları güclənib. ABŞ-də fəaliyyət göstərən Elektron Məxfilik Məlumat Mərkəzi gənclər üçün çatbot təhlükəsizliyi ilə bağlı qanun layihəsi hazırlayıb. Layihədə əsas təkliflərdən biri çatbot yaddaşının hər sessiyanın sonunda sıfırlanmasıdır. Məqsəd istifadəçilərin zərərli düşüncə modellərinə sürüklənməsinin qarşısını almaqdır.

Şirkətlər isə tənqidləri azaltmaq üçün yeni funksiyalar təqdim etməyə çalışırlar. "OpenAI" yaddaş sisteminin daha dəqiq işləməsi üçün yeniləmələr etdiyini açıqlayıb. "Microsoft" istifadəçilərə yaddaşı tam silmək, müəyyən məlumatları redaktə etmək və funksiyanı söndürmək imkanı təqdim edib. "Google" isə fərdiləşdirməni saxlayaraq bəzi məlumatların gələcək söhbətlərdə istifadə olunmamasını təmin edən yeni seçimlər üzərində işləyir.

Mütəxəssislər hesab edirlər ki, gələcəkdə süni intellekt savadlılığı rəqəmsal təhlükəsizliyin əsas hissəsinə çevriləcək. İnsanlar yalnız çatbotlardan necə istifadə etməyi deyil, onların yaddaşını necə idarə etməyi də öyrənməlidirlər. Həssas mövzular üçün müvəqqəti söhbət rejimindən istifadə etmək, yaddaş parametrlərini mütəmadi yoxlamaq və lazımsız məlumatları silmək artıq vacib rəqəmsal vərdişlərdən birinə çevrilir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# ABŞ-də yaşayan 35 yaşlı azərbaycanlı şahmat ustası və texnologiya mütəxəssisi gəncləri İT sahəsinə yönləndirir

**İnformasiya Texnologiyaları (İT) erasının mərkəzində dayanan proqramlaşdırma aparat və proqram təminatı, süni intellekt və bulud texnologiyaları arasında körpü rolunu oynayır. Bu sahə texniki bacarıqlarla biznes ehtiyaclarını birləşdirərək rəqəmsal transformasiyanın əsasını təşkil edir.**



Son illər bir sıra azərbaycanlı mütəxəssis dünyanın ən nəhəng İT korporasiyalarında qlobal layihələrə rəhbərlik edərək beynəlxalq arenada uğur qazanıb. Belə gənc mütəxəssislərdən biri də Bostonda (ABŞ) calışan istedadlı həmyerlimiz Movlan Əliyevdir. O, ABŞ-nin tanınmış maliyyə və texnologiya şirkətlərində baş həllər arxitektoru vəzifəsində çalışır, müəssisə səviyyəsində Power BI analitika platformaları, avtomatlaşdırma həlləri, süni intellekt agentləri və bulud infrastrukturu layihələri üzərində işləyir. Paralel olaraq DOM Tech Academy & DOM Chess vasitəsilə yüzlərlə şagirdə şahmat və texnologiya təlimi keçir.

DOM Tech Academy & DOM Chess STEM, robotika, kodlaşdırma və koqnitiv inkişaf sahələrində fəaliyyət göstərən təhsil akademiyasıdır. Akademiya şahmatı əsas koqnitiv alət kimi istifadə edərək şagirdlərin məntiqi düşüncə, problem həlli və texnoloji bacarıqlarını inkişaf etdirir.

Massaçusets ştatının Böyük Boston ərazisində fəaliyyət göstərən adıçəkilən akademiyanın qurucusu Movlan Əliyev şahmat təlimi ilə texnologiya təhsilini birləşdirən unikal tədris metodikası ilə diqqət çəkir. O, şahmat vasitəsilə məntiqi düşüncəni gücləndirir və Azərbaycanda beynəlxalq filiallar açmağı planlaşdırır.

Gənc azərbaycanlı mütəxəssis deyir: "Azərbaycan şahmat ənənələri ilə tanınır. Biz bu güclü bazanı texnologiya ilə birləşdirib gəncləri İT sektoruna hazırlamaq istəyirik. Şahmat düşüncə məktəbidir - proqramçı, analitik, mühəndis olmaq istəyən hər kəs üçün ən yaxşı başlanğıc nöqtəsidir. Şagirdlər tətbiq vasitəsilə şahmat tapşırıqları həll edir, sürətli intuisiya təlimi keçir və nəticələrini izləyirlər. Tətbiq pulsuz, reklamsız və uşaqlar üçün təhlükəsiz mühitdə hazırlanıb. Şagirdlər tətbiq üzərindən şahmat tapşırıqlarını həll edir, sürətli intuisiya təlimi keçir və nəticələrini izləyirlər. Tətbiq pulsuz, reklamsız və uşaqlar üçün təhlükəsiz mühitdə hazırlanıb".

Peşəkar şahmat ustası və eyni zamanda böyük texnologiya şirkətlərində çalışan baş həllər arxitektoru (Senior Solutions Architect) olan Movlan Əliyev, Microsoft Power Platform, Power BI, süni intellekt və avtomatlaşdırma sahələrində geniş təcrübəyə malikdir.

DOM Tech Academy-nin əsas fəlsəfəsi belədir: şahmat taxtasında hər gediş kodun bir sətri kimidir. Düşünürsən, yoxlayırsan, səhv olarsa, düzəldirsən. Bu yanaşma şagirdlərə proqramlaşdırma, məlumat analizi və süni intellekt kimi mürəkkəb sahələri daha asan mənimsəməyə imkan verir.

Akademiyada uşaqlar və yeniyetmələr şahmat, robotika, STEM və kodlaşdırma dərsləri alırlar. Lakin əsas məqsəd yarışma qazanmaq deyil, məntiqi düşüncəni, diqqəti, səbri və strateji planlaşdırmanı gücləndirməkdir. Bu bacarıqlar isə birbaşa İT sektorunda uğur üçün vacibdir.

Beynəlxalq genişlənmə planları barədə düşünən Movlan Əliyev hazırda Azərbaycanda DOM Tech Academy-nin beynəlxalq filiallarını açmaq niyyətindədir. Məqsəd Azərbaycandakı gənclərə və böyüklərə dünya standartlarında texnologiya təhsili və şahmat vasitəsilə peşəkar inkişaf imkanları yaratmaqdır.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*





# Vətən deyəndə...





## Tarix yazan oğullar

**Tarixdə heç nə unudulmur, heç nə yaddan çıxmır. Təəssüflər olsun ki, tarixin səhifələrinə hopub qalan hadisələrin heç də hamısı ürəkaçan, qəlboxşayan olmur. Bəzən kədərli səhifələrlə də qarşılaşırıq. Amma nə qədər kədərli olsa da, ona hörmətlə yanaşırıq, dərindən öyrənirik, tez-tez xatırlayıb yad edirik. Olanları, keçənləri heç vaxt unutmaq istəmirik.**

# 8 oğul, 8 kəşfiyyatçı, 8 qəhrəman

1997-ci il aprelin ilk günlərində Xocavənd istiqamətində düşmən arxasına keçən Azərbaycan Ordusunun 8 nəfərdən ibarət kəşfiyyat qrupunun göstərdiyi igidlik və qəhrəmanlıq tarix durduqca onun səhifələrində yaşayacaq. Zabit və əsgərlərimizin həmin əməliyyat zamanı göstərdikləri cəsarət və hünərlə bütün gələcək nəsillər fəxr edəcək, qürur duyacaqlar. Qəhrəmanlıqda, igidlikdə onlara oxşamağa çalışacaqlar.

Xidmətinə böyük məsuliyyətlə, qətiyyətlə yanaşan Azərbaycan Ordusunun kəşfiyyat qrupu diqqəti cəlb etmədən təmas xəttini keçərək düşmən mövqelərinin dərinliklərinə qədər gedib çıxmağı bacarmışdı. Artıq komandanlığın qarşıya qoyduğu döyüş tapşırığı uğurla yerinə yetirilmişdi. Axı onlar ilk dəfə deyildi ki, belə tapşırıqları icra edirdilər. İndiyə qədər bu cür çətin sınaqlardan çox çıxmışdılar. Bütün işlər necə tapşırılmışdısa, o cür də qaydasına qoyulmuşdu. Artıq geri qayıtmaq olardı. Hazırlıq işləri başa çatdıqdan sonra kəşfiyyat qrupunun üzvləri qayıtmağa başladılar. Bir çox məntəqəni təhlükəsiz şəraitdə keçdilər. Getdikcə məsafə azalırdı, hərbçilərimiz yavaş-yavaş mövqelərimizə yaxınlaşırdılar. Həmişəki kimi bu dəfə də əməliyyat uğurla yekunlaşacaq, əldə olunan məlumat lazımi yerə çatdırılacaqdı.

Amma gözlənilmədən kəşfiyyatçılarımız ermənilərlə qarşılaşdılar. Hərbçilərimizi aşkarlayan işğalçılar vaxt itirmədən onları mühasirəyə almağa, əsir götürməyə çalışırdılar. Məqsədlərinə çatmaq üçün əməliyyata böyük qüvvə cəlb etmişlər. Mühasirə halqası qapanmağa az qalanda düşmən hərbçilərimizə təslim olmağı təklif etdi. Vətənə sədaqət andı içmiş cəsur zabit və əsgərlərimiz isə ondan imtina edərək düşmənlə döyüşə girdilər. Onlar yaxşı bilirdilər ki, bu qeyri-bərabər döyüşdə erməni işğalçılarına qalib gələ bilməyəcəklər. Çünki həm qüvvələri, həm də silah-sursatları az idi. Böyük qüvvə ilə kəşfiyyatçılarımız üzərinə hücuma keçən işğalçılar yaxınlaşanda cəsur hərbçilərimiz eyni vaxtda özlərini qumbara ilə partlatdılar. Cəsarət və qəhrəmanlıqlarını bütün dünyaya göstərdilər. Torpaq, Vətən uğrunda fədakarlığın, şəhidliyin heyranedici nümunəsini yaratdılar. Kəşfiyyatçılarımız döyüş zamanı düşmənin xeyli canlı qüvvəsini məhv etmişdilər. Onlar bununla cəsarət və hünərləri ilə düşmənə dərs vermişdilər.

Qəhrəmanlıqları ilə dünyaya səs salan cəsur oğullarımızı hamımız tanımalıyıq. Əməliyyat zamanı böyük cəsarət göstərən hərbçilərimiz kəşfiyyat qrupunun komandiri leytenant Elxan Ataxan oğlu Ağayev, leytenant Vüqar Rzaxan oğlu Yarəhmədov, çavuşlar Anar Üzeyir oğlu Rzayev, Dinar İbrahim oğlu Mustafayev, Aqşin Əli oğlu Həsənov, Nizami Səfi oğlu Ələkbərov, Fariz Şamil oğlu Cavadovdur. Adlarını böyük fərəh hissi ilə yazdığımız bu oğullarla xalqımız fəxr edir. O zaman Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə bu cəsur oğullar göstərdikləri qəhrəmanlığa və igidliyə görə "Azərbaycan Bayrağı" ordeni ilə təltif olundular.







Erməni işğalçıları hərbçilərimizin meyitlərini qaytarmaq istəmirdilər. Xeyli vaxt keçsə də, danışıqlar aparılsa da düşmən inadından dönmürdü. Əməliyyat zamanı qəhrəmancasına şəhid olmuş hərbçilərimizin nəşlərini 6 aydan sonra geri almaq mümkün oldu. Şəhidlərin valideynlərinin gözləri yollardan yığıldı. Qeyri-bərabər döyüşdə şəhidlik zirvəsinə yüksələn 7 hərbçinin nəşi təntənə ilə ölkəmizin paytaxtındakı Hərbi Memorial Məzarlıqda dəfn olundu.

Həmin 8 kəşfiyyatçıdan yalnız biri sağ qalıb. O, çavuş Aqil Əhmədovdur. Aqil mühasirə zamanı müqavimət göstərərkən ağır yaralanaraq huşunu itirmişdi. Qəsbkarlar onu yaralı vəziyyətdə əsir götürmüşdülər. Özünə gələndən sonra ermənilər Aqilə dözülməz işgəncələr vermiş, ondan özlərinə lazım olan informasiya almağa çalışmışlar. Amma cəsur kəşfiyyatçımız işgəncələrə dözərək heç bir hərbi sirri verməmişdi. Dediyinə görə, Aqilə ən çox verilən sual Azərbaycan Ordusunda bu cür şücaətin, bu cür igidliyin necə formalaşdırıldığı barədə olub. İşğalçılar kəşfiyyatçılarımızın qəhrəmanlığını, igidiliyini əsgərlərinə nümunə gətiriblər. Aqilin əzablarla dolu olan əsirlik həyatı 2 il davam edib. Ermənistan məhkəməsi cəsur əsgər Aqil Əhmədova güllələnmə hökmü çıxarıb. Lakin Ümummilli Lider Heydər Əliyevin ciddi səyi nəticəsində Aqili dəyişmək mümkün olub. İgid kəşfiyyatçı ağır işgəncələr görmüş erməni əsirliyindən azad edilib.

Ehtiyatda olan polkovnik, cəsur zabit və əsgərlərin komandiri olmuş Xətai Baxışov o günlərdən söhbət açaraq dedi: "Həmin hərbçilər ən yaxşı xüsusi təyinatlı döyüşçülərimiz idilər. Hamı onları "Qorxmazlar dəstəsi" adlandırırdı. O zaman seçimimizi tamamlayıb 8 nəfərdən ibarət kəşfiyyat qrupunu xüsusi tapşırıqla düşmən arxasına göndərdik. Hərbçilərimiz düşmənlə təmas xəttini nəzərə çarpmadan uğurla keçərək əvvəlcədən müəyyən olunmuş ərazilərdə qarşıya qoyulan tapşırıqları yerinə yetirdilər. Təəssüf ki, zabit və əsgərlərimiz geri qayıdarkən düşmənlə üz-üzə gəldilər. Onlar 3 gün ermənilərin mühasirəsindən çıxmaq üçün döyüşə-döyüşə müxtəlif çaşdırıcı manevrlər etdilər. Lakin qurtula bilmədilər".

Söhbətimiz zamanı şəhid Fariz Cavadovun qardaşı Eyvaz Cavadov onun döyüş yolu barədə söz açdı. Dedi ki, qardaşı ordu sıralarına 1993-cü ildə çağırılıb: "Həmişə fərqlənib, təşəkkürnamə və fəxri fərmanlara layiq görülüb. 1997-ci il aprelin ilk günlərində xüsusi tapşırıqla zabit və əsgər yoldaşları ilə düşmən arxasına keçiblər. Təəssüf ki, geri qayıdanda düşmənlə qarşılaşıblar, mühasirəyə düşüblər. Cəsarətləri, igidlikləri ilə şəhidlik zirvəsinə ucalıblar".

Dinar Mustafayevin bacısı Yazanə Mustafayeva deyir ki, qardaşının şəhid olması xəbəri onlar üçün gözlənilməz oldu: "Çünki həmin vaxt cəbhədə atəşkəs rejimi hökm sürürdü, gərginlik yox idi. Dinarın şəhid olması bizi dərindən sarsıtdı. Qardaşım xidmətindən çox danışmağı xoşlamazdı. Onun kəşfiyyatçı olduğunu biz yalnız o şəhid olandan sonra bildik. Dinarın qəhrəmanlığı, igidliyi ilə fəxr edirəm. Qardaşım dünyanın şirinliyini dadmamış 20 yaşında şəhid oldu. Bu gün bizə təsəlli Dinarın erməni işğalçılarına qarşı cəsarətlə vuruşduğu və şəhid olduğu yeri ziyarət etməkdir".

Şəhid kəşfiyyatçılardan biri olan Aqşin Həsənovun anası Xanım Həsənova söylədi ki, oğullar Vətəni qorumaq üçün doğulur: "Fəxr edirəm ki, Aqşin də yurdumuzu qoruyan əsgərlərin sırasında vuruşub. Hərbçi kimi üzərinə düşən tapşırığı cəsarətlə yerinə yetirib. Təntənəli surətdə içdiyi hərbi anda sadiq qalıb. Şəhid anası kimi istərdim ki, 8 qardaş kəşfiyyatçı haqqında film çəkilsin, kitablar yazılsın, onların qəhrəmanlığına poemalar, şeirlər həsr olunsun. Övladlarımızın qəhrəmanlığı, igidliyi filmlərdə, kitablarda yaşasın. Gələcək nəsillər bu cəsur oğullarımızı tanısın, onların şərəf dolu qəhrəmanlıq yollarını uğurla davam etdirsinlər".

Şəhid Vüqar Yarəhmədovun anası Elza xanım oğlunu göz yaşları içində xatırladı. Bildirdi ki, Vüqarın hərbi sahəyə həvəsinin yaranmasında atamın böyük rolu olub: "İkinci Dünya müharibəsinin iştirakçısı olan atam həmişə Vüqara hitlerçilərə qarşı necə cəsarətlə vuruşduğundan, keçdiyi şərəfli döyüş yolundan danışardı. Vüqar da sakitcə oturub babasına qulaq asardı. Yəqin ki, bu söhbətlərə qulaq asa-asa gələcək həyatını, seçəcəyi peşəni götür-qoy edirdi. Buna görə də fikirləşirəm ki, Vüqarın hərbçi olmağına atamın müharibə haqqında söhbətlərinin böyük təsiri olub. Yaxşı xatırlayıram ki, oğlum sonuncu dəfə martın 30-da evdən çıxdı. Onunla axırıncı görüşümüz də elə həmin gün oldu. Onu da deyim ki, Vüqarın ədəbiyyata, mütaliəyə də böyük marağı var idi. Mütaliə ilə yanaşı, özü də yaradıcılıqla məşğul olurdu. Bir-birindən maraqlı hekayələr yazardı. Təəssüflər olsun ki, onun ömrü kimi yaradıcılığı da yarımçıq qaldı".

Xüsusi əməliyyat zamanı Vətən yolunda canından keçən Anar Rzayevin anası Siyafət Rzayeva söhbət zamanı dedi ki, şəhidlərimiz döyüşməsəydi, torpaqlarımız düşmən işğalından azad olunmazdı: "Məhz onların qəhrəmanlığı və cəsarəti sayəsində torpaqlarımız işğalçılardan azad olundu. Onların hamısı Azərbaycan xalqının övladlarıdır. Qarabağın azadlığı uğrunda qanlı döyüşlər gedəndə oğlum universitetdə oxuyurdu. Bir gün mənə dedi ki, ana və bacılarımız erməni əsirliyindədir. Biz nəyin bahasına olursa-olsun, torpaqlarımızı ermənilərindən təmizləməli, bu günahsız insanları əsirlikdən azad etməliyik".

Hələ uzaq 1997-ci ildə, 29 il əvvəl düşmən arxasına gedən 8 hərbçimiz igidlik və cəsarətləri ilə çoxlarının bacarmadığı qəhrəmanlıq məktəbi yaratdılar. Hünər və rəşadətləri ilə dostları da, düşmənləri də heyrətləndirdilər. 27 sentyabr 2020-ci ildə erməni işğalçılarının təxrbatı nəticəsində İkinci Qarabağ müharibəsi başladı. Azərbaycan Ordusunun zabit və əsgərləri Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında döyüşlərə atıldılar. Cəsur hərbçilərimiz "Xocavənd əməliyyatı" zamanı böyük hünər göstərmiş leytenantlar Elxan Ağayev, Vüqar Yarəhmədov, müddətdən artıq hərbi xidmət hərbi qulluqçuları Anar Rzayev, Aqşin Həsənov, Nizami Ələkbərov, Fariz Cavadov və Dinar Mustafayevin döyüş yolunu şərəflə davam etdirdilər. Torpaqlarımızın azadlığı uğrunda döyüşlərə atılmış cəsur oğullarımız xalqımıza qələbə sevinci yaşadaraq onların yaratdıqları məktəbin davamçıları olduqlarını qəhrəmanlıqları ilə sübut etdilər. 30 ilə yaxın erməni işğalında qalmış Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Laçında, Şuşada, Ağdamda, Xankəndidə, Xocalıda, Xocavənddə və başqa şəhər və qəsəbələrdə böyük qürurla Zəfər bayrağını dalğalandırdılar.

İkinci Qarabağ müharibəsi ordumuzun zəfəri ilə başa çatdıqdan sonra 8 igid hərbçimizin erməni qəsbkarlarına qarşı cəsarətlə vuruşduğu, 3 gün müqavimət göstərdiyi və qəhrəmancasına şəhid olduğu Xocavənd rayonunun Yuxarı Güzlək kəndi də düşməndən azad edildi. Çox keçmədi ki, həmin ərazi şəhidlərin doğmaları tərəfindən ziyarət olundu. Sonra isə bu ərazidə şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üçün onların özlərini partlatdıqları ərazidə bulaq tikildi və rəmzi guşə yaradıldı. Guşənin qarşısında güllər, çiçəklər əkildi. İndi şəhid ailələri övladlarının qoxusunu almaq üçün tez-tez Xocavənd rayonuna gedir, bu müqəddəs məkanı ziyarət edir, cəsur oğulların ruhuna dualar oxuyurlar. Sanki yerlərdən hər gün atəş səsləri eşidilir. Elə bil şəhidlər ölməyiblər, hələ də erməni işğalçılarına qarşı cəsarətlə vuruşur, müqavimət göstərir, yurdumuzu qoruyurlar.

Bu qəhrəman zabit və əsgərlərin xidmət və döyüş yollarına həsr olunmuş "Səkkiz oğul istərəm" sənədli filmi çəkilib. "Əbədi yaşayanlar" adlı kitab yazılıb. Qəhrəmanlarımız haqqında belə kitabların yazılması, sənədli filmlərin çəkilməsi olduqca gərəkli işdir. Çünki qəhrəmanlardan, qəhrəmanlıqdan bəhs edən belə kitabları oxuyanlar, filmlərə baxanlar gələcəkdə onların şərəf dolu döyüş yollarını ləyaqətlə davam etdirəcəklər, qəhrəmanlıqları ilə tarix yazacaqlar.

Xalqımız yurdumuzun azadlığı uğrunda şəhid olmuş Vətənin belə cəsur oğullarını heç vaxt unutmaycaq. Ərazilərimizin hər qarış torpağı uğrunda cəsarətlə vuruşmuş, ermənilərə sarsıdıcı zərbələr vurmuş igid oğulları ilə fəxr edib öyünəcək.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## Ölməzliyə qovuşanlar

# "Oğlum Rəvanın qəhrəmanlığı ilə həmişə fəxr edəcəyəm"

**El dara düşəndə, yurda düşmən hücumu olanda torpaq qeyrəti çəkən oğullar silaha sarılaraq Vətənin müdafiəsinə yollanırlar. İgidliklə, cəsarətlə vuruşaraq yurdu işğaldan qoruyurlar. Elə buna görə də atalar yaxşı deyib: "Oğullar vətəni qorumaq üçün doğulur".**



27 sentyabr 2020-ci ildə İkinci Qarabağ müharibəsi başlayanda da torpaq qeyrəti çəkən oğullar silaha sarılaraq döyüşlərə yollandılar. Yurdu, el-obanı qorumaq üçün vuruşdular, erməni işğalçılarına sarsıdıcı zərbələr vuraraq qəsbkarlara yeni ərazilərimizi zəbt etməyə imkan vermədilər.

Həmin günlər döyüşə gedən cəsur oğullardan biri də Rəvan Əliabbas oğlu Məlikov idi. Rəvan 6 mart 1996-cı ildə Kürdəmirin Şımıxlı kəndində dünyaya göz açmışdı. 2003-cü ildən 2014-cü ilə qədər rayonun Köhnəbazar kəndindəki orta məktəbdə oxumuş, orta təhsilini başa vurandan sonra Vətən qarşısındakı övladlıq borcunu yerinə yetrirmək üçün ordu sıralarına yollanmışdı. Xidmət müddətində hərbi biliklərə, müxtəlif təyinatlı silahların sirlərinə dərindən yiyələnmişdi. Rəvanın böyük qardaşı Pünhan hərbçi idi. Rəvan da onun kimi əyninə hərbi forma geyinib doğma ordumuzun sıralarında xidmət etmək istəyirdi.

Ürəyində pöhrələyən arzularına çatmaq üçün Rəvan Məlikov ordu sıralarından qayıtdıqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmətə başladı. Cəbrayıl istiqamətində xidmət edən Rəvan həmişə səngərində ayıq-sayıq dayanır, mövqelərini göz bəbəyi kimi qoruyurdu. Səngərdən Cəbrayıl rayonunun dağıdılmış kəndlərinə, göz işlədikcə uzanıb gedən ərazilərinə baxanda düşmənə nifrəti daha da artırdı. Tezliklə bu yerlərin erməni işğalından azad olunmasını istəyirdi. Düşünürdü ki, işğal bu qədər uzana bilməz. Ordumuz çox güclü və qüdrətlidir. Qısa zaman ərzində qəsbkarları məğlub edə bilər. Rəvan özü də torpaqlarımızın azadlığı uğrunda başlayacaq döyüşlərin ön sıralarında vuruşmağı arzulayırdı. O günü, o anı səbirsizliklə gözləyirdi.

Rəvanın gözlədiyi gün gəlib çatdı. 2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başladı. Həmin gün Rəvan da düşmən hücumunun qarşısını alanların sırasında idi. O da əsgər yoldaşları ilə çiyin-çiyinə erməni işğalçılarına qarşı cəsarətlə vuruşurdu. Çox çəkmir, komandanlığın əmri ilə əks-hücum əməliyyatları başladı. Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ərazilərimizin azad edilməsi uğrunda döyüşlərə atıldı. Hərbçilərimiz vuruşa-vuruşa düşməni geri sıxışdırırdılar. Əsgər Rəvan da ön sıralarda vuruşurdu. Artıq düşmənin ön mövqeləri darmadağın edilmişdi.

Oktyabr ayının 1-i idi. Cəbrayılın Nüzgar kəndi uğrunda döyüşlər gedirdi. Rəvan silahının hədəfinə tuş gələn işğalçıları bir-bir məhv edirdi. Kəndin xeyli hissəsi düşməndən azad edilmişdi. Rəvan düşmənə daha dəqiq atəş açmaq üçün mövqeyini dəyişmək istəyəndə düşmən gülləsinə tuş gəldi və ağır yaralandı. Hərbi həkimlər nə qədər cəhd göstərsələr də, onun həyatını xilas edə bilmədilər. Rəvan torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu. Ertəsi gün, oktyabr ayının 2-də doğmalarının, yaxınlarının və ictimaiyyət nümayəndələrinin iştirakı ilə kəndlərindəki qəbiristanlıqda torpağa tapşırıldı.

İkinci Qarabağ müharibəsində ərazilərimizin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdiyi igidliyə və cəsarətə görə Rəvan Əliabbas oğlu Məlikov Prezident İlham Əliyevin sərəncamları ilə "Cəsur döyüşçü", "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

Anası Gülbəniz Məlikova övladını kədər hissi ilə xatırlayır. Deyir ki, Rəvan orduda xidmətə böyük həvəslə getdi: "O, əlini tez-tez sinəsinin üstünə qoyub deyirdi ki, ana, sənin bu oğlun Qarabağ uğrunda döyüşməyə gedəcək, erməni işğalçılarına Azərbaycan əsgərinin gücünü, qüdrətini göstərəcək. Deyirdim ki, ay bala, böyük qardaşın Pünhan da hərbçidi, onun çətinliklərini görürsən. Axı sən evin sonbeşiyisən, atan da, mən də yavaş-yavş yaşlanırıq, bizə kömək lazımdır. Nə qədər desəm də, məqsədindən, istəyindən



geri dönmədi, ordu sıralarında xidmətə getdi. 2020-ci il sentyabrın 27-də müharibə başlayan gün iki qardaş ikisi də döyüşə atıldı. Uşaqlarımın, xüsusən də Rəvanın ustundə çox əsmişəm. Kanala çimməyə getmək üçün icazə verirdim, sonra isə ozüm dalınca gedirdim ki, cıx gəl evə, burulğana düşüb batarsan. Rəvan da körpə uşaq kimi mənə bağlı idi".

Şəhid atası Əliabbas Məlikov da oğlunu göz yaşları içində xatırlayır: "Dörd övlad böyütmüşük. Rəvan o birilərinə baxanda şıltaq idi, amma ərköyün deyildi. Ordu sıralarında xidmətə gedəndə anası onu fikrindən daşındırmaq istədi ki, özünə başqa bir yerdə iş tapsın. Amma Rəvan fikrindən dönmədi. Amma mən onun orduda xidmət etməyinə qarşı çıxmadım. Dedim ki, ürəyi istəyirsə, getsin. Döyüşə getməyini də bizdən gizlətmişdi, deyirdi ki, təlimə gedirəm. Yalnız şəhid olandan sonra bildik ki, Rəvan döyüşdəymiş. Oğlumun qəhrəmanlığı ilə həmişə fəxr edəcəyəm".

***V.MƏMMƏDQULUOĞLU,***
***"Azərbaycan"***

# HHQ-də zabit təkmilləşdirmə kursunun növbəti buraxılış mərasimi keçirilib

**Cari ilin hazırlıq planına uyğun olaraq Hərbi Hava Qüvvələrinin (HHQ) Təlim və Tədris Mərkəzində zabit təkmilləşdirmə kursunun növbəti buraxılış mərasimi keçirilib.**

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Məzunları buraxılış münasibətilə Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik edən general-mayor Namiq Bayramov onlara gələcək xidmətlərində uğurlar arzulayıb.

Bu cür kursların ordumuzun döyüş qüdrətinin artırılması və peşəkar zabit kadrları ilə komplektləşdirilməsində xüsusi əhəmiyyətə malik olduğu bildirilib. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu islahatlar nəticəsində Hərbi Hava




Qüvvələrimizin gündən-günə gücləndiyi vurğulanıb.

Sonda kursu müvəffəqiyyətlə bitirənlərə sertifikatlar təqdim olunub, kurs birincisi tərəfindən rəmzi yaş kötüyünə emblem vurulub.

